Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 40 (8063) ÇƏRŞƏNBƏ AXŞAMI, 19 fevral 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Azərbaycan Prezidenti İlham Əliyevin Sumqayıta səfəri

## Əbədi ehtiram ünvanı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 18-də Sumqayıt şəhərinə səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib önünə gül dəstəsi qoydu.

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov şəhərdə görülən işlər haqqında dövlət başçısına məlumat verdi.

Prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.



## Sumqayıt şəhərində abadlıq-quruculuq və avtomobil yollarının əsaslı təmiri işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurlu icrası nəticəsində Sumqayıt şəhərində sosialyönümlü bir sıra infrastruktur layihələri yerinə yetirilmiş, o cümlədən Olimpiya və Paralimpiya İdman Kompleksləri, Bayraq Muzeyi, Gənclər Mərkəzi, Şahmat Məktəbi, Uşaq İncəsənət Məktəbi, əlil və şəhid ailələri üçün ümumilikdə 240 mənzilli 5 yaşayış binası inşa edilmiş, 1 saylı Şəhər Mərkəzi Xəstəxanasının, "Kimyaçılar" Mədəniyyət Sarayının, Sumqayıt Dövlət Dram Teatrının, Tarix Muzeyinin, 1 saylı Uşaq-Gənclər İdman Məktəbinin binaları əsaslı təmir olunmuş, "ASAN xidmət" Mərkəzi fəaliyyətə başlamış, 22 ümumtəhsil müəssisəsi istifadəyə verilmiş, iri sənaye müəssisələri yaradılmış, 67 min yeni iş yeri açılmışdır. Bundan başqa, şəhər ərazisində geniş abadlıq-quruculuq işləri aparılmış, o cümlədən şəhər avtomobil yolları yenidən qurulmuş, çoxmənzilli binaların dam örtüyünün dəyişdirilməsi, lift təsərrüfatının yenidən qurulması sahəsində əsaslı işlər görülmüş, 106 hektar ərazidə dənizkənarı bulvar-kompleksi salınmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq Sumqayıt şəhərində abadlıq-quruculuq və avtomobil yollarının əsaslı təmiri işlərinin davam etdirilməsi məqsədilə **qərara alıram:**

1. Sumqayıt şəhərində abadlıq-quruculuq və avtomobil yollarının əsaslı təmiri işlərinin davam etdirilməsi üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Sumqayıt Şəhər İcra Hakimiyyətinə 3,0 (üç) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 fevral 2019-cu il*

## 300 min ton istehsal gücü, 500-dən artıq yeni iş yeri...

### 500 hektarlıq ərazidə yerləşən "SOCAR Polymer"in yüksəksıxlıqlı polietilen zavodunun illik istehsal potensialı qeyri-neft ixracının 15 faiz artımını təmin edir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 18-də Sumqayıt Kimya Sənaye Parkında "SOCAR Polymer" layihəsi çərçivəsində inşa edilən yüksəksıxlıqlı polietilen zavodunun açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev və "SOCAR Polymer" MMC-nin baş direktoru Fərid Cəfərov dövlət başçısına görülən işlərlə bağlı məlumat verdilər.

Bildirildi ki, "SOCAR Polymer" layihəsi son 40 ildə öz növünə və miqyasına görə Azərbaycanın neft-kimya sənayesində həyata keçirilən ilk belə layihədir. "SOCAR Polymer" şirkəti Azərbaycanda kimya sənayesinin inkişafını sürətləndirmək məqsədilə 2013-cü ildə təsis edilib. 2015-ci il oktyabrın 25-də isə Prezident İlham Əliyevin iştirakı ilə ən yüksək standartlara və müasir texnologiyalara əsaslanan "SOCAR Polymer" zavodlarının təməli qoyulub. 2018-ci il iyulun 18-də Azərbaycan Prezidenti İlham Əliyevin və İtaliya Prezidenti Sercio Mattarellanın iştirakı ilə layihə çərçivəsində inşa olunan polipropilen zavodunun açılışı olub. Artıq yüksəksıxlıqlı polietilen zavodu da istismara tam hazırdır. İlkin mərhələdə, "SOCAR Polymer" zavodları ildə 10 çeşiddə 184 min ton polipropilen və 4 çeşiddə 120 min ton yüksəksıxlıqlı polietilen istehsal edəcək. SOCAR-ın yeni sənaye kompleksi daxili bazarın tələbatını tam ödəyəcək və məhsulun izafi qalan 75 faizini Türkiyə və Avropa bazarlarına ixrac edəcək.

Prezident İlham Əliyevə məlumat verildi ki, artıq Türkiyə, Rusiya, Belarus və Ukraynadan sifarişlər qəbul edilib. Zavodda "Made in Azerbaijan" brendi ilə istehsal olunan polipropilen qatarla sifariş olunan ölkələrə yola salınıb.

Qeyd edək ki, "SOCAR Polymer" Azərbaycanın neft-kimya sənayesində dövlət-özəl sektor tərəfdaşlığı üzrə yaradılan ilk şirkətdir. Layihəni həyata keçirmək üçün İtaliyanın "Maire Tecnimont", Niderlandın "Fluor" şirkətləri və digər şirkətlər cəlb edilib. Layihə çərçivəsində milli mühəndis kadrlarının ixtisaslarının artırılması təmin olunacaq. Bu məqsədə çatmaq üçün vahid layihə idarəetmə qrupu yaradılıb. "Fluor" şirkəti milli mühəndis kadrları və digər işçilər üçün Amsterdamda, Milanda və Mumbayda ixtisas kursları təşkil edib. Bundan başqa, ekoloji və sosial təsirlərin minimuma endirilməsi, zərərli maddələrin və maye tullantılarının zərərsizləşdirilməsi diqqət mərkəzində saxlanılıb. Odur ki, beynəlxalq lisenziyalardan əldə edilən texnologiya əsasında fəaliyyət göstərəcək bu zavodlar istehsal prosesi və məhsulun keyfiyyəti baxımından ən yüksək beynəlxalq standartlara cavab verəcək.

Sonra Prezident İlham Əliyev zavodun idarəetmə mərkəzi ilə tanış oldu. Burada ümummilli lider Heydər Əliyevin müxtəlif vaxtlarda Sumqayıta səfərlərinin əks olunduğu fotoguşə yaradılıb. Müəssisəyə cəlb olunan investisiyaların 60 faizi Rusiyanın "Gazprombank", qalan hissəsi isə müvafiq olaraq "SOCAR", "Vitol", "Paşa Holdinq", "Gilan Holdinq" və "Azərsun Holdinq" tərəfindən təmin edilib.

*Ardı 2-ci səh.*





## Xalq - PREZİDENT vəhdətinin təntənəsi növbəti dəfə Sumqayıtda yaşandı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 18-də Sumqayıta səfəri çərçivəsində burada inşa edilən dənizkənarı bulvarda yaradılan şəraitlə tanış olub.

AZƏRTAC xəbər verir ki, Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov bulvarda görülən işlər barədə məlumat verdi.

Dənizkənarı bulvarda Sumqayıt sakinləri dövlət başçısına yaxınlaşaraq söhbət ediblər.

**Sakinlər:** Xoş gəlmisiniz bizim Sumqayıta. Siz bizim prezidentlər içərisində seçilən Prezidentimizsiniz. Biz sizinlə fəxr edirik. Allah Sizə cansağlığı versin, bizə bu gözəl şəraiti Siz yaratmısınız.

**Prezident İlham Əliyev:** Xoş gördük, çox sağ olun, necəsiniz?

**Sakin:** Hörmətli Prezidentimiz, Sizin bu gəlişiniz Sumqayıt üçün, bizim üçün toy-bayramdır. Bunun iki böyük amili, bir nəticəsi var. O amilin biri odur ki, hörmətli Prezidentimiz, Ali Baş Komandanımız xalqın arasındadır. İkinci böyük amil ondan ibarətdir ki, ölkəmizin bütün əhalisi, bütün vətəndaşları Prezidentimizin ətrafındadır. Bunun nəticəsi nədir? Nəticə odur ki, xalqla Prezidentin böyük monolit birliyi var. Bəzən elə olur ki, öz ayaqqabısının ölçüsü qədər bir iş görə bilməyənlər bu qədər gözəlliyə, bu qədər inkişafa ağız büzürlər. Amma onlar bu monolit birliyin qabağında dura bilməzlər, qəti dura bilməzlər.

**Sakin:** Allah Sizi qorusun, cənab Prezident, xahiş edirik, bizim salamlarımızı analar anası, xanımlar xanımı Mehriban xanıma çatdırasınız.

**Prezident İlham Əliyev:** Mütləq çatdıraram.

**Sakin:** Möhtərəm Prezidentimiz cənab İlham Əliyev, Siz gündən-günə gözəlləşən, abadlaşan, qocaldıqca cavanlaşan Sumqayıt şəhərinə çox xoş gəlmisiniz.

Cənab Prezidentimiz, mən 50 ildir Sumqayıtda yaşayıram, 85 yaşım var. Mən buraların dünənini yaxşı görmüşəm, qamışlıq, çirkab, şoran çöllər. Buraya heç kim gəlmək istəmirdi, amma bu gün gələn getmək istəmir.

**Sakin:** Nəinki gələn, biz buradan gözəl ev almışıq, gözəl ev tikdirmisiniz. Çox gözəl, yüksək səviyyədə.

**Sakin:** Mənim ağlıma gəlməzdi ki, Sizin möcüzə adlandırdığınız Sumqayıt bulvarında mən nəvələrimlə, tay-tuşlarımla gəzim. Allah Sizi var eləsin. Bu yaşımda Sumqayıt bulvarında gəzməyimlə fəxr edirəm.

**Prezident İlham Əliyev:** Çox sağ olun.

**Sakin:** Bir şəhid anası kimi, leytenant anası kimi Sizə çox-çox təşəkkür edirəm ki, bütün şəhid ailələrinə yardım etdiniz, kömək etdiniz. Onların başının üstündə həmişə bir ata, oğul, qardaş kimi olasınız.

**Prezident İlham Əliyev:** Həmişə elə də olacaq. Əmin ola bilərsiniz.

**Sakin:** Mən zabitəm, Qarabağ döyüşlərində iştirak etmişəm, qaziyəm. Əvvəla, Sizə "Xoş gəlmisiniz!" deyirik, Allah Sizi qorusun. Siz Azərbaycanın başının tacı olan şəhidlərin ailələrini qəbul etdiniz, o duyğulu anları biz indi də yaşayırıq. Bir daha sübut etdiniz ki, həmin yaşlı şəhid ailələrinin bir oğlusunuz, bu gün həddi-buluğa çatan şəhid övladlarına bir böyük qardaşsınız. Allah Sizdən razı olsun. Mən Sizi inandırıram ki, Azərbaycanın hər bir övladı o ərazilərin azad olunmasına canla-başla hazırdır. Vətəni uğrunda canından keçməyə, əlindən gələni etməyə hazırdır. Azərbaycan əsgəri 2016-cı ildə bunu bir daha sübut etdi. Biz hər zaman Sizin ətrafınızdayıq və İnşallah, "İrəli!" əmrinizi gözləyirik.

**Sakin:** Sumqayıt idmançıları Sizə həmişə dəstək olub və həmişə də dəstək olacaqlar.

**Sakin:** Bulvarın salınması, bu evlərin tikilməsi üçün böyük minnətdarlığımı bildirirəm. Sizin səyiniz, göstərişləriniz nəticəsində belə gözəl bulvar yaradılıb, evlər tikilib. Çox sağ olun, Allah Sizə ömür versin.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Sakin:** Sizi bir tələbə kimi salamlayıram, bizim Sumqayıtımıza xoş gəlmisiniz. Tələbələrin təqaüdünü artırdığınıza görə Sizə çox təşəkkür edirəm. Tələbələr adından Sizdən bir xahişim də var. Sumqayıt Dövlət Universitetinin, şəhərdəki kolleclərin yataqxanalarındakı məcburi köçkünlərin köçürülməsini və bizim tələbələrin orada yerləşdirilməsi üçün göstəriş verməyinizi Sizdən xahiş edirik.

**Prezident İlham Əliyev:** Biz bu məsələni də həll edəcəyik. Bu il bu məsələ həll olunmalıdır. Bilirsiniz ki, keçən il Sumqayıtdakı köçkünlər üçün 2 mindən çox mənzilin tikintisi təmin edildi və mən o evlərin açılışında olmuşam. Sumqayıtda təqribən 14 min məcburi köçkün ailəsi məskunlaşıb və biz bütün bu ailələri tədricən yeni evlərə köçürəcəyik. Göstəriş verildi ki, bu il əlavə 2 min mənzildən ibarət şəhərciklər salınsın və bu məsələ bir neçə il ərzində həll olunacaq. Həm köçkünlər rahat evlərə köçəcəklər, həm də onların indi qaldıqları yataqxanalar təmir olunacaq və tələbələrə veriləcək.

Bilirsiniz ki, son illər Sumqayıtın inkişafı ilə bağlı çox böyük işlər görülüb. Sumqayıt bu gün müasir sənaye mərkəzinə çevrilib və burada fəaliyyət göstərən müəssisələrdə minlərlə insan işlə təmin edilir. Elə bu gün səhər yeni müasir polietilen zavodunun açılışını etdik. Bu zavod təqribən 500 iş yeri yaradan bir müəssisədir. Burada istehsal olunacaq məhsullar ixracyönümlüdür və ölkə iqtisadiyyatına böyük töhfə verəcək. Biz bu yaxınlarda azot gübrələri zavodunun açılışını da etdik. Orada da 500 nəfər işlə təmin olunub. Eyni zamanda, göstəriş vermişəm ki, ödənişli ictimai işlər də açılsın və 2 min iş artıq açılıbdır. Göstəriş vermişəm ki, əlavə təqribən 2 minə yaxın ictimai iş açılsın ki, hələlik iş tapa bilməyən vətəndaşlar orada işləyə bilsinlər. Siz xatırlatdınız, mən demişəm ki, Sumqayıt bulvarı da bir möcüzədir.

*Ardı 3-cü səh.*

# 300 min ton istehsal gücü, 500-dən artıq yeni iş yeri...

## 500 hektarlıq ərazidə yerləşən "SOCAR Polymer"in yüksəksıxlıqlı polietilen zavodunun illik istehsal potensialı qeyri-neft ixracının 15 faiz artımını təmin edir

*Əvvəli 1-ci səh.*



















"Layihə maliyyələşdirilməsi" prinsipi əsasında 489 milyon dollar məbləğində əsas səhmdarın təminatı olmadan kredit alınıb. Bu prinsip əsasında maliyyələşdirmə ölkə daxilində birinci dəfədir ki, həyata keçirilir. Ümumi investisiya xərcləri 816 milyon dollar təşkil edir. Zavodların istismarı dövründə 6,6 milyard dollar məbləğində gəlir proqnozlaşdırılır ki, bunun 30 faizi şirkətin xalis mənfəəti olacaq. Bundan başqa, "SOCAR Polymer" tərəfindən dövlət büdcəsinə istismar müddəti ərzində ümumilikdə 600 milyon dollar məbləğində vergilərin ödənilməsi nəzərdə tutulur. Bu, ölkənin ümumi daxili məhsulunun artmasına da kömək edəcək. İlkin qiymətləndirmələrə görə, "SOCAR Polymer" zavodlarının fəaliyyəti Azərbaycanın qeyri-neft sektorunun ixrac gəlirlərini 15 faiz, Abşeron iqtisadi regionunun ümumi daxili məhsulunun həcmini isə 14 faizdən çox artıracaq.

Prezident İlham Əliyev yüksəksıxlıqlı polietilen zavodunu işə saldı.

Zavodun tərkibində olan polimerizasiya, katalizatorun aktivləşdirilməsi əraziləri, orqanoleptik emal bölməsi, laboratoriya, qablaşdırma bölməsi, anbar və idarəetmə otağının fəaliyyətinə dair qısa film nümayiş olundu.

Sonra yüksəksıxlıqlı polietilen zavodunun ilk məhsulu xatirə olaraq Prezident İlham Əliyevə hədiyyə edildi.

**Zavodun işçisi Nigar Qarayeva:** Cənab Prezident, müəssisəmizə gəldiyiniz üçün Sizə təşəkkürümüzü bildiririk. Qeyd etmək istərdik ki, ümumiyyətlə, zavodun tikilməsinə başlayan zamandan biz həmişə Sizin diqqət və qayğınızı hiss etmişik. Bunun bariz nümunəsi zavodun təməlqoyma mərasimində və onun açılışında Sizin iştirak etməyinizdir. Biz istərdik ki, zavodumuzun ilk məhsulunu xatirə olaraq Sizə təqdim edək. Qeyd etmək istərdik ki, zavodumuzda istehsal olunacaq bu qranullar yüksəksıxlıqlı polietilenin qara və təbii növləridir.

**Prezident İlham Əliyev:** Sağ olun, təşəkkür edirəm.

Daha sonra dövlət başçısı müəssisənin kollektivi ilə görüşdü.

Görüşdə çıxış edən **Prezident İlham ƏLİYEV** dedi:

- Mən çox şadam ki, bu zavodda işləyənlərin mütləq əksəriyyəti gənclərdir. Mən sizi ürəkdən salamlayıram və zavodun açılışı münasibətilə ürəkdən təbrik edirəm. Bir neçə il bundan əvvəl bu zavodun təməli qoyuldu. O vaxt burada heç nə yox idi. Vaxtilə burada fəaliyyət göstərmiş müəssisələr sıradan çıxmışdı və yarıdağılmış vəziyyətdə idi. Dövlət tərəfindən bu ərazi nəzarətə götürüldü, böyük təmizlik işləri aparıldı. Ümumiyyətlə, Sumqayıt Kimya Sənaye Parkının ərazisi 500 hektardan çoxdur və bu ərazidə bütün kommunikasiyalar, infrastruktur layihələri icra edildi ki, burada müasir sənaye mərkəzi yaradılsın. Biz buna nail ola bilmişik. Bu gün Sumqayıt Kimya Sənaye Parkında bir çox müəssisələr fəaliyyət göstərir və onların arasında "SOCAR Polymer"in, əlbəttə ki, xüsusi yeri vardır.

Keçən il polipropilen zavodunun açılışı rəsmi qaydada qeyd olundu. Bu gün isə biz yüksəksıxlıqlı polietilen zavodunun açılışını qeyd edirik. Beləliklə, "SOCAR Polymer" tam gücü ilə işə başlayır. Bu, çox əlamətdar hadisədir. Bu, ölkəmizin inkişafını göstərir. Bu, ölkəmizə xarici maliyyə qurumları tərəfindən inamın təzahürüdür. Çünki bildiyiniz kimi, bu zavodun tikintisində xarici banklar fəal iştirak ediblər. Bu, bütövlükdə ölkəmizdə gedən sənayeləşmə siyasətinin gözəl nəticəsidir.

Siz - burada çalışan gənclər yaxşı bilirsiniz ki, zavodun istehsal gücü 300 min ton olacaqdır. Bu, bizim qeyri-neft ixracımızın 15 faiz artımı deməkdir. Bizim əsas məqsədimiz qeyri-neft ixracını artırmaq, ölkə iqtisadiyyatını şaxələndirmək, yeni iş yerləri açmaq və Azərbaycanda müasir texnologiyalı müəssisələrin yaradılmasına nail olmaqdır. Bununla paralel olaraq, belə böyük, texnoloji cəhətdən müasir zavodların fəaliyyəti gənclərin hazırlanmasına da xidmət göstərir. Siz gənclər təlim keçmisiniz, orta əməkhaqqı çox yüksəkdir. Siz buna layiqsiniz. Siz müasir sənaye müəssisəsində çalışacaqsınız və bu müəssisənin fəaliyyəti ölkəmizi gücləndirəcək.

Yeni iş yerlərinin yaradılması prosesi burada təmin olunur, təxminən 500-dən çox yeni iş yeri açılır. Bu yaxınlarda karbamid zavodunun açılışında iştirak edərkən məlumat verildi ki, orada da 500-dən çox iş yeri yaradılır. Yəni, bu iki mühüm müəssisənin əhəmiyyəti çox böyükdür. İlk növbədə, bu iki müəssisəyə 1,6 milyard dollar sərmayə qoyulub. Çox böyük rəqəmdir. Özü də nəzərə alsaq ki, bu sərmayə qeyri-neft sektoruna qoyulur. Digər tərəfdən, burada istehsal olunan məhsullar ixracyönümlüdür və ölkəmizə valyuta gələcək. Biz təkcə neftdən, qazdan yox, eyni zamanda, hazır məhsuldan valyuta qazanacağıq. Burada müasir texnologiyalar tətbiq olunur və Azərbaycanın texnoloji inkişafına bunun müsbət təsiri var. Mindən çox iş yeri, gənclər üçün gözəl imkanlar yaradılır. Yəni, bir sözlə, belə böyük layihələrin icrasının çox böyük mənası, çoxşaxəli təsiri var və bir daha onu göstərir ki, Azərbaycan düzgün yoldadır. Biz bu layihələrə start verəndə, əlbəttə, təxmin edirdik ki, bu, çox gözəl nəticələrə gətirib çıxaracaq. Bu gün biz bunun əyani şahidiyik. Bundan sonra da Azərbaycanın sənaye potensialı inkişaf edəcək. Sənayeləşmə öz gözəl nəticələrini verir. Keçən il qeyri-neft sektorunda sənaye istehsalı 9 faizdən çox artmışdır, bu ilin birinci ayında isə 14 faizə yaxın artmışdır, o cümlədən bu zavodların fəaliyyətə başlaması nəticəsində. Əlbəttə ki, bundan sonra da qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın şaxələndirilməsi, müasir zavodların, fabriklərin yaradılması prioritet olaraq qalacaqdır. Əminəm ki, belə müəssisələr gələcəkdə bizim sənaye imkanımızı böyük dərəcədə artıracaqdır və ölkəmiz davamlı olaraq inkişaf yolu ilə gedəcəkdir.



Bu zavodun fəaliyyətə başlaması Sumqayıt şəhərinin ümumi inkişafına da böyük töhfədir. Sumqayıt bu gün nəinki Azərbaycanın, Cənubi Qafqazın ikinci böyük sənaye şəhəridir. Son illərdə Sumqayıtda bir çox müasir müəssisələr yaradılıb. Bu il Sumqayıt Kimya Sənaye Parkında bir neçə müəssisənin açılışı nəzərdə tutulur. Sumqayıtın həm sənaye, həm iqtisadi, sosial inkişafı daim diqqət mərkəzindədir. Sumqayıt bu gün yüksək ekoloji standartlara uyğun şəhərlərdən biridir. Biz bu sahəyə də çox böyük önəm verirdik. Çünki bilirsiniz ki, sovet vaxtında Sumqayıtda ekoloji vəziyyət o qədər də ürəkaçan deyildi. Sovet məkanında Sumqayıt bu baxımdan geridə qalmış şəhərlərdən biri idi. Bu da təbii idi, çünki o vaxt müasir təmizləyici qurğular mövcud deyildi və burada böyük kimya mərkəzi yaradılmışdı. Bu gün isə Sumqayıtın gözəl havası, ictimai yerləri var, istirahət üçün parklar yaradılıb, vaxtilə salınmış parklar abadlaşdırılıb, Sumqayıt bulvarı yaradılıb, özü də qısa müddət ərzində. Bu da çox gözəl hadisədir. Yəni, şəhərin ümumi inkişafı ilə bağlı çox böyük tədbirlər görülür, infrastruktur layihələri icra edilir. Bu yaxınlarda 2 saylı şəhər xəstəxanasının təmiri ilə bağlı müvafiq sərəncam verilmişdir. Bu xəstəxanada təxminən 200-ə yaxın çarpayı var. Ondan əvvəl biz 1 saylı xəstəxananın təmirini təmin etdik. Qazlaşdırmanın səviyyəsi təxminən 100 faizdir. Yəni, bir sözlə, belə zavodların fəaliyyətə başlaması şəhərin inkişafına da təkan verir.

Bu gün nəinki Sumqayıtın tarixində, ölkəmizin tarixində çox əlamətdar bir gündür. Çünki hər bir ölkə belə gözəl müəssisələrlə fəxr edə bilər. Xüsusilə nəzərə alsaq ki, bu müəssisələrdə işləyənlərin mütləq əksəriyyəti gənclərdir. Yəni, Azərbaycanın gənc nəsli müasir Azərbaycana xidmət edir. Sizi bu gözəl hadisə münasibətilə təbrik edirəm. Sizə uğurlar arzulayıram. Sağ olun.

❖ ❖ ❖

Məlumat verildi ki, "SOCAR Polymer" zavodlarının inşaat işlərinin pik həddində burada 3500-ə yaxın işçi çalışıb. Personalın bilik və bacarıq səviyyəsini artırmaq məqsədilə ölkə daxilində və xaricdə təlim-hazırlıq kursları təşkil olunub. Bütün bunlar göstərir ki, sənayeləşmə və qeyri-neft sənayesinin inkişafı Prezident İlham Əliyevin iqtisadiyyatın şaxələndirilməsi siyasətinin başlıca istiqamətlərindəndir. Bu baxımdan innovativ və yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənayenin tərəqqisinə təkan vermək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq məqsədilə sənaye parklarının və məhəllələrinin qurulması xüsusi əhəmiyyət kəsb edir. Artıq böyük infrastruktur işlərinin həyata keçirildiyi, 18 sahibkarlıq subyektinə rezident statusunun verildiyi Sumqayıt Kimya Sənaye Parkına 2,7 milyard dollardan artıq investisiya yatırılıb və bu istiqamətdə mühüm tədbirlər davam etdirilir.

❖ ❖ ❖

Sonda xatirə şəkli çəkdirildi.

# Xalq - PREZİDENT vəhdətinin təntənəsi növbəti dəfə Sumqayıtda yaşandı









*Əvvəli 1-ci səh.*

Mən həmişə demişəm ki, Sumqayıt inkişaf baxımından paytaxt şəhərinə yaxın olmalıdır və bu gün biz bunu görürük. Düzdür, Bakı son illər çox gözəlləşib, abadlaşıb, ancaq Sumqayıt kimi gözəl şəhərdə insanların istirahəti üçün mütləq bulvar olmalı idi və biz bir il, hətta bir ildən tez bir vaxtda 4 kilometr uzunluğunda bulvar yaratdıq. İndi bura Sumqayıtın əsas istirahət zonasıdır, görün, nə qədər gözəlləşib. Siz burada dəfələrlə olmusunuz, mən də dəfələrlə olmuşam. Əvvəlki mənzərə əlbəttə ki, çox acınacaqlı idi. Amma bu gün yeni yollar salınır, yeni binalar tikilir, ictimai yerlər yaradılır. Yəni, Sumqayıtın kompleks inkişafı daim diqqət mərkəzindədir. Bir tərəfdən sənaye müəssisələrinin yaradılması, - Sumqayıt bu gün Cənubi Qafqazda Bakıdan sonra ikinci böyük sənaye şəhəridir, - digər tərəfdən, bu gün Sumqayıtın ekoloji vəziyyəti görün nə qədər yaxşılaşıb. Sumqayıtın havası elə bil ki, kurort havasıdır. Əvvəlki illərdə olan toz-dumana, havanı çirkləndirən bəzi müəssisələrin fəaliyyətinə son qoyuldu. Bütün yeni müəssisələr ən yüksək ekoloji standartlara cavab verir. Buna görə indi burada ekoloji durum çox yaxşıdır. Minə yaxın evin dam örtüyü təzələnib və bu iş davam edir. Liftlər, həyətlər, yollar təmir olunub. Bu yaxınlarda 2 saylı xəstəxananın əsaslı təmiri haqqında sərəncam imzalandı. Bundan əvvəl 1 saylı xəstəxana əsaslı təmir edildi. Baxacaqlar, əgər 2 saylı xəstəxananın təmiri mümkündürsə, təmir olunacaq, mümkün deyilsə, sökülüb yenidən tikiləcək.

Qazlaşdırma - burada qazla problem olmamalıdır, həll edilib. İçməli su, elektrik enerjisi ilə bağlı məsələlər həll olunub. Biz burada böyük bir elektrik stansiyası tikmişik ki, bu, Sumqayıtı tam təmin edir. Əlbəttə ki, iş yerlərinin yaradılması diqqət mərkəzindədir. Baxın, bu tikintilərdə gör nə qədər adam işləyir, yeni müəssisələrdə nə qədər adam işləyəcək. Bütün bu işləri biz ona görə görürük ki, vətəndaşlar daha da yaxşı yaşasınlar. İndi minimum əməkhaqqının, minimum pensiyanın, şəhid ailələrinin müavinətlərinin, təqaüdlərin qaldırılması - bütün bunlar nəyə görə mümkün olub? Ona görə ki, çox ciddi islahatlar aparılıb və bizə əlavə gəlir gəlir. Bu gəliri biz, ilk növbədə, hara yönəltməli idik, məhz sosial məsələlərin həllinə. Ona görə bu siyasət davam etdiriləcək və əməkhaqlarının, pensiyaların qaldırılması bundan sonra da nəzərdə tutulacaq ki, vətəndaşlar daha da yaxşı yaşasınlar, uşaqlar daha da yaxşı böyüsünlər, Vətənimizin layiqli övladları olsunlar, ölkəmiz daim qabağa getsin, inkişaf etsin, güclənsin.

**Sakin:** Cənab Prezident, əsas sərəncam Sumqayıt şəhərinin 70 illiyinin keçirilməsi ilə bağlı idi.

**Prezident İlham Əliyev:** Bəli, onu da bu yaxınlarda imzalamışam.

**Sakin:** İnşallah, onu Sizin iştirakınızla yüksək səviyyədə keçirərik.

**Prezident İlham Əliyev:** Əlbəttə, böyük tədbir, böyük bayram olacaq. O sərəncamın imzalanması da Sumqayıta göstərilən növbəti diqqətin əlamətidir.

**Sakin:** Siz 23-cü dəfədir ki, Sumqayıta gəlirsiniz.

**Prezident İlham Əliyev:** İyirmi dəfədən çoxdur.

**Sakin:** Özü də hər gəlişiniz Sumqayıtın həyatında və sumqayıtlıların qəlbində silinməz iz qoyur, bizi ruhlandırır, sevindirir, bizə qanad verir. Biz ona görə Sizə minnətdarıq ki, Sumqayıt Sizin qayğınız və diqqətiniz nəticəsində belə inkişaf edir, çox sağ olun, var olun. Allah-Təaladan bir arzumuz var ki, yüz yaşayasınız, sağlam olasınız. Sizə ailə səadəti arzulayırıq. Bir də onu demək istəyirəm ki, bu bulvarın tarixçəsi var. Sumqayıtın 25 illik yubileyində ulu öndər bizim indiki Dram Teatrında keçirilən təntənəli yığıncaqda gözəl bir çıxış etdi, sumqayıtlılara və Sumqayıta yüksək qiymət verdi. Dedi ki, arzu edirəm, dəniz qırağında, ləpədöyəndə, yəni, sahildə yaxşı bir bulvar salınsın ki, sumqayıtlıların istirahəti üçün yaxşı yerləri olsun. Siz gəldiniz, ulu öndərin bu arzularını yerinə yetirdiniz. Sağ olun, var olun, Allah ölkəmizə sabitlik, əmin-amanlıq, bolluq versin. Allah Sizi qorusun!

**Prezident İlham Əliyev:** Sağ olun.

**Sakin:** Cənab Prezident, biz Sizi həmişə dəstəkləmişik və dəstəkləyəcəyik. Allah Sizə cansağlığı versin, işinizi avand etsin. Hər sübh namazında Sizə dua edirəm. Siz bizə lazımsınız. Allah Sizi Azərbaycan xalqının başı üzərindən əskik etməsin.

**Prezident İlham Əliyev:** Çox sağ olun.

# Azərbaycan ilə Böyük Britaniya arasında dostluq və tərəfdaşlıq əlaqələrin inkişafına mühüm töhfələr verir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 18-də Böyük Britaniyanın Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Böyük Britaniyaya səfərini və Baş nazir xanım Tereza Meylə görüşünü məmnunluqla xatırladı. Prezident İlham Əliyev Baronessa Emma Nikolsonun Azərbaycan ilə Böyük Britaniya arasında dostluq və tərəfdaşlıq əlaqələrinin inkişafındakı rolunu və verdiyi töhfələri yüksək qiymətləndirdi.

Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Meyin salamlarını dövlətimizin başçısına çatdırdı.



Görüşdə Cənub Qaz Dəhlizi Məşvərət Şurasının növbəti iclasının Bakıda keçirilməsinin önəmi vurğulandı, Azərbaycan ilə Böyük Britaniya arasında enerji sahəsində əməkdaşlığın uğurla inkişaf etdiyi qeyd olundu.

Söhbət zamanı ölkələrimiz arasında səhiyyə, turizm, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı, əlaqələrimizin inkişafında yüksəksəviyyəli qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulandı.

Dövlətimizin başçısı Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Meyin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Böyük Britaniyanın Baş nazirinə çatdırmağı xahiş etdi.

# Azərbaycan və Almaniya arasında əməkdaşlığın gündəliyi müzakirə olunub

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun Münxendə daha bir görüşü Almaniya Federal Kanslerinin xarici və təhlükəsizlik siyasəti üzrə məsləhətçisi Yan Heker ilə olub.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə tərəflər Azərbaycan və Almaniya arasında mövcud olan əməkdaşlıq münasibətlərinin gündəliyi üzrə fikir mübadiləsi aparıb və ikitərəfli əlaqələrin cari vəziyyətindən məmnunluq ifadə ediblər.

Nazir Elmar Məmmədyarov qarşı tərəfə bölgədə sülh və təhlükəsizliyə ən böyük maneə olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə aparılan danışıqların hazırkı vəziyyəti barədə məlumat verib.

Tərəflər regional və beynəlxalq məsələləri də müzakirə ediblər.

# Azərbaycan-Türkiyə dostluğu sarsılmazdır

Fevralın 18-də Milli Məclisin Sədri Oqtay Əsədov Türkiyə Böyük Millət Məclisinin (TBMM) Azərbaycanla dostluq qrupunun üzvlərindən ibarət nümayəndə heyəti ilə görüşüb.

Spiker qrupun rəhbəri Şamil Ayrımın bu vəzifədə ölkəmizə ilk rəsmi səfərini yüksək dəyərləndirib. Bildirilib ki, qardaş ölkə olaraq dövlət başçılarımız arasında görüşlərin mütəmadi xarakter alması münasibətlərimizi dünya miqyasında tayı-bərabəri olmayan səviyyəyə qaldırıb. Hər iki ölkə rəsmilərinin ilk səfərlərini qardaş ölkəyə etmələri artıq ənənəvi xarakter alıb.

Sədr bir neçə gün əvvəl İstanbulda yaşayış binasının çökməsi ilə mülki şəxslərin həyatını itirməsindən və helikopter qəzasında hərbçilərin şəhid olmasından kədərləndiyini deyib, onların yaxınlarına Milli Məclisin üzvləri adından başsağlığı verib.

Görüşdə bildirilib ki, siyasi dialoqun yüksək səviyyədə olması iqtisadi münasibətlərimizə də müsbət təsirini göstərməkdədir. TANAP, TAP, Bakı-Tbilisi-Qars dəmir yolu xətti kimi qlobal əhəmiyyətli layihələrin həyata keçirilməsi əməkdaşlığımızı daha da dərinləşdirir. Əgər 2017-ci ildə ticarət dövriyyəmiz 2,6 milyard ABŞ dolları təşkil etmişdisə, ötən il bu rəqəm 3,4 milyardı keçib. Ölkələrimiz arasında bugünə kimi 230-a qədər sənəd imzalanıb, daha 30-dək sənəd üzərində iş aparılır. Biz gələcəkdə iqtisadi sahədə qarşılıqlı yatırımların həcmini artırmaq niyyətindəyik. Azərbaycan Türkiyənin uğurlarına sevinir, qardaş ölkənin nailiyyətləri ilə qürur duyur.



TBMM-in Azərbaycanla dostluq qrupunun rəhbəri Şamil Ayrım Azərbaycanda olmaqdan və burada keçirdiyi görüşlərdən məmnun qaldığını söyləyib. Bildirib ki, Türkiyə-Azərbaycan münasibətləri bu gün çox yüksək səviyyədədir. Dövlət başçıları arasındakı səmimi münasibət həyatın digər sahələrinə də öz təsirini göstərməkdədir.

Azərbaycan ilə dostluq qrupu TBMM-də ən böyük qruplardan biridir. Bu qrupa üzv olmaq üçün Türkiyə millət vəkillərindən 360 müraciət daxil olub. Türkiyəli deputatlar Cənubi Qafqazın bu bölgəsində baş verən prosesləri diqqətlə izləyir, Azərbaycanın uğurlarını öz uğurları, problemlərini öz problemləri kimi qəbul edirlər. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi hər bir azərbaycanlı kimi, Türkiyə vətəndaşlarını da narahat edir. Qarşıdan Xocalı soyqırımının növbəti ildönümü gəlir. Bununla əlaqədar Türkiyədə bir sıra tədbirlərin keçirilməsi planlaşdırılıb. Biz Dağlıq Qarabağ probleminin tezliklə ədalətli həllinin tərəfdarıyıq. Bu məsələdə qeyd-şərtsiz Azərbaycanın haqlı mövqeyini dəstəkləyirik.

Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyevin, Türkiyə ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun başçısı Əhliman Əmiraslanovun və digər rəsmi şəxslərin iştirak etdikləri görüşdə tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***AZƏRTAC***
***Foto Fərman BAĞIROVUNDUR***

# Müxalifətçilik missiyası və Azərbaycanın milli maraqları

## Əli Kərimli Azərbaycana Suriyanın "inqilab təcrübə"sini idxal etmək istəyir, Azərbaycan hakimiyyəti isə dünyaya "ASAN xidmət" inqilabının təcrübəsini yayır

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, professor Əli Həsənov "Facebook" səhifəsində "Müxalifətçilik missiyası və Azərbaycanın milli maraqları" sərlövhəli məqaləsini yerləşdirib. AZƏRTAC mövzuya ictimai marağı nəzərə alaraq məqaləni təqdim edir.



1988-ci ildən bəri Azərbaycanın aktiv siyasi həyatındayam. 1993-cü ildən isə Prezident komandasında vətəndaş cəmiyyəti təsisatları - QHT-lər, KİV və siyasi partiyalarla əlaqələrlə birbaşa məşğul oluram. Məsuliyyətlə söyləyə bilərəm ki, bütün fəaliyyətim dövründə həm dövlətimizin qurucusu ümummilli lider Heydər Əliyev, həm də onun siyasi varisi Prezident İlham Əliyev siyasi plüralizmi və çoxpartiyalı sistemi Azərbaycanın demokratik inkişafının təməl prinsipi kimi görüblər, ölkədə vətəndaş cəmiyyətinin mühüm seqmenti olaraq həm ictimai, həm də siyasi opponentlik mexanizmlərinin işlək və çevik olmasına çalışıblar, çoxrəngli ideoloji-siyasi palitranın mövcudluğunu arzu ediblər. Çünki cəmiyyətdəki fərqli kəsimlərin, o cümlədən müxalifətin də cari proseslərə, gələcəyə hesablanmış konsepsiyalara baxış və rəylərini bilmək, alternativ ideyaları dəyərləndirmək və yeri gələndə, ən azı ehtiyat variant olaraq nəzərdə saxlamaq təkcə rasional idarəçilik baxımından deyil, həmçinin hakimiyyətdə olan komandanın istənilən siyasi rəqabətə daim hazırlıq formasında qalması üçün vacib şərtdir.

Hakim komandanın məsul üzvlərindən biri olaraq məhz bu yanaşmanı əsas götürməklə ötən illər ərzində ölkənin siyasi səhnəsində yer alan, yer almaq istəyən, siyasi proseslərə istər açıq, istərsə də dolayı şəkildə təsir göstərməyə cəhd edən çeşidli qrupların, ayrı-ayrı şəxslərin fəaliyyətini müşahidə və təhlil etmək imkanım olub. Qənaətlərimi qısa və ən ümumi şəkildə belə ifadə edə bilərəm: əks düşərgənin ümumi tablosunda konstruktiv qüvvələr də yer alıb, destruktiv qüvvələr də; bir zamanlar özlərini "milli demokrat" adlandıran, amma sonradan Avropa Liberal Demokrat İttifaqına qatılmaq naminə dəyərlərini dəyişən sağçılar da var, özlərinə gah Şimalda, gah da Cənubda himayədar axtaran solçular da; dünyəvi konstitusion quruluşu əsl dövlətçilik istehkamı olaraq qorumağa hazır olan sekulyarlar da məlumdur, bu quruluşu istiqlalımız qarışıq öpdükləri əlin fitvasına təslim etməyə hazır olan klerikallar da. Sosial bazasını, ictimai dəstəyini Azərbaycan xalqı arasında axtaran və siyasi perspektivini milli iradəyə bağlayan qüvvələrin də şahidi olmuşuq, bütün iddialarını xarici paytaxtlardakı qaranlıq kulislərdə qəbul ediləcək hansısa qərarların öhdəsinə buraxanları da. Lakin Azərbaycanın müstəqil bir dövlət kimi öz əzələlərini möhkəmləndirməsi, ehtiyac yarananda, müstəqilliyimizi istəməyən qüvvələrə nümayiş etdirməsi, regional gücə, beynəlxalq arenada söz sahibinə çevrilməsi baxımından yetərincə təlatümlü keçən ötən illərdən hasil etdiyim bir qənaət də budur ki, milli mənafelərə, ümumi və strateji maraqlara çox asanlıqla arxa çevirərək dövlətə və dövlətçiliyə qarşı opponentlik edən əsas siyasi qruplardan biri Əli Kərimli və onun çevrəsindəki şəxslərdir.

Bu maddi maraq qrupu ta komsomolçu keçmişlərindən üzü bəri daim "maliyyəni verən musiqini də sifariş edər" devizi ilə hərəkət edərək, əvvəlcə mənsub olduqları siyasi partiyanın param-parça vəziyyətə düşməsi üçün heç nədən, hətta liderlərinə xəyanət etməkdən də çəkinməyiblər, sonra isə qazandıqları "təcrübəni" Azərbaycan dövlətinə, xalqına, milli maraqlarımıza qarşı istifadə etməyə başlayıblar. Hazırda bu qrup milli dəyər, məfkurə və müqəddəratımıza zidd olan ritorikaları ilə Azərbaycanda böyük vüsətlə gerçəkləşən və son zamanlar daha da intensivləşən islahatlara hər addımbaşı kölgə salmaq yolunu tutublar.

Sirr deyil ki, Prezident İlham Əliyev həyata keçirdiyi bir çox islahatların nəticəsi kimi son aylarda büdcəmizin artan imkanlarını sosial problemlərin həllinə yönəltdikdən, iqtisadi liberallaşmanı sürətləndirdikdən, siyasi plüralizmin genişlənməsi və bütövlükdə ölkəmizdə insan kapitalının sürətli inkişafına xidmət edən çoxsaylı qərarlar qəbul etdikdən sonra məlum xarici antiazərbaycan qüvvələr daha da fəallaşıblar. Bu qüvvələr xaricdəki antiazərbaycan şəbəkəsi və ölkəmizin daxilindəki "beşinci kolonu", bir çox digər uzantılarını, o cümlədən Əli Kərimlini və onun qrupunu fəallaşdıraraq işə qoşublar.

Əli Kərimlinin xaricdə mənzil tapan internet resurslarından birinə müsahibə verərkən Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan hakimiyyətinin həyata keçirdiyi effektli siyasəti öz merkantil maraqları çərçivəsində şərh etməyə çalışması da həmin şəbəkənin fəaliyyətinin bir təzahürüdür. Bəri başdan qeyd edim ki, Əli Kərimlinin müsahibədə səsləndirdiyi fikirlərin hamısı əsassız, reallıqdan uzaq, onun daxili aləminin inikası olmaqla, dövlətə və xalqa son dərəcə yad münasibətinin, ikrahla yanaşmasının ifadəsidir. İrəli sürdüyü və heç bir arqumentə tab gətirməyəcək iddialarının əsasında dayanan motiv də aydındır. O, hər vəchlə hakimiyyət və onun həyata keçirdiyi siyasət barədə cəmiyyətdə formalaşmış müsbət rəyi qaralamağa çalışır.

Görünən reallıq odur ki, istər daxili siyasətdə, istərsə də diplomatik müstəvidə İlham Əliyev hakimiyyətinin qazandığı hər bir uğur Əli Kərimli və bu tipli insanların siyasi iflasını dərinləşdirir, onları cəmiyyətin dinamikasından geridə qoyur, ictimaiyyətin diqqət mərkəzindən uzaqlaşdırır. Belə olan halda isə onlar özlərini nəinki hakimiyyət uğrunda mübarizənin real subyekti kimi təqdim edə bilmirlər, hətta əbədi müxalifət titulunu da itirmək təhlükəsi ilə üzləşərək xaricdən ötürülən maliyyələrdən məhrum olacaqlarını real təhlükə kimi gözlərinin qarşısına alırlar. Odur ki, sağlam müxalifətçilik zehniyyəti ilə yürüdülən siyasəti təhlil etmək, əgər varsa, onun nöqsanlarını göstərmək, mümkün çətinliklərə diqqət çəkmək, bu yolla müəyyən düzəlişlərə nail olmaq deyil, həmin siyasətin gerçəkləşməsi üçün zəruri olan resurs və alətləri sıradan çıxarmağa, müsbət indikatorları zərbə altına salmağa çalışırlar. Qara niyyətlərinə ağ yalanlarla heç cür bəraət qazandıra bilmədikləri hallarda isə iddia etməyə başlayırlar ki, guya, Azərbaycan hakimiyyətinin son qərarları və addımları yanvarın 19-da müxalifətin keçirdiyi etiraz aksiyasının nəticəsidir. Axı, ölçüsü, tutumu hər kəsə bəlli olan bir meydanda üç-beş min adamın iştirak etdiyi mitinq tribunasından hansı dəyərli və təzə fikir səsləndi, yeni proqram açıqlandı, hansı fərqli yol xəritəsi elan edildi ki, Azərbaycan hakimiyyəti onlara xüsusi diqqət yetirməli oldu? Doğrudanmı, bu adamlar sadə riyazi hesablamalar apara, bütün güclərini ortaya qoyub "Məhsul" stadionuna yığdıqları bir neçə min adamın Azərbaycanda elektoratın son dərəcə cüzi, sıfıra yaxın bir hissəsini təşkil etdiyini, tərəfdarlarının, hətta ölkədə mövcud olan seçki məntəqələrinin sayından da az olduğunu görə bilmirlər? Onlar görməsə də, Azərbaycan cəmiyyəti hər şeyi yaxşı görür! Azərbaycan cəmiyyəti yaxşı görür ki, 25 ildən artıq bir müddətdə müxalifət düşərgəsində ərsəyə gətirilən "birlik formatları"nın hər biri mövsümi xarakter daşıyıb, fəslin başında "bu dəfə gəlirik" deyə bir-birinə ümid və təsəlli verənlər axırda yabalaşmaya çıxıblar.

Azərbaycan cəmiyyətinin və onun önəmli bir kəsimi olan gəncliyin nəzərindən yayınmır ki, əvvəllər müxalif düşərgədə yaranan birlik formatlarının avanqard qüvvəsini keçmiş hakimiyyətin "bəlkə də qaytardılar" ümidi ilə yaşayan nümayəndələri təşkil edir. İndi heç keçmiş hakimiyyət nümayəndələri də haçansa tutduqları postlara yenidən qovuşmaq üçün Əli Kərimlinin liderliyini qəbul etmir, onu öz revanş arzularının ifadəçisi kimi görmürlər. Belə olan təqdirdə yeni nəsil niyə öz karyera imkanlarını AXCP-nin sıralarında puç etməlidir?

Ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə gəlişinin ilk ilində orta məktəbin birinci sinfinə gedən şagirdlər hazırda yeni təhsil sistemi üzrə magistr dərəcəsi əldə ediblər. Onların bir qismi akademik elmi fəaliyyətlə məşğul olmaq üçün təhsilini davam etdirir, xeyli hissəsi isə dövlət qurumlarında, özəl müəssisə və şirkətlərdə çalışır. Onlar bilirlər ki, həm mövcud dövlət idarəçilik sistemi, həm də özəl sektor Azərbaycanda məhz ümummilli lider Heydər Əliyevin, onun siyasi kursunun davamçısı Prezident İlham Əliyevin hakimiyyəti sayəsində bərqərar olub. Azərbaycan gəncliyinin məhz bunun fərqində olmasının nəticəsidir ki, Əli Kərimlinin sədrlik etdiyi təşkilatda son bir neçə ildə ali məktəbdən məzun olmuş, dövlət qurumlarını heç demirəm, özəl sektorda uğur qazanmış, vətəndaş cəmiyyəti qurumlarında, mətbuatda öz intellekti və istedadı ilə önə çıxmış gənclər yox səviyyəsindədir. Belə bir ölü təşkilat və həmin təşkilatın sədri ictimai-siyasi proseslərə hansı müsbət dinamika gətirə bilər ki?

İndi ən ucqar kəndlərimizdə böyüyən gənclər dövlətin himayəsi sayəsində aparıcı xarici universitetlərdə təhsilin müxtəlif pillələri üzrə yaxşı perspektiv vəd edən, dünyanın gələcəyini müəyyən edəcək ixtisaslara yiyələnməkdədirlər. Əlbəttə, deyilə bilər ki, AXC hakimiyyəti illərində də xaricə təhsil almağa göndərilənlər olub. Amma o göndərişin coğrafiyası təkcə bir ölkə ilə yekunlaşırdı, tələbələr həmin ölkənin ümidinə buraxılırdı və gənclər zərurət duyulan peşə və ixtisaslara deyil, AXC hakimiyyətinin ideoloji beyinyuma, azərbaycanlıları "yenidən formatlama" siyasətinə uyğun olaraq əsasən filologiya, tarix, sosial elmlər kimi sahələrə yönləndirilmişdilər. AXC və YAP iqtidarlarının fərqi də bundadır: bizim partiya vətəndaşı dövlət və yaxud hansısa ideologiya üçün vasitə, xammal olaraq görmür. Ümummilli liderimizdən bizə miras qalan ən mühüm tövsiyə budur - dövlət vətəndaş üçündür. Biz gəncləri, cənab Prezidentin ifadə etdiyi kimi, Azərbaycanın gələcəyi olaraq görürük, onların öz milli dəyərlərimizi, milli ruhumuzu qoruyaraq ən çağdaş elmlərə, çağdaş ixtisas və peşələrə yiyələnməsinə çalışırıq... Bəli, İlham Əliyev dövlətin vəsaiti ilə hansısa şübhəli ideologiyalara xidmət edən, antimilli ruh daşıyıcısı olan yeni nəsil yetişdirməklə məşğul olmur, öz milli mənsubiyyəti və doğma Azərbaycanı ilə fəxr edən gəncliyin formalaşması üçün çalışır.

Bütün bunların nəticəsidir ki, Əli Kərimli xalqımızın xüsusi həssaslıq nümayiş etdirdiyi 20 Yanvar günündə Şəhidlər xiyabanına ziyarətə gələn, ümumiyyətlə, onun mövcudluğu ilə maraqlanmayan kütlənin qarşısına keçib, öz ətrafında izdiham görüntüsü yaratmağa çalışırdı. Lakin bu cür illüziyalar yaratmaq istəyi son nəticədə elə öz əleyhinə işlədi və cəmi bir neçə gün sonra Məmmədəmin Rəsulzadənin heykəlinin ziyarətinə on minlərin önündə gedəcəyini bəyan etdiyi halda, Novxanıya 120 nəfərlə daxil oldu. Bu isə onun "liderliyini" dırnaq arasına saldı, ciddiyyətdən nə qədər uzaq olduğunu hər kəsə agah etdi. Bu adamların siyasət anlayışı da qeyri-ciddidir, dedi-qodusu da öz səviyyələrindən o tərəfə getmir.

Əli Kərimli müsahibəsində sual edir ki, "hakimiyyətdə olduğu dövrdə İlham Əliyev Azərbaycan xalqı və dövləti üçün nə edib?" Bu suala mən cavab verəcəyəm və həm də Əli Kərimli və ətrafı kimi subyektiv mülahizələrlə ictimai rəyi manipulyasiya etmək üçün deyil, real faktlarla danışacağam.

Müasir dünyada zaman və şərtlər sürətlə dəyişir, Azərbaycan hakimiyyəti məhz dövrün çağırışları, müasirliyin parametrləri, tərəqqinin cazibəsi ilə hərəkət edir. Bugünkü Azərbaycan sosial-iqtisadi baxımdan tam yenilənib. Ötən 15 ildə Azərbaycanın həm paytaxtı, həm də bölgələrimiz müasirləşib, məmləkətimizin dörd bir yanında istehsal və xidmət obyektləri yaradılıb, milyonlarla insan işlə təmin edilib...

2005-ci ilin parlament seçkilərində teledebatlarda çıxış edən o vaxtkı müxalif namizədlərdən biri Azərbaycanın həqiqətən də kiçik olan dövlət büdcəsini Baltikyanı ölkələrdən birinin büdcəsi ilə müqayisə edib, hakimiyyətə gələcəyi təqdirdə, büdcəni 5 milyard manata qədər artıracağını vəd verirdi. İlham Əliyev, əlbəttə, belə bir vəd vermədi, amma növbəti seçkilərədək opponentlərinin xəyal etdiyi büdcə göstəricisindən bir neçə dəfə çox büdcə ortaya qoydu. Çünki o, populist vədlər siyasətçisi deyil, real əməl və amal sahibidir. Formalizm, populizm, qeyri-real vədlər, cari, situativ hədəflər naminə dövlətin enerjisinin sərf edilməsi, ancaq gündəlik siyasi tələblər haqqında düşünmək İlham Əliyev idarəçiliyinə yad bir xüsusiyyətdir. Prezidentin özünün də TASS informasiya agentliyinə verdiyi müsahibədə qeyd etdiyi kimi, o, həmişə populizmdən, populist ritorikadan uzaq olub. Azərbaycan iqtidarı çalışıb ki, özünü xüsusi olaraq nümayiş etdirmədən ölkənin uğurlu inkişafı üçün lazım olan addımları atsın.

Prezident İlham Əliyevin 2003-cü ildə qarşıya qoyduğu hədəflərdən biri regionların inkişafını təmin etmək, əyalətlə paytaxt arasında sosial-iqtisadi və mədəni fərqləri azaltmaq idi. Baxın, keçən 15 ildə Azərbaycan regionları, sözün əsl mənasında, inkişaf edib, bölgələrdə müasir infrastruktur yaradılıb. Şəhərlərimizdə müasir mədəniyyət və gənclər mərkəzləri, məktəblər, muzey və parklar, 45 olimpiya idman kompleksi, həm yerli, həm də xarici turistlərin axışdığı istirahət guşələri istifadəyə verilib. Bütün ölkə boyu daimi işıq, qaz, su problemi həll edilib, kommunal xidmət sahəsində narahatlıq doğuran bütün məsələlər əsasən aradan qaldırılıb.

Statistikaya nəzər yetirək: son 15 ildə Azərbaycan iqtisadiyyatı dünya miqyasında rekord templərlə inkişaf edib, ümumi daxili məhsul 3,3 dəfə, sənaye istehsalı 2,6 dəfə, ixracımız 4,7 dəfə artıb. Ölkənin valyuta ehtiyatları 24 dəfə çoxalıb və bu gün 45 milyard dollar təşkil edir. Azərbaycana təxminən 250 milyard dollar sərmayə qoyulub və onun yarısı xarici investisiyadır. Ölkədə 2 milyon yeni iş yeri yaradılıb, işsizlik və yoxsulluq həddi 50 faizdən 5 faizə düşüb, əhalinin sayı 1,6 milyon artıb. Bu dövr ərzində maaşlar 7, pensiyalar 9 dəfə yüksəlib. Biznes mühitinin yaxşılaşdırılması ilə bağlı məqsədyönlü siyasət həyata keçirilib, təkcə güzəştli şərtlərlə sahibkarlara verilən kreditlərin məbləği 2 milyard manatı ötüb.

Dərin sosial-iqtisadi islahatların həyata keçirilməsi, yolların ən müasir standartlara uyğun yenidən qurulması, 6 hava limanının tikintisi, Oğuzdan Bakıya içməli su çəkilişi və ölkə üzrə su probleminin sistemli şəkildə həlli, 31 yeni elektrik stansiyasının tikintisi və 2500 meqavatlıq yeni güc yaradılması, aqroparklar, meliorasiya tədbirləri, kənd təsərrüfatının canlanması və sürətli inkişafı, sənaye zonalarının işə başlaması, Azərbaycanın 3 peykinin orbitə çıxarılması və onun kosmik dövlətə çevrilməsi, transmilli enerji və nəqliyyat layihələrinin reallaşması - Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz layihələrinin işə düşməsi, 4 seqmentdən ibarət "Cənub qaz dəhlizi" layihəsinin faktiki reallaşması, Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizləri üzrə mühüm işlərin görülməsi, Azərbaycanın beynəlxalq nəqliyyat-tranzit habına çevrilməsi və bu çərçivədə Bakı-Tbilisi-Qars dəmir yolunun işə düşməsi... Bu siyahını kifayət qədər uzatmaq da olar. Əminəm ki, Əli Kərimli də bütün bu reallıqları görür, lakin İlham Əliyev hakimiyyətinin uğurlarını etiraf etmək üçün özündə cəsarət və güc tapa bilmir.

Əli Kərimlinin hakimiyyətdə olduğu illərdən fərqli olaraq, bu gün şagirdlər çantaları ilə yanaşı, özləri ilə məktəbə odun daşımırlar. Çünki son 15 ildə Azərbaycanda 3200 yeni məktəb tikilib və ya əsaslı şəkildə təmir olunub. Vətəndaşlarımız həmin illərdəki kimi soyuq, işıqsız, təchizatsız tibb müəssisələrindən evlərinə daha ağır xəstəliklər taparaq qayıtmırlar. Ona görə ki, 640 tibb müəssisəsi tikilib və ya yenidən qurulub, vətəndaşlarımız pulsuz müayinə imkanlarından bəhrələnirlər. Bu gün Əli Kərimli hansı bölgəyə üz tutsa, avtomobili hamar şoselərdə şütüyəcək, hakimiyyətdə olduğu zamanlarda elementar təmizliyə malik dövlət qonaq evi belə tapmırdısa, indi 4-5 ulduzlu hotellər arasında seçim etməli olacaq. Əgər həmin hotellərin hovuzundan başını çıxarmağa həvəsi olsa, görəcək ki, kəndlilərimiz tarla əkir, zəmi biçir, mal-qara saxlayır, toxum, yem, texnika problemi ilə üzləşəndə dövlətin dəstəyini alır, məhsuluna alıcı tapmaqda çətinlik çəkmir. Azərbaycan ailələrinin əksəriyyəti son 15 ildə iki açar sahibi olublar - şəxsi ev və avtomobil açarları. Əlbəttə, əhalinin sayı artdıqca, tələbatlar da çoxalır və Azərbaycan hakimiyyəti öz siyasəti ilə artan tələbatlar qarşısında əhalinin rifahının gücləndirilməsini özünün başlıca vəzifəsi hesab edir. Bunun üçün problemləri də öyrənir, çıxış yollarını müəyyənləşdirir, amma heç zaman və birmənalı olaraq xalqa populist vədlər vermir. Məsələn, Azərbaycan dövləti bilir ki, bu gün 12 mindən artıq şəhid ailəsinin hər birinə 11 min manat ödəniş vermək gücündədir və müvafiq addım atır. Amma Əli Kərimli əhalinin kredit borcları üzərində ucuz şou düzəldəndə heç hesablayıbmı ki, bəhs etdiyi 500 min insanın banklara ümumilikdə kredit borcu nə qədər edir və dövlət hazırda bu yükün altına girə bilərmi? Siyasətçi heç olmasa, bir az realist olmağı bacarmalıdır və şəxsi mənfəəti naminə cəmiyyəti populist bəyanatlarla aldatmamalıdır. Ümumən bu rəqəm özü də mübahisəlidir və mütəxəssislər daha kiçik saydan bəhs edirlər. Amma bəri başdan onu da bildirim ki, Azərbaycan dövləti Əli Kərimlisiz də bu problemi öyrənib təhlil edir və əgər qarşıdan gələn dövrdə dövlətin maliyyə durumu buna imkan verəcəksə, kreditlər məsələsi də nəzərdən keçiriləcək və müvafiq qərar qəbul olunacaq. Bir də ki, digər ölkələrin bu və ya digər addımlarından nümunə gətirənlər həmin addımların "seçki rüşvəti" sayıldığını niyə unudurlar? Axı, biz, deyəsən, demokratiyadan danışırıq.

Bax, bütün bunlara görədir ki, Azərbaycan xalqı 1990-cı ilin əvvəllərində ölkə ərazisini "qızılla örtməyi" vəd edərək onu aldadanları da yaxşı xatırlayır, verdiyi hər vədi bircə-bircə yerinə yetirərək Azərbaycan tarixinə qızıl hərflərlə yazılacaq möhtəşəm islahatları inamla davam etdirən lideri - İlham Əliyevi də görür və dəstəkləyir.

Görünür, elə gənci, kəndlini, ziyalını, fəhləni, şəhər sakinini, ümumilikdə, cəmiyyətimizi məmnun edən, həmin yeniləşən və inkişaf edən Azərbaycandır ki, Əli Kərimlini narahat edir. İlham Əliyevin hər bir uğuru, onun rəhbərliyi altında Azərbaycanın gündən-günə güclənməsi, çiçəklənməsidir ki, Əli Kərimlini stress vəziyyətinə salır, onun isterik bəyanatlarına, açıqlamalarına səbəb olur. Çünki bütün bunlar nəinki onun çox arzuladığı və gecə yuxuda gördüyü hakimiyyət kürsüsünə yolunu bağlayır, ümumiyyətlə, bir siyasətçi kimi mövcudluğunu sual altına qoyur.

Çox maraqlı situasiyadır: dövlət başçısı şəhid ailələrinə kompensasiya ödənilməsi ilə bağlı sərəncam imzalayır, minimum əməkhaqlarını 40 faiz artırır, tələbələrin təqaüdlərini yüksəldir, qaçqınlara müasir evlər verir, yeni iş yerləri yaradır, regionları yenidən qurur və abadlaşdırır, sahibkarlara kredit verilir, əhalinin aztəminatlı hissəsinin sosial müdafiəsi üçün ardıcıl təşəbbüslər göstərir, bir sözlə, sosial müdafiəni dövlət siyasətinin ən ümdə prioriteti elan edir və əməldə də bunun belə olduğunu sübut edir, amma nədənsə, Əli Kərimli yenə narazıdır.

Azərbaycan xalqı yaxşı başa düşür ki, müxalifətin bütün kadr potensialı "ASAN xidmət"in bircə filialını idarə etməyə qadir deyil. Onu da qeyd edim ki, bəli, "ASAN xidmət" ictimai xidmət sektorunda bir inqilabdır. Əli Kərimli Azərbaycana Suriyanın "inqilab təcrübə"sini idxal etmək istəyir, Azərbaycan hakimiyyəti isə dünyaya "ASAN xidmət" inqilabının təcrübəsini yayır. Hakimiyyəti rüşvət və korrupsiyada ittiham etməyə aludə olan müxalifətin ölkəmizdə nümunəvi bir təsisatın yaranmasına qısqanc münasibəti başa düşüləndir. Axı, cəmiyyət bu günə kimi Əli Kərimlinin təmsil olunduğu hakimiyyətin dövründə hökm sürən dərəbəylik, dövləti talanetmə, total korrupsiya və rüşvət faktlarını unutmayıb. Ən azından Əli Kərimli vaxtilə öz hakimiyyətləri dövründə baş verənlər barədəki məlum çıxışını xatırlasın, xatırlamırsa, çıxışının stenoqramını bir daha oxusun. Buna görədir ki, Prezident İlham Əliyevin cəmiyyətdə şəffaflığın təmin edilməsi, korrupsiya, rüşvətxorluq kimi neqativ hallara qarşı barışmaz mübarizə aparması Əli Kərimliyə və onun ətrafına sərf etmir. Onlar ittiham hədəflərini itirirlər, sözləri kəsərdən düşür və daha heç kimi aldada bilmirlər. Əlləri hər yerdən üzüləndə isə XXI əsrdə rasist təfəkkürünə pənah aparır, məsələn, iddia edirlər ki, ərəb turistlərinin Azərbaycana gəlişi xalqımızı alçaldır. Niyə? 2018-ci ildə Azərbaycana 3 milyona yaxın turistin gəlməsi, ümumilikdə, 2 milyard dollardan artıq vəsait xərcləməsinin nəyi pisdir? Bütün xidmət sektorunun hərəkətə gəlməsi, əhalinin əlavə gəlir imkanlarının artmasının nəyi pisdir? Əli Kərimli və çevrəsinin nə qədər xoşuna gəlməsə də, əlbəttə, bunda "Formula 1" yarışlarının, I Avropa Oyunlarının, İslam Həmrəylik Oyunlarının böyük rolu olub. Nədənsə, bütün bu beynəlxalq miqyaslı tədbirlər Əli Kərimlinin və çevrəsinin xoşuna gəlmir. Niyəsi də məlumdur, çünki onların işinə, istək və arzularına yaramır. Axı, bu feodal zehniyyətə Azərbaycana Avropa Oyunlarının deyil, "köhnə qitədən" bəlli çevrələrin inqilab ixracı, Suriyada, Liviyada və s. ölkələrdə olduğu kimi islam dünyasından silahlı radikal dini qrupların gəlişi, "Formula 1" avtomobilləri əvəzinə isə Bakının küçələrində tanklar və topların irəliləməsi daha uyğundur.

Hər kəsin yaxşı xatirindədir ki, cənab İlham Əliyev ilk dəfə Azərbaycan Prezidenti seçilməzdən əvvəl ölkədə bütün çadır şəhərciklərinin ləğv ediləcəyini, qaçqın və məcburi köçkünlərin fərdi mənzillərlə təmin olunacağını vəd etmişdi. O zaman Əli Kərimli və onun keçmiş hakimiyyətdəki "mehriban düşmənləri" bu vədlərin yerinə yetirilməsini mümkünsüz sayır, əleyhinə təbliğat aparır, məcburi köçkünlərə fərdi evlə təmin olunmalarını hətta xəyallarına belə gətirməməyi tövsiyə edirdilər. Heç 19 yanvar mitinqi də hələ olmamışdı.

Bu sahədə görülən işlərlə bağlı bəzi rəqəmləri xatırlatmaq istəyirəm. Prezident İlham Əliyevin verdiyi vədin müqabilində keçən müddətdə məcburi köçkünlər üçün bütün infrastrukturla təmin olunmuş 100-dən artıq müasir qəsəbə salınıb, 55 min ailə, 300 mindən artıq insan rahat mənzillə təmin olunub, başqa sözlə, hətta xəyallarında belə iki daşı bir-birinin üstünə qoymağı bacarmayan müxalifətçilərin deyingənliyinə rəğmən, İlham Əliyev xalqa xidmət amalının misilsiz bir nümunəsini ortaya qoyub. Bu cür nümunələr çoxdur, həddən artıq çoxdur, statistikalar uzanmasın deyə, yalnız bir neçəsini qeyd edirəm:

- 1997-2018-ci illər ərzində dövlət tərəfindən Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinə 6654 mənzil təqdim edilib. O cümlədən, 2018-ci ildə şəhid ailələrinə və müharibə əlillərinə 626 mənzil verilib. Bu il isə həmin kateqoriyaya daxil olan vətəndaşlara azı 800 mənzilin təqdim olunması nəzərdə tutulur;
- 1997-ci ildən etibarən müharibə əlillərinə avtomobillər bağışlanması ənənə halını alıb və bu günə kimi artıq onlara 6144 avtomobil verilib;
- həmçinin cənab İlham Əliyevin 2018-ci ildə Prezident seçildikdən sonra verdiyi ilk fərmanda şəhid ailələrinin hər birinə 11 min manat ödənilməsinin əks olunması (12.268 şəhidin vərəsələrini əhatə etməklə, ümumilikdə, 135 milyon manat vəsait ayrılması nəzərdə tutulur) faktdır.

Beləliklə, bu qəbildən olan faktları 19 yanvar mitinqinə bağlamaq üçün Əli Kərimlinin "zamana səyahət makinası" kəşf edərək aksiyasını özü ilə birgə keçmişə aparması da lazımdır. Ancaq heç bu da Əli Kərimliyə sərf etməz, ona görə ki, yaxın keçmişə qayıdanda da cənab İlham Əliyevi Prezident seçildiyi ilk gündən xalqın arasında görmüş olacaq. Bu gün dünyada elə ölkə rəhbərləri var ki, ancaq seçkidən-seçkiyə xalq arasına çıxır və ancaq iri şəhərlərdə, meqopolislərdə nitq söyləyirlər. Cənab İlham Əliyev isə cənubdan şimala, qərbdən şərqə bütün rayonlarımızda dəfələrlə səfərdə olub, insanların güzəranı ilə maraqlanıb, problemlərinin həlli ilə bağlı anında tapşırıqlar verib. Lənkəranda bina çökəndə, Aranda Kür daşanda, Zaqatalada, Şamaxıda zəlzələ olanda xalq öz Prezidentini onunla çiyin-çiyinə dayanmış görüb, əlini kürəyində hiss edib.

Əli Kərimli və onun kimilərinin isə ən məşəqqətli günlərində xalqı və dövləti düşmən qarşısında taleyin ümidinə buraxıb aradan çıxmaları, üzləşdikləri siyasi iflas qarşısında milləti aşağılamağa, onun mizan-tərəzisinə lağ etməyə, tarixi və ictimai şüur səviyyəsini ələ salmağa çalışmaları bir yana qalsın, ən sevincli günlərində belə, onunla eyni ovqatı, eyni emosiyanı paylaşa bilməyiblər. 2016-cı ilin Aprel döyüşlərində Azərbaycan əsgərinin şanlı zəfərini aşağılayanlar, bu qələbəyə kölgə salmaq üçün dəridən-qabıqdan çıxanlar yenə də Əli Kərimli, yenə də onun timsalında müqəddəs Azərbaycan davasından fərar edənlər idi. Fərari xislətinə malik olanlar, heç şübhəsiz, Azərbaycanın Ali Baş Komandanının Aprel döyüşləri səngiməmiş öz xanımı ilə birgə cəbhə bölgəsinə səfərini, əsgərlərimizlə bir səngərdə çiyin-çiyinə dayanmasını, ordunun şəxsi heyəti ilə bir süfrədə yemək yeməsini, bir ocaqdan çay içməsini Vətən yanğısı, işğal edilmiş torpaqlarımızın ən qısa zamanda mütləq azad ediləcəyi inamı ilə seyr edə bilməzlər. Azərbaycan hakimiyyətindən asılı olmayan səbəblər üzündən dünya bazarında neftin qiymətinin düşməsinə az qala dəf çalaraq sevinənlər, Silahlı Qüvvələrimizi iki mülki helikopterə möhtac vəziyyətdə deyil, beynəlxalq hərbi araşdırmalara görə, ən müasir cəbbəxanaya malik olmaqla, dünyanın 50 ən güclü hərbi birləşmələri sırasında görəndə, hətta zahirən də olsa, sevgi və sevinc libasına bürünə bilmirlər.

Azərbaycan hakimiyyəti yüzlərlə jurnalisti mənzillə təmin etdi, siyasi dünyagörüşünə fərq qoymadan yüzlərlə qələm sahibini kirayələrdən, yataqxanalardan ayırıb, Bakının ən prestijli ərazisində ev-eşik sahibinə çevirdi. Hətta vaxtilə öz nəzarətində olan qəzetlərdə çalışan mətbuat nümayəndələrinə də "Allah xeyir versin" deməyə mənəvi gücü çatmayan Əli Kərimli iddia edir ki, guya dövlət bu yolla medianı satın alır. Yaxşı olmazmı ki, AXCP sədri ev müqabilində hansısa şərt qoyulub-qoyulmamasını jurnalistlərin özündən soruşsun, dövlətdən hər cür qayğı görən mətbuatın səsini dinləsin?! Bəlkə, vaxtilə kirayə qaldıqları evlərin pulunu ödəyə bilmədikləri halda, qrant layihələrində adlarının qarşısına yüksək məbləğlər yazılan, ancaq həmin məbləğin heç yarısını da Əli Kərimlinin çevrəsindəki QHT-lərdən ala bilməyən jurnalistlərin gözünün içinə baxaraq desin bütün bunları? Avstriya, Danimarka, Fransa və müxalifət fəallarının qrant aldığı Avropa dövlətlərinin əksəriyyətində mediaya, qeyri-hökumət təşkilatlarına milyonlarla yardım verilir. Elə Əli Kərimlinin həvəslə istinad etdiyi beynəlxalq hüquq müdafiə təşkilatları da, əsasən ABŞ, Böyük Britaniya, Almaniya və digər Qərb dövlətlərinin büdcəsindən maliyyələşirlər. Onlardamı satın alınıb? Satın alınıblarsa, bu təşkilatlara niyə istinad olunur, niyə onların iddiaları tirajlanır və hakimiyyətə qarşı təbliğatda istifadə edilir?

Əlbəttə, Əli Kərimlinin müsahibəsində səsləndirdiyi iddiaları bir-bir təftiş edərək, onların hər birinə cavab vermək və Azərbaycan hakimiyyətinin həyata keçirdiyi siyasətin uğurlu nəticələrini sadalamaq olar. Ancaq sözümün sonunda bir məsələyə toxunmaq istəyirəm. Kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə tez-tez belə bir sual səslənir ki, Azərbaycan müxalifəti niyə belə zəif və perspektivsizdir? Əslində, bunun səbəbkarı nə Əli Kərimlidir, nə də düşərgənin digər nümayəndələri. Çünki onlar Prezident İlham Əliyevin düşünülmüş, prinsipial milli siyasəti, dövlət başçısının müasir və qüdrətli Azərbaycan naminə açdığı yeni üfüqlər, vətəndaş təşəbbüskarlığına yaratdığı imkanlar qarşısında aciz vəziyyətdə qalmağa məhkumdurlar. Müxalifət üçün nə qədər məyusedici olsa da, deməliyəm: bu pozitiv reallıq hələ uzun illər Azərbaycan xalqına və dövlətinə xidmət edəcək. Heç bir qüvvə Azərbaycan xalqının milli iradəsini sarsıda, bu iradənin ifadəçisi olan lideri yolundan döndərə bilməz.

# Ombudsman Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar bəyanat yayıb

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (Ombudsman) Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar bəyanat yayıb. Bu barədə AZƏRTAC-a Ombudsman Aparatından məlumat verilib.

Bəyanatda deyilir ki, Ermənistanın Azərbaycana qarşı uzun illər işğalçılıq və soyqırımı siyasətinin tərkib hissəsi olan, beynəlxalq hüququn norma və prinsiplərinin, insan hüquq və azadlıqlarının kütləvi şəkildə, kobudcasına pozulması ilə nəticələnən, bəşər tarixinə böyük qanlı facia kimi daxil olmuş Xocalı soyqırımından 27 il ötür. Bu faciə erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı davam edən etnik təmizləmə və soyqırımı siyasətinin daha bir dəhşətli nümunəsidir.

Belə ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycanın Xocalı şəhərində erməni silahlı birləşmələrinin keçmiş sovet ordusunun Xankəndidəki 366-cı motoatıcı alayı ilə birgə törətdiyi cinayət beynəlxalq hüquq baxımından məhz soyqırımı kimi qiymətləndirilməlidir. Bu alayın çoxsaylı ağır texnikası qəfildən şəhərə yeridilib, cinayətkarlar vahimə içərisində şəhəri tərk etmək məcburiyyətində qalan dinc əhalini amansızcasına qətlə yetirib, yaşayış evləri və sosial infrastruktur tamamilə dağıdılıb və yandırılıb.

27 il əvvəl törədilmiş Xocalı soyqırımı zamanı Ermənistan silahlı qüvvələrinin mühasirəsində qalıb, milli mənsubiyyətinə görə 613 nəfər soydaşımızın, o cümlədən 106 qadın, 63 uşaq, 70 qocanın həyatına son qoyulub, yüzlərlə dinc sakin ağır yaralanıb, 1275 nəfər girov götürülüb. Həmin kütləvi qırğın həyata keçirilərkən 8 ailə bütünlüklə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərinin birini itirib, eyni zamanda, çoxsaylı əsir və girov götürülənlərə amansız işgəncələr verilib. Bu zaman insanların əsas hüquqları, ən başlıcası, yaşamaq hüququ kütləvi şəkildə pozulub.

Bu faciə erməni terrorçularının və onların havadarlarının Azərbaycan xalqına qarşı illər boyu məqsədyönlü şəkildə davam etdirilən etnik təmizləmə və soyqırımı siyasətini bir daha təsdiq edib, məqsədi soydaşlarımızı kütləvi qırğına məruz qoymaqla, onları öz tarixi torpaqlarından didərgin salmaq və əzəli Azərbaycan ərazilərini də zəbt etməklə "böyük Ermənistan" dövləti yaratmaq olub.

Bildirilir ki, Xocalıda erməni qəsbkarları tərəfindən törədilən bu kütləvi insan qırğını genosid faktıdır və insanlığa qarşı ən ağır cinayətlərdəndir. Belə ki, BMT Baş Məclisinin 1946-cı il 11 dekabr tarixli 96 (I) saylı qətnaməsində göstərilir ki, genosid insan qruplarının yaşamaq hüququnu pozmaqla yanaşı, BMT-nin məqsəd və vəzifələrinə, ümumbəşəri dəyərlərə tamamilə ziddir və dünya birliyi tərəfindən pislənir.

Genosid cinayətinin əlamətləri BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul olunmuş "Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyada müəyyən edilib. Xocalı soyqırımı zamanı baş vermiş cinayət əməllərinin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların kütləvi şəkildə məhv edilməsi niyyəti ilə törədilməsi onun genosid aktı olduğunu sübut edir. Azərbaycana qarşı təcavüz zamanı bu Konvensiyada təsbit olunmuş genosid cinayətini təşkil edən bütün əməllər tətbiq olunub. Lakin təəssüf ki, tarix boyu azərbaycanlılara qarşı törədilən soyqırımı aktları, o cümlədən Xocalı soyqırımı beynəlxalq aləmdə hələ də öz hüquqi-siyasi qiymətini almayıb, bu beynəlxalq cinayəti təşkil edənlər və törədənlər məsuliyyətə cəlb edilməyib, onlara indiyədək layiq olduqları cəzalar verilməyib və bu məqsədlə hər hansı bir tədbir görülməyib.

Xocalı soyqırımını törətməklə hərbi təcavüzün miqyasını daha da genişləndirən və ölkəmizin ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağı və bu bölgənin hüdudlarından kənara çıxaraq ətraf Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı və Zəngilan rayonlarını işğal edən Ermənistanın apardığı etnik təmizləmə siyasəti nəticəsində torpaqlarımızın 20 faizi işğala məruz qalıb, 20 min soydaşımızın həyatına son qoyulub, bir milyondan çox insan qaçqın və məcburi köçkün vəziyyətinə düşüb, onların hüquqları kütləvi şəkildə kobudcasına pozulub. Bu işğal zamanı erməni millətçiləri və terrorçuları Xocalı şəhərindən başqa, Azərbaycanın Kərkicahan, Malıbəyli, Quşçular, Qaradağlı, Ağdaban kəndlərində və digər yaşayış məntəqələrində də kütləvi qırğınlar törədiblər.

Bəyanatda qeyd olunur ki, ümummilli lider Heydər Əliyevin 1994-cü ildə Xocalı soyqırımı ilə bağlı xüsusi müraciəti olub, həmin ilin fevralında Azərbaycan Respublikasının Milli Məclisi Xocalı soyqırımına hüquqi-siyasi qiymət verib.

İşğal edilmiş Dağlıq Qarabağ və yeddi ətraf rayonun Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olduğunu beynəlxalq hüquq, o cümlədən BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli məlum 822, 853, 874 və 884 saylı qətnamələri, BMT Baş Məclisinin "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı 2008-ci il 14 mart tarixli qətnaməsi, AŞ PA-nın 2005-ci il tarixli 1416 saylı qətnaməsi və 1690 saylı tövsiyəsi, Avropa Parlamentinin Dağlıq Qarabağla bağlı 2013-cü il 23 oktyabr tarixli qətnaməsi bir daha sübut edir.

Lakin erməni tərəfi hər zaman olduğu kimi, qeyri-konstruktiv mövqe nümayiş etdirərək atəşkəs rejimini mütəmadi olaraq pozur, regionda sülhün bərqərar olmasına maneçilik törədir. Ermənistanın mülki əhaliyə qarşı yönəlmiş soyqırımı siyasəti bu gün də davam etdirilir, dinc əhalinin, o cümlədən uşaqların qətlə yetirilməsi ilə nəticələnir.

Vurğulanır ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 30 il davam edən bu təcavüzə son qoyulmasına, münaqişənin sülh yolu ilə nizamlanmasına mütəmadi olaraq səylər göstərir, təşəbbüslər irəli sürür, münaqişənin beynəlxalq hüquq norma və prinsiplərinə uyğun yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll edilməsinin, zəbt edilmiş Azərbaycan torpaqlarından işğalçı qüvvələrin çıxarılmasının, məcburi köçkünlərin öz yurdlarına qaytarılmasının zəruriliyini dəfələrlə nüfuzlu beynəlxalq qurumların qarşısında qaldırır. Bu isə beynəlxalq qurumların müvafiq qərarlarında, o cümlədən son dövrdə Avropa Parlamentinin 2018-ci il dekabrın 12-də qəbul etdiyi və Azərbaycanın ərazi bütövlüyünün bir daha vurğulandığı qətnamədə öz əksini tapıb.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Xocalı soyqırımının iyirmi yeddinci ildönümü haqqında" 2019-cu il 5 fevral tarixli sərəncam imzalanıb və müvafiq tədbirlər planının həyata keçirilməsi nəzərdə tutulub. Hər il olduğu kimi, bu il də həmin faciəni dünya ictimaiyyətinin diqqətinə çatdırılması məqsədilə müvafiq sərəncamla "Xocalı soyqırımının iyirmi yeddinci ildönümünün keçirilməsinə dair tədbirlər planı" təsdiq edilib və icra olunur.

Heydər Əliyev Fondunun dəstəyi ilə bir çox ölkələrdə və şəhərlərdə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq təbliğat kampaniyası Xocalı faciəsinin dünyada soyqırımı aktı kimi tanınmasında mühüm rol oynayır.

Diqqətə çatdırılır ki, İslam Əməkdaşlıq Təşkilatı Ermənistanı təcavüzkar, Xocalı faciəsini isə soyqırımı kimi tanıyan ilk beynəlxalq təşkilatdır. Artıq Meksika, Kolumbiya, Peru, Pakistan, Bosniya və Herseqovina, Rumıniya, Çexiya, Sudan, İordaniya, Honduras, Qvatemala, Panama, Sloveniya, Cibuti və Paraqvay parlamentləri Xocalı soyqırımını beynəlxalq hüquq normalarına əsaslanaraq tanıyıblar.

ABŞ-ın 22 ştatı - Massaçusets, Texas, Nyu Cersi, Meyn, Nyu Meksika, Arkanzas, Corciya, Oklahoma, Tennesi, Pensilvaniya, Konnektikut, Florida, Missisipi, Vest Virciniya, İndiana, Yuta, Nebraska, Havay, Montana, Arizona, Aydaho və Nevada ştatlarının qanunverici orqanlarında da müvafiq qətnamələr qəbul olunub.

Lakin BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə və İslam Əməkdaşlıq Təşkilatının, AŞ PA-nın, habelə Qoşulmama Hərəkatının və digər beynəlxalq qurumların bu qərarlarına baxmayaraq, Dağlıq Qarabağ münaqişəsi bugünədək beynəlxalq hüququn normaları və prinsipləri, ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyi çərçivəsində öz həllini tapmayıb.

"Xocalı soyqırımının 27-ci ildönümü günlərində həmin faciə zamanı qətlə yetirilənlərin, şəhidlərimizin əziz xatirəsini dərin hüznlə yad edərək yuxarıda qeyd olunanları, habelə beynəlxalq hüququn norma və prinsiplərini rəhbər tutaraq qətiyyətlə bildirirəm ki, bu hadisə xüsusi beynəlxalq komissiya tərəfindən araşdırılmalı, səlahiyyətli beynəlxalq qurumlar tərəfindən genosid aktı kimi tanınmalı, cinayət törədənlərə qarşı zəruri cəza tədbirləri tətbiq edilməlidir. Hər bir dövləti, beynəlxalq təşkilatları bu soyqırımını ədalət naminə tanımağa, onu törədənlərin cəzalandırılması üçün həmrəyliyə və səyləri artırmağa bir daha çağırıram.

Bu kimi halları törədənlərin cəzalandırılmaması dünyanın hədəflədiyi əsas prioritetlərinə, BMT-nin prinsiplərinə, Dayanıqlı İnkişaf Məqsədlərinə ziddir.

Xocalı soyqırımına beynəlxalq qurumlar tərəfindən hüquqi-siyasi qiymət verilməli, Ermənistan münaqişə ilə bağlı qəbul olunmuş məlum beynəlxalq sənədlərin qərarlarına, sülh və ədalət çağırışlarına riayət etməli, Azərbaycanın ərazi bütövlüyü, qaçqın və məcburi köçkün soydaşlarımızın pozulmuş hüquqları bərpa olunmalı, əsir və girovlar azad edilməli, onlar öz doğma yurdlarına qayıtmalı, habelə günahsız, dinc insanları qətlə yetirən cinayətkarlar tezliklə ədalət məhkəməsi qarşısında cavab verməli və cəzalandırılmalıdır", - deyə Ombudsman əlavə edib.

# Xocalı soyqırımı qurbanlarının xatirəsi Türkiyənin Çərkəzköy şəhərində anılıb

Türkiyənin Təkirdağ vilayətinin Çərkəzköy şəhərində "Dünəndən bugünə qədər erməni təcavüzkarlığı və Xocalı soyqırımı" mövzusunda konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, Çərkəzköy Türk Ocaqları tərəfindən təşkil olunan tədbirdə şəhərin ziyalıları və rəhbər şəxsləri, yerli ictimaiyyətin təmsilçiləri iştirak ediblər. Xocalı şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad olunduqdan sonra Anadolu Aydınlar Ocağının sədri, professor İbrahim Öztəkin məruzəsi dinlənilib.

Saxta "erməni soyqırımı" siyasi müzakirəyə çıxarılandan bugünümüzədək əsassız iddianın ayrı-ayrı istiqamətlərindən bəhs edən İbrahim Öztək dinləyicilərə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin səbəb və məqsədləri barədə müfəssəl məlumat verib. Erməni millətçi dairələrinin Türkiyə və Azərbaycan xalqlarının qonaqpərvərliyindən istifadə edərək daim xəyanət yolu tutduqlarını diqqətə çatdıran professor bildirib ki, ötən əsrin əvvəllərində olduğu kimi, XX əsrin sonunda da ermənilər bütün qüvvələrini səfərbər edərək Azərbaycanın dövlət müstəqilliyinə qarşı çıxıblar. Xocalı soyqırımının törədilməsinin əsas məqsədi Azərbaycan xalqında düşmən xofu yaratmaq, ölkədə xaosa nail olmaq və bunlara da işğalçılıq niyyətlərini gerçəkləşdirmək olub. Xocalı soyqırımını bəşəriyyətə qarşı cinayət olduğunu diqqətə çatdıran professor İbrahim Öztək bildirib ki, sülhsevər dünya ictimaiyyəti bu qanlı hadisə ilə bağlı ədalətli mövqe sərgiləməlidir. Saxta "erməni soyqırımı" iddiası ilə çıxış edənlərə ən tutarlı cavab ermənilərin Xocalıda törətdikləri soyqırımıdır.

# Sosial məsələlərin həlli gündəmdən düşmür

Azərbaycan dövlətinin iqtisadi sahələrdə həyata keçirdiyi islahatlar əlavə maliyyə resursları əldə etməyə imkan verir. Gəlirlər ilk növbədə vətəndaşların rifah halının yaxşılaşdırılmasına yönəldilir. Bu da bir daha göstərir ki, güclü sosial siyasət yenə də ən vacib, ən ümdə məsələlərdən biri olaraq qalır.

Prezident İlham Əliyev demişdir: "Bütün bunlar bizim niyyətimizi, siyasətimizi göstərir. Onu göstərir ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır, onun maraqlarıdır, onun rifahıdır".

İmzalanan sərəncamlar, həyata keçirilən çoxsaylı tədbirlər, görülən əməli işlər də bunu göstərir. Elə bu yaxınlarda minimum əməkhaqqı artırıldı, 130 manatdan 180 manata çatdırıldı. Bu isə o deməkdir ki, dövlət sektorunda 450 min, özəl sektorda isə 150 min işçi əvvəlkindən 30 faiz çox əməkhaqqı alacaq.

Bu sərəncamın ardınca əhalinin müxtəlif təbəqələrini əhatə edən bir sıra digər sənədlər də imzalandı. Məsələn, "Ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə", "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdün verilməsi haqqında" və digər sərəncamlar verilib.

Dövlət başçısının "Azərbaycan Respublikasında ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" fərmanında dəyişiklik edilməsi ilə təhsil sahəsində ən yüksək nəticələr əldə etmiş tələbələrin təqaüdləri 185 manatdan 210 manata qaldırılacaq.

Prezidentin təşəbbüsü ilə minimum əmək pensiyasının artırılması üçün hazırlanan qanun layihəsi də göstərir ki, dövlət əhalinin bütün təbəqələrindən olan insanların güzəranının yaxşılaşdırılmasına çalışır. Belə ki, əmək pensiyasının minimum məbləği martın 1-dən 38,5 faiz artırılaraq 116 manata çatdırılacaq. Bir sıra kateqoriyalara daxil olan pensiyaçılar isə əvvəlki 80 manat əvəzinə indi 160 manat alacaqlar.

Ölkədə sosial məsələlərə diqqət ardıcıl xarakter daşıyır. Son 15 ildə əməkhaqqı 7 dəfə, pensiyalar 9 dəfə artıb. 3 min 200-dən çox məktəb əsaslı təmir edilib, yaxud yenidən tikilib. 640 tibb müəssisəsi inşa edilib və yenidən qurulub.

Yaradılan 2 milyon yeni iş yerinin böyük hissəsi bölgələrin payına düşüb. Bu da regionların sosial-iqtisadi inkişafına yönəldilən və müvəffəqiyyətlə başa çatan üç dövlət proqramının sayəsində mümkün olub. Belə ki, rayonlarda onlarca müəssisə işə düşüb, yeni istehsalat sahələri yaradılıb. Vacib, lakin unudulmuş kənd təsərrüfatı sahələri bərpa edilib. Pambıq tarlaları, üzüm bağları, çay və gül plantasiyaları yenidən canlanıb. Çəltikçilik, tütünçülük, baramaçılıq və s. dirçəldilib. Nəticədə kənd əhalisinin güzəranı xeyli yaxşılaşıb.

Bütün bunlar adi faktlar deyil. Çünki deyilənlər Azərbaycanda miqrasiyanın saldosuna da müsbət təsir göstərib. Təsadüfi deyil ki, vaxtilə dolanışıq ucbatından digər ölkələrə üz tutmuş bölgə sakinlərinin çoxu artıq ev-eşiyinə qayıdıb və güzəranından razıdır.

Dövlət Ermənistanın torpaqlarımıza təcavüzü nəticəsində yurd-yuvasından didərgin düşmüş məcburi köçkünləri, şəhid ailələrini, müharibə əlillərini də bir an belə unutmur. Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının yekunlarına həsr olunan konfransda Prezident İlham Əliyev demişdir: "Məcburi köçkünlərin problemləri həmişə diqqət mərkəzində olmuşdur ki, bu gün də belədir. Son illər ərzində yüzdən çox köçkün şəhərciyi tikilib, köçkünlərə təqdim edilib. Şəhid ailələri, müharibə veteranları, müharibə əlilləri üçün 6650 mənzil təqdim edilmişdir və bu proses davam etdirilir. Bu kateqoriyadan olan vətəndaşlar evlərlə təmin olunacaqlar. Yəni, Azərbaycan sosial sahəyə çox böyük diqqət göstərən ölkədir".

Şəhid vərəsələrinə 11 min manat məbləğində birdəfəlik ödəmələrin verilməsi prosesi də davam edir.

Sosial siyasətin davamlılığı göstərir ki, xalqın rifahının yüksəldilməsi bundan sonra da daim gündəlikdə olacaq.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Azərbaycan nümayəndə heyəti ATƏT PA-nın qış sessiyasında iştirak edəcək

Milli Məclis Sədrinin müavini, ATƏT Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri Bahar Muradovanın başçılığı ilə bir qrup deputat qurumun qış sessiyasında iştirak etmək üçün fevralın 19-dan 23-dək Avstriyanın Vyana şəhərində səfərdə olacaq.

Bu barədə AZƏRTAC-a Milli Məclisin mətbuat xidmətindən məlumat verilib. Nümayəndə heyətinə Milli Məclisin deputatları Azay Quliyev, Tahir Mirkişili, Elşad Həsənov, Kamran Nəbizadə və Ülviyyə Ağayeva daxildirlər.

Sessiya çərçivəsində keçiriləcək komitə iclaslarında "Uzanan münaqişələrin həlli üçün ATƏT-in imkan və mexanizmləri", "ATƏT regionunda korrupsiya, pulların yuyulması və terrorizmin maliyyələşdirilməsi ilə mübarizə sahəsində effektiv idarəetmə", "Fövqəladə vəziyyətlərdə insan hüquqlarının qanuni məhdudlaşdırılmasının təsir sahələri" və digər mövzularda fikir mübadiləsi aparılacaq.

İclaslarda nümayəndə heyətinin rəhbəri Bahar Muradova və deputatlar çıxış edəcək, gündəliyə çıxarılacaq sənədlərə münasibətlərini bildirəcəklər.

Səfər çərçivəsində Azərbaycan parlament nümayəndə heyətinin üzvləri ATƏT PA-nın İpək yoluna dəstək qrupunun tədbirlərinə qatılacaq, Avstriyanın İpək yolu regionunda qarşılıqlı əlaqənin və nəqliyyat infrastrukturunun inkişafına xidmət edən "Twin-Continent-1520" adlı yeni innovativ layihəsi ilə tanış olacaqlar.

Həmçinin Vyanada İpək yoluna Dəstək Qrupunun 5-ci iclası keçiriləcək. Qrupun rəhbəri və ATƏT PA-nın vitse-prezidenti Azay Quliyev son bir ildə görülən işlər və gələcək fəaliyyət haqqında məlumat verəcək. İclasda İtaliyanın qrupa üzvlük haqqında etdiyi müraciət, qurumun bu il təşkil edəcəyi beynəlxalq İpək yolu konfranslarına hazırlıq və digər məsələlər müzakirə olunacaq.

# Görkəmli teleaparıcı Rafiq Hüseynovun yaşadığı evin qarşısında barelyefi açılıb



Fevralın 18-də xalq artisti, Dövlət mükafatı laureatı, Prezident təqaüdçüsü, görkəmli teleaparıcı və diktor Rafiq Hüseynovun yaşadığı evin qarşısında barelyefinin açılışı olub.

AZƏRTAC xəbər verir ki, barelyef Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən, fondun dəstəyi ilə hazırlanıb.

Tədbirdə çıxış edənlər Rafiq Hüseynovun keçdiyi sənət yolundan, bənzərsiz istedadı və təkrarsız üslubundan bəhs ediblər. Bildiriblər ki, Rafiq Hüseynov böyük təcrübəyə malik peşəkar teleaparıcı idi. Yüksək intellekt sahibi olan, doğma dilimizin incəliklərini daim yaşadan xalq artisti ciddi görkəmi, xoş təbəssümü, aydın diksiyası ilə hər zaman milyonlarla tamaşaçını efirə cəlb edib. Tamaşaçılar Rafiq Hüseynovun ekranda görünüşünə, səsinin ahənginə, təmiz nitqinə və səmimi ünsiyyətinə heyran qalırdılar. O, efirdə yazıçı ilə yazıçı, musiqiçi ilə musiqiçi, teatr işçisi ilə teatrşünas kimi danışırdı, həm informasiya, həm bədii, həm də ictimai-siyası mətni mövzuya uyğun ahəng və avazla səsləndirirdi. Rafiq Hüseynov keçmiş Sovet İttifaqı məkanında ən yaxşı diktorlardan biri idi. Moskvadan mərkəzi televiziyada işləməyə dəvət alsa da, bu təklifi qəbul etməmiş, doğma televiziyanı üstün tutmuşdu. Səsləndirdiyi diktor mətnləri, sənədli filmlər, aparıcısı olduğu müəllif verilişləri onun qiymətli yadigarı kimi televiziyanın fondunda qorunub saxlanılır.

Rafiq Hüseynovun həyat yoldaşı Səbinə Hüseynova, xalq artistləri Eldost Bayram, Ofeliya Sənani və başqaları görkəmli teleaparıcının xatirəsinə göstərilən diqqətə görə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya minnətdarlıqlarını bildiriblər.

Rafiq Hüseynov 2017-ci il oktyabrın 26-da Almaniyanın Düsseldorf şəhərində müalicə aldığı klinikada dünyasını dəyişib. Mavi ekranın unudulmaz siması hələ uzun illər lentlərin yaddaşında yaşayan bənzərsiz səsi ilə milyonların yaddaşını təzələyəcək.

# Azərbaycan-Türkiyə münasibətləri dünya dövlətləri üçün bir nümunədir

Fevralın 18-də Milli Məclisin Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Türkiyə Böyük Millət Məclisinin Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvləri ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, işçi qrupun rəhbəri, Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov Türkiyə-Azərbaycan əlaqələrindən danışıb. Bildirib ki, ölkələrimiz arasında siyasi, iqtisadi, humanitar, təhsil, səhiyyə sahələrində yüksək səviyyəli əməkdaşlıq mövcuddur. Bu əməkdaşlığın, eləcə də parlamentlərarası əlaqələrin inkişafında prezidentlər İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın dostluq münasibətləri mühüm rol oynayır. Diqqətə çatdırılıb ki, Milli Məclisin 125 deputatından 65-i Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvüdür.

Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım deyib ki, Azərbaycan-Türkiyə münasibətləri dünya dövlətləri üçün bir nümunədir. Ölkələrimiz arasındakı yüksək səviyyəli əməkdaşlığı qeyd edən Şamil Ayrım xüsusilə təhsil sahəsində əlaqələrin uğurlarından danışıb.

Enerji sahəsində əməkdaşlığa toxunan dostluq qrupunun rəhbəri "Star" neft emalı zavodunun önəmini qeyd edib. Bildirib ki, bu, Azərbaycanın Türkiyəyə ən böyük yatırımıdır.

Tərəflər parlamentlərarası əlaqələrin inkişafına hər zaman töhfələrini verməyə hazır olduqlarını bildiriblər.

# Milli Məclisdə "Könüllülər Parlamenti - Azərbaycan, 2019" layihəsinin açılışı olub



Fevralın 18-də parlamentdə Azərbaycan Respublikası Milli Məclisi və "ASAN Könüllüləri" Təşkilatının birgə əməkdaşlığı ilə "Könüllülər Parlamenti - Azərbaycan, 2019" layihəsinin açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, mərasimdən əvvəl tədbir iştirakçıları ulu öndər Heydər Əliyevin abidəsi önünə tər çiçəklər düzüblər.

Toplantı Azərbaycanın Dövlət himninin səsləndirilməsi ilə açıq elan olunub.

Sonra "ASAN Könüllülər" Təşkilatının sədri Səbinə Cabbarova təmsil etdiyi qurum və layihə haqqında ətraflı məlumat verib. Bildirilib ki, "ASAN Könüllülər" Təşkilatı 5 ildir fəaliyyət göstərir. Bu müddət ərzində vətənpərvərlik, təhsil, ekologiya, mədəniyyət, dövlətçilik, fərdi inkişaf və digər sahələr üzrə yerli və beynəlxalq layihələr həyata keçirilib. Bunlardan biri də "Könüllülər Parlamenti - Azərbaycan, 2019" layihəsidir. Layihə artıq üçüncü dəfədir ki, həyata keçirilir. Əsas məqsəd ölkə gənclərinin siyasi, sosial, ekoloji və hüquqi biliklərinin hərtərəfli inkişaf etdirilməsi üçün onlara dəstək vermək, vətəndaş mövqeyini ifadə etməyi stimullaşdırmaqdır.

Gələcək planlar barədə söhbət açan təşkilatın sədri qeyd edib ki, "ASAN Könüllülər" tərəfindən bu yaxınlarda TÜKRSOY-un türkdilli dövlətlərdən olan gənclərinin I beynəlxalq simulyasiyası həyata keçiriləcək.

Parlament aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Nizami Səfərov çıxış edərək Milli Məclis rəhbərliyi adından tədbir iştirakçılarını salamlayıb və işlərində uğurlar diləyib. O bildirib ki, Prezident İlham Əliyevin fərmanı ilə 2012-ci ildə yaradılmış "ASAN xidmət"in fəaliyyəti artıq beynəlxalq səviyyədə geniş tanınır. Quruma Birləşmiş Millətlər Təşkilatı səviyyəsində diqqət göstərilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan hüquqi islahatlar bu yeni strukturun yaradılmasını təmin edib. Qısa müddət ərzində qurum tərəfindən milyonlarla insana müxtəlif xidmətlər göstərilib. Azərbaycan vətəndaşları ilə yanaşı, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər də bu xidmətlərdən yararlanıblar.

Qeyd edilib ki, ölkədə qanunvericilik hakimiyyətini həyata keçirən Milli Məclis qanun yaradıcılığı, Konstitusiya ilə müəyyən edilmiş digər önəmli fəaliyyətləri həyata keçirir. "Könüllülər Parlamenti - Azərbaycan, 2019" layihəsi Milli Məclisin nümunəsi əsasında təşkil olunub və iştirakçılara bu təcrübədən yararlanaraq müxtəlif mövzular ətrafında müzakirələr aparmaq, siyasi təhlil bacarıqlarını göstərmək imkanı yaradılır.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin insan resursları və təlim şöbəsinin müdiri Orxan Dəmirli deyib ki, 15 nəfərlə başlayan "ASAN Könüllüləri" bu gün artıq 17 mindən çox gənci əhatə edir və "ASAN Könüllüləri" hərəkatına çevrilib. Hərəkat çərçivəsində yüzlərlə layihə həyata keçirilib. Həmin layihələr "ASAN Könüllüləri"nə daxil olmayan gəncləri də əhatə edib və təxminən 50 min gənci əhatə edən tədbirlər həyata keçirilib.

Qeyd edilib ki, "Könüllülər Parlamenti" layihəsi artıq üçüncü dəfədir həyata keçirilir. Bu layihə ilə gənclərin siyasi, qanunvericilik proseslərində iştirakı təmin olunur. Layihədə 1300-ə yaxın gənc iştirakçı olmaq istəyib. Onlardan 50-si iştirakçı seçilib. Dörd gün davam edəcək layihə çərçivəsində gənclər qanunvericilik prosesini öyrənəcək, özləri qanun layihələri hazırlayıb komitələrin müzakirəsində iştirak edəcək, deputatlarla görüşəcək, parlamentdə Heydər Əliyev muzeyini ziyarət edəcəklər.

Gənclər və İdman Nazirliyinin gənclərlə iş şöbəsinin sektor müdiri Fuad Babayev deyib ki, 2012-ci ildən fəaliyyət göstərən "ASAN xidmət" dünyada Azərbaycan brendi kimi tanınır. Qeyd edib ki, "ASAN xidmət" dünyada Azərbaycanla bağlı gözəl imic formalaşdırıb, o cümlədən daxildə vətəndaşlar üçün böyük imkanlar açıb, vətəndaş-dövlət münasibətlərini tamamilə fərqli bir mərhələyə çıxarıb.

Gənclər Fondunun gənclər təşkilatları ilə iş şöbəsinin müdiri Seymur Hüseynov bildirib ki, "ASAN Könüllüləri" Təşkilatı hazırda ölkədə fəaliyyət göstərən ən fəal gənclər hərəkatlarından biridir. "ASAN Könüllüləri" Gənclər Fondu ilə birgə bir çox layihələr həyata keçirir. Prezident İlham Əliyev gənclərimizin savadlı, dünyagörüşlü, sağlam, vətənpərvər və müasir çağırışlara hazır olmalarına böyük önəm verir. Azərbaycan dövlətinin gənclər siyasəti də məhz belə gənclərin yetişdirilməsinə istiqamətlənib.

Açılış mərasimindən sonra "Könüllülər Parlamenti - Azərbaycan, 2019" layihəsinin iştirakçıları komitə iclaslarında işlərini davam etdiriblər.

# Mil düzü nura qərq olmuşdu

Prezident İlham Əliyevin Beyləqan səfərinin yaratdığı xoş ovqat yaddaşların şirin və unudulmaz xatirəsinə çevrilib



Elə bil o gün Beyləqana yaz gəlmiş, qışın soyuğunu, şaxtasını qovmuş, Mil düzündə hər yan nura qərq olmuşdu. Gözlərdəki sevinc, üzlərdəki təbəssüm səmimiyyətdən qaynaqlanırdı. İnsanlar adətən doğmaları, əzizləri ilə görüşdən şadlanar, sevinərlər. Prezident İlham Əliyevlə növbəti görüş beyləqanlılara unudulmaz anlar, xoş ovqat yaşatdı.

Fevralın 13-də keçirilən bu görüş tarixə çevrilsə də, Beyləqanda hələ bayram ab-havası davam edir. Prezidentlə təmasda olan insanlar görüşdən aldıqları sevinclərini paylaşmaqdan zövq alırlar.

Biz də Beyləqanda sakinlərlə söhbət edərkən bunun şahidi olduq. Sürətlə inkişaf edən, dəyişib yeniləşən Beyləqanda diqqət çəkən digər cəhətlər də var. Dövlətin dəstəyindən güc alıb tikinti, abadlıq, quruculuq, kənd təsərrüfatı sahələrində qazanılan uğurlar, yeniliklər insanlarda məmnunluq yaradır. Bu gün beyləqanlıların fəal vətəndaş mövqeyi, yüksək vətənpərvərlik hissi, dövlət təəssübkeşliyi hər kəsdə razılıq doğurur.

Dövlət başçısının unudulmaz tarixi görüşünün yaratdığı xoş təəssürat barədə şəhər sakini Əntiqə Həsənova belə dedi:

- O gün həyatımın ən xoş anlarını yaşadım. Dəfələrlə eşitmişik ki, Prezident İlham Əliyev məmurlara tapşırır ki, vətəndaşlara hörmətlə yanaşsınlar, xalqa vicdanla xidmət etsinlər. Ölkə rəhbərinin Beyləqana səfəri zamanı biz bunun bir daha şahidi olduq. Gördük ki, Prezidentin xalqımıza məhəbbəti, hörməti və ehtiramı sonsuzdur. Görüşdə ailəmizin üzləşdiyi problemlə bağlı müraciət etdim. Dedim ki, cənab Prezident, evimizi təmir etdirməyə maddi imkanımız yoxdur. Elə oradaca problemin aradan qaldırılması ilə bağlı konkret tapşırıqlarını verdi. Mənim gücüm isə səmimi minnətdarlığa çatırdı. Dedim ki, sağ olun, Siz bizə yaşamaq həvəsi verirsiniz.

Beyləqan rayon Ağsaqqallar Şurasının sədri Ələmşah Məmmədquliyev də görüş iştirakçılarındandır. Onun təəssüratları belədir:

- Ömrümün ixtiyar çağında dövlət başçısı ilə görüş mənə çox mətləbləri anlatdı. Bir daha əmin oldum ki, Prezident İlham Əliyevin ən böyük amalı xalqa xidmət etməkdir. Onu bağrına basıb üz-gözündən öpənlərin, alqışlar, dualar edənlərin əhatəsində özünü necə də xoşbəxt hiss edirdi. Güvəndiyi, arxalandığı, etibar etdiyi xalqı ona məhəbbətlə qucaq açırdı. Onu da deyim ki, dövlət başçılarının bir çox görüşlərində iştirak etmişəm. Bu görüşün fərqi onda idi ki, adamlar sərbəst şəkildə istək və arzularını dövlət başçısına çatdırır, dövlət başçısının cavabından məmnun qalırdılar. Görüşün ana xətti doğmalıq və səmimiyyət idi. Bu görüşdə xalq-dövlət birliyi öz parlaq təcəssümünü tapmışdı. Xalq sevinirdi ki, belə mehriban qayğıkeş, hər bir ölkə vətəndaşının Prezidenti, güclü rəhbəri var. Prezident də qürur və iftixar hissi keçirirdi ki, güvəndiyi xalq müdrik və qədirbiləndir.

Bu tarixi səfərin hər məqamı unudulmazdır və son dərəcə əhəmiyyətlidir. Heç bir ssenarisi olmayan, hər şeyin təbii alındığı bu görüşün hər xırda detalında belə xalq-dövlət birliyinin təntənəsi boy verir. Səmimi notlara köklənən bu görüşdə beyləqanlı Babək Hacıyev əməkhaqlarının artırılmasına görə Prezidentə minnətdarlığını bildirib sözünü məşhur "Azərbaycanım" mahnısı ilə yekunlaşdırdı.

Çox təsirli məqam idi ki, bu nəğmənin nəqarətini izdihamla birlikdə Prezident də oxudu.

Beyləqan rayonuna budəfəki səfərin proqramı da kifayət qədər zəngin idi. Dövlət başçısı MİngəçevirStansiya Mingəçevir-Bəhrəmtəpə-Beyləqan avtomobil yolunun açılışını etdi. Bu yol 26 min nəfər əhalinin yaşadığı 7 yaşayış məntəqəsini birləşdirir. Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarına uyğun olaraq ölkədə və eyni zamanda, bölgələrdə yol infrastrukturu sürətlə yaxşılaşdırılır. Beyləqan rayonunun Kəbirli-Eyvazalılar-Birinci Aşıqlı-Əlinəzərli avtomobil yolunun yenidən qurulması layihəsinə yaxın günlərdə start veriləcəkdir. Bu yol iyirmi iki min nəfər əhalinin yaşadığı səkkiz yaşayış məntəqəsini əhatə edəcəkdir.

Prezident Beyləqan Olimpiya İdman Kompleksinin açılış mərasimində də iştirak etdi. İdmançılarla, rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə dedi: "Bu mərkəzin yaradılması bizim idman siyasətimizin təzahürüdür, onu göstərir ki, doğrudan da, Azərbaycan idman dövlətidir. Biz çalışırıq ki, bütün bölgələrdə, hər bir rayonda müasir idman kompleksləri tikilsin ki, gənclər, uşaqlar, yeniyetmələr idmanla məşğul olsunlar. Bu şəraiti biz yaradırıq. Deyə bilərəm ki, bu olimpiya idman kompleksi ən yüksək dünya standartlarına cavab verir. Burada bizim gənc idmançılarımız məşq edəcəklər, yarışacaqlar və beləliklə, ölkəmizin idman şöhrətini yüksəklərə qaldıracaqlar".

Beyləqanlı gənclər bu dəyərli töhfəyə görə dövlət başçısına hədsiz minnətdarlıqlarını bildirdilər.

Əsaslı şəkildə yenidən qurulan Beyləqan Tarix-Diyarşünaslıq Muzeyinin və "Beyləqan-1" yarımstansiyasının açılışları da Prezident İlham Əliyevin iştirakı ilə oldu.

Səfər çərçivəsində rayon ərazisində yeni inşa edilmiş "N" saylı hərbi hissədə yaradılan şəraitlə tanış olan Ali Baş Komandan əsgərlərlə birgə nahar da etdi. Düşmənlə təmas xəttinə yaxın bir ərazidə müasir və modern güclü maddi texniki bazaya malik hərbi hissənin mövcudluğu ordumuzun qüdrətindən xəbər verir. Dövlət iqtisadi imkanlarından istifadə edərək dünyanın inkişaf etmiş ölkələrindən müasir hərbi texnikanın alınıb gətirilməsinə nail olub. Orduda döyüş ruhunun daim yüksək səviyyədə olması üçün zəruri tədbirlər görülüb. Əsgəri balası kimi sevən Ali Baş Komandan onlarla bir süfrədə əyləşməklə orduda xidmət edən hər bir zabitə əsgəri sevmək, onun qayğısına qalmaq, ehtiyacları ilə yaxından maraqlanmaq nümunəsi göstərir. Bu həm də o deməkdir ki, valideynlər orduda xidmət edən övladlarından nigaran qalmırlar, çünki əsgərin həyati təhlükəsizliyi və təminatı dövlət üçün hər şeydən üstündür.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

# Heydər Əliyev Mərkəzində rus avanqard rəssamlarının nadir əsərlərindən ibarət sərgi açılıb









Heydər Əliyev Mərkəzində "Zamanında. Rusiya regional muzeylərinin 1900-1930-cu illərə aid rus avanqardı kolleksiyaları. Üçüncü hissə" adlı sərgi açılıb.

AZƏRTAC xəbər verir ki, ekspozisiyada Rusiyanın 17 şəhərindəki regional muzeylərdən toplanmış nadir avanqard kolleksiya nümayiş olunur.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva sərginin açılış mərasimində iştirak edib.

Mərasimdə Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov çıxış edərək sərgi ilə bağlı fikirlərini bölüşüb. Ölkəmizin mədəni həyatında bir çox tədbirlərin keçirildiyini deyən Anar Ələkbərov bildirib ki, Heydər Əliyev Mərkəzi ənənəvi olaraq bu cür tədbirlərin təşkil edildiyi məkana çevrilib. Burada keçirilən tədbirlər hər zaman yüksək qiymətləndirilir. Bu layihənin üzərində uzun zamandır iş aparıldığını deyən direktor sərginin ərsəyə gəlməsindən məmnunluğunu bildirib. O, sərginin ölkəmizdə ilk dəfə keçirildiyini diqqətə çatdıraraq layihənin reallaşmasında göstərdikləri dəstəyə görə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya və fondun vitse-prezidenti Leyla Əliyevaya minnətdarlığını bildirib.

Sərginin fevralda açılmasının təsadüfi olmadığını vurğulayan Anar Ələkbərov bildirib ki, bu ay tanınmış avanqard klassiki, sərgidə əsərləri nümayiş olunan Kazimir Maleviçin anadan olmasının 140 illik yubileyi qeyd edilir.







Heydər Əliyev Mərkəzinin direktoru layihənin reallaşmasında Rusiya Yəhudi İcmaları Federasiyasının prezidenti, Yəhudi Muzeyi və Tolerantlıq Mərkəzinin baş direktoru Aleksandr Borodanın və sərginin kuratoru, incəsənət tarixçisi Andrey Sarabyanovun da xidmətlərini xüsusi vurğulayıb.

Rusiya Yəhudi İcmaları Federasiyasının prezidenti, Yəhudi Muzeyi və Tolerantlıq Mərkəzinin baş direktoru Aleksandr Boroda deyib ki, Rusiyanın regional muzeylərindən toplanan bu əsərlərin nümayişi Heydər Əliyev Mərkəzi, Yəhudi Muzeyi və Tolerantlıq Mərkəzi, Moskva Müasir İncəsənət Muzeyinin birgə səyləri nəticəsində mümkün olub. Aleksandr Boroda rəhbərlik etdiyi mərkəzin uzun illərdir Heydər Əliyev Mərkəzi ilə səmərəli əməkdaşlıq qurduğunu diqqətə çatdıraraq deyib: "Biz Heydər Əliyev Fondunun rəhbərliyinin qarşılıqlı hörmət və tolerantlıq prinsiplərini tam dəstəkləyirik. Azərbaycan Prezidentinin həyata keçirdiyi tolerantlıq siyasətinə hər zaman böyük hörmətlə yanaşılır. Bu cür layihələrin gələcəkdə də reallaşacağına əminik".

"Çox sevinirəm ki, bu gün rus avanqardı Bakıya gəlib" - deyən sərginin kuratoru, incəsənət tarixçisi Andrey Sarabyanov vurğulayıb ki, sərginin Bakıda keçirilməsi təsadüfi deyil. Bu sərginin özünə məxsusluğu ondadır ki, burada az tanınan rəssamların da əsərləri nümayiş olunur. O, sərginin təşkilatçılarına minnətdarlığını bildirib.

Çıxışlardan sonra qonaqlar sərgidə nümayiş etdirilən əsərlərlə tanış olublar.

Ekspozisiyada avanqard incəsənət tarixinə mühüm töhfələr vermiş klassiklərin - Kazimir Maleviç, Vasili Kandinski, Aleksandr Rodçenko, Vladimir Tatlin, Aleksandr Ekster, Mark Şaqal ilə yanaşı, Viktor Bart, Aleksey Qrişenko, Aleksey Morqunov, Sergey Romanoviç, Pavel Mansurov və digərlərinin yaradıcılığından nümunələr təqdim olunub. Ümumilikdə, 60 əsərin yer aldığı ekspozisiya özündə 2016-cı və 2017-ci illərdə Moskvada nümayiş olunan "Zamanında. Birinci hissə" və "Zamanında. İkinci hissə" sərgilərinin eksponatlarını birləşdirir və rus avanqardının 1900-cü illərin ortalarında formalaşmasından başlayaraq 1930-cu illərin əvvəllərindəki tənəzzülünə qədər olan dövrü əhatə edir. Layihənin əsas ideyası məşhur, az tanınmış və ümumiyyətlə, tanınmamış avanqard rəssamların Rusiya regional muzeylərinin kolleksiyalarında qorunan əsərlərini təqdim etmək, XX əsrin ilk 30 ilində rus incəsənətindəki əsas üslubları sərgiləməkdir.

Ekspozisiya Heydər Əliyev Mərkəzində mayın 5-dək açıq olacaq.

# *Cambulat UMAROV:* "Çeçen və Azərbaycan xalqlarının qardaşlıq münasibətlərini pozmaq qeyri-mümkündür"



"Hər hansı bir cinayət hadisəsini, xuliqanlığı sosial şəbəkələrdə hansı formada şərh edilməsindən asılı olmayaraq yaymaq istəyənlər çeçen və Azərbaycan xalqlarının əlaqələrini, dostluq və qardaşlıq münasibətlərini poza bilməz. Bu, qeyri-mümkündür. Bu əlaqələr yüzilliklərə söykənir".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Çeçenistanın mətbuat və informasiya naziri Cambulat Umarov bildirib.

O deyib: "Qardaş Azərbaycan xalqını salamlayıram. Böyük qürurla qeyd etmək istəyirəm ki, çeçen xalqı beynəlxalq terrorçuların yaratdığı fitnəni, çeçenlərin həlak olduğu zaman Azərbaycanın bizə açdığı isti qardaşlıq qucağını heç vaxt unutmayacaq. Moskva və başqa yerlərdə kriminal hadisələr baş verən zaman onların məqsədi mənəvi inkişafın, mədəniyyətin nümayişi deyil. Onların məqsədi pul qazanmaq hərisliyi, insanları cinayətkarlığa sövq etməkdir.

Çeçen və Azərbaycan xalqları böyük sivilizasiyanın, böyük mədəniyyətin davamçılarıdır. Bu zənginlik atadan oğula, oğuldan nəvəyə ötürülə-ötürülə indiki möhkəm qardaşlıq və dostluq əlaqələrinə çevrilib. Bu əlaqələr yüzilliklərə söykənir. Biz ulu öndər Heydər Əliyevin və böyük Əhməd Hacı Kadırovun davamçılarıyıq. Biz düşmənçilik kimi bir ayıb əmələ yol verə bilmərik. Biz müasir, mədəni xalqlarıq. Qeydə alınan xırda narazılıqları münaqişələrlə deyil, atalarımızın bizə miras qoyduğu kimi çay süfrəsi arxasında həll etmişik. Mən azərbaycanlıları və çeçenləri müqəddəs "Qurani-Kərim"də deyildiyi kimi, məyus olmamağa çağırıram. Bu narazılığın yeganə çıxış yolu qardaşcasına görüşmək, bir-birini anlamaq və hörmət etməkdir. Bu, bizim əcdadlarımızdan qalan bir mirasdır. Azərbaycan və Çeçenistan respublikalarına sülh arzulayıram".

Xatırladaq ki, fevralın 14-də Moskvada "Neolit" kafesinin yanında silahlı münaqişə baş verib. Hadisə yerinə gələn polis dava iştirakçılarından 18 nəfəri tutub.

## Azərbaycan və Belarus müdafiə nazirlərinin görüşü olub



Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərinə səfəri çərçivəsində Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov Belarus Respublikasının müdafiə naziri, general-leytenant Andrey Ravkovla görüşüb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə tərəflər hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyini qeyd edib, eləcə də maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparıblar.

"IDEX - 2019" Beynəlxalq Müdafiə Sərgisi çərçivəsində Azərbaycan nümayəndə heyəti Belarus hərbi sənayesinin istehsal etdiyi döyüş texnikaları və hərbi təyinatlı digər vasitələrlə tanış olub, ordumuzun arsenalını gücləndirə biləcək silah və texnika ilə yaxından maraqlanıb.

Sərgi zamanı müdafiə naziri, general-polkovnik Zakir Həsənov Belarus Respublikasının Dövlət Hərbi Sənaye Komitəsinin sədri Roman Qolovçenko ilə də görüşüb.

Tərəflər hərbi və hərbi-texniki əməkdaşlığın inkişaf perspektivlərini, müasir hərbi texnologiyaların tətbiqi imkanlarını və qarşılıqlı maraq kəsb edən digər məsələləri müzakirə ediblər.

## Azərbaycanın müdafiə naziri "IDEX - 2019" Beynəlxalq Müdafiə Sərgisində iştirak edir

Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş naziri və müdafiə naziri Şeyx Məhəmməd bin Rəşid Əl Məktumun dəvəti ilə Əbu-Dabi şəhərində səfərdə olan Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov burada keçirilən "IDEX - 2019" Beynəlxalq Müdafiə Sərgisinin açılış mərasimində iştirak edib.

Azərbaycanın Müdafiə Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, mərasimdən sonra general-polkovnik Z.Həsənov sərgi ilə tanış olub və burada qabaqcıl silah istehsalçılarının nümayiş etdirdiyi ən müasir döyüş texnikası və hərbi vasitələrin nümunələrinə baxış keçirib.

## Ermənistan silahlı qüvvələri atəşkəs rejimini pozmaqda davam edir

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 26 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikası İcevan rayonunun Berkaber və Ayqeovit kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Məzəm və Cəfərli kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Şıxlar, Sarıcalı, Mərzili, Füzuli rayonunun Qərvənd, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## VIII Beynəlxalq Multikulturalizm Qış Məktəbinin iştirakçıları Quba Soyqırımı Memorial Kompleksini ziyarət ediblər



Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) təşkilatçılığı ilə "Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları" adlı VIII Beynəlxalq Multikulturalizm Qış Məktəbi layihəsinin iştirakçıları fevralın 17-də Quba Soyqırımı Memorial Kompleksini ziyarət ediblər.

AZƏRTAC xəbər verir ki, 16 ölkənin aparıcı universitetlərində təhsil alan tələbələrin cəlb olunduqları layihənin iştirakçıları ermənilərin törətdikləri soyqırımı haqqında ətraflı məlumatlandırılıblar. Bildirilib ki, Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Quba Soyqırımı Memorial Kompleksi 2013-cü il sentyabrın 18-də açılıb. Kompleksdə XX əsrin əvvəllərində Quba şəhərinin müxtəlif ərazilərinin görüntüləri, o zaman burada aparılan tikinti-quruculuq işləri, əhalinin həyat tərzi haqqında fotolar var. Burada quraşdırılmış sensor ekranlı monitordakı xüsusi xəritədə ermənilərin ötən əsrdə xalqımıza qarşı respublikamızın müxtəlif bölgələrində həyata keçirdikləri soyqırımı aktları barədə bir neçə dildə məlumat əldə etmək mümkündür.

Layihə iştirakçılarının diqqətinə çatdırılıb ki, Quba soyqırımı məzarlığı 2007-ci il aprelin 1-də ərazidə torpaq işləri görülərkən aşkarlanıb. Bundan sonra Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları tərəfindən kütləvi məzarlıqda geniş tədqiqat işləri aparılıb. Tədqiqatlar nəticəsində məzarlığın 1918-ci ildə ermənilərin yerli dinc əhaliyə qarşı törətdikləri soyqırımı ilə bağlı olduğu müəyyən edilib.

Qış Məktəbi layihəsinin iştirakçıları Quba Soyqırımı Memorial Kompleksinin xatirə kitabına ürək sözlərini yazıblar.

VIII Beynəlxalq Multikulturalizm Qış Məktəbi layihəsinin iştirakçıları Qubada dağ yəhudilərinin yığcam yaşadıqları Qırmızı qəsəbədəki "Gileki" və "Altı günbəz" sinaqoqları ilə yaxından tanış olublar.

Azərbaycan, Gürcüstan, Çexiya, Almaniya, Serbiya, Hindistan, Bosniya və Herseqovina, Avstriya, Yaponiya, İspaniya, Tacikistan, Yunanıstan, Portuqaliya, Rusiya, Bolqarıstan, San Tome və Prinsipi Demokratik Respublikası və Braziliyadan tələbələrin cəlb olunduqları layihə çərçivəsində fevralın 23-dək Quba, Qusar, Xaçmaz rayonlarında və Bakıda bir sıra tədbirlər keçiriləcək.

Beynəlxalq multikulturalizm qış və yay məktəbləri layihəsi BBMM-in "Azərbaycan multikulturalizmi fənninin xaricdə və ölkə universitetlərində tədrisi" layihəsinin davamıdır. Tədris layihəsi çərçivəsində hazırda dünyanın 19, Azərbaycanın isə 38 nüfuzlu ali təhsil ocağında Azərbaycan multikulturalizmini öyrənən tələbələr üçün təşkil olunan qış və yay məktəblərinin məqsədi həmin gənclərin nəzəri şəkildə öyrəndiklərini multikultural və tolerant dəyərlərin qorunub yaşandığı ölkəmizdə bilavasitə şahid olmasına şərait yaratmaqdır.

# Bakıda "Vergilər. Şəffaflıq. İnkişaf" mövzusunda forum keçirilib

Fevralın 18-də Bakıda Vergilər Nazirliyinin təşkilatçılığı ilə "Vergilər. Şəffaflıq. İnkişaf" mövzusunda forum keçirilib.

AZƏRTAC xəbər verir ki, forumun məqsədi Azərbaycanda həyata keçirilən vergi siyasətinin əsas istiqamətləri, qarşıda duran vəzifələr və inkişaf perspektivləri ilə bağlı vətəndaş cəmiyyəti, işgüzar dairələrlə açıq dialoqun qurulması olub.






Vergilər naziri Mikayıl Cabbarov vergi sistemində aparılan islahatlar, həyata keçirilən vergi siyasətinin əsas istiqamətləri, vergi qanunvericiliyində və inzibatçılığında edilmiş dəyişikliklər, dövlət-biznes münasibətləri, vergi orqanlarının sahibkarlarla qurduğu iş prinsipləri ilə bağlı məsələlərə toxunaraq, ölkəmizin vergi sisteminin perspektiv inkişaf istiqamətləri barədə işgüzar dairələrlə fikir mübadiləsinin aparılmasının vacibliyini vurğulayıb.

Nazir qeyd edib ki, rəqəmsallaşma vergi inzibatçılığının effektivliyini artırır: "Bu, bizə yeni vergiləri tətbiq etmədən və ya onları artırmadan böyük sayda vergiödəyicilərindən vergi toplamağa imkan verir. İnnovativ texnologiyalar insan, biznes və dövlət arasında olan ənənəvi əlaqə üsullarını dağıdaraq yeni biznes modellər yaradır. Məqsəd vergi öhdəliklərini yerinə yetirməkdə daha məsuliyyətli olmağa kömək etməkdir. Vergi administrasiyası sahibkara yönümlü yanaşma nümayiş etdirməyə hazırdır. Bu kompleks bir fəaliyyətdir, vergiödəyiciləri üçün komfortlu bir mühitin yaradılmasıdır. Bu siyasətin hədəfində hər şeydən öncə vergiödəyicisi və vətəndaş məmnunluğu durur. Sahibkar vergi orqanı ilə təmas perspektivindən qorxmamalıdır".

2019-cu ildə keyfiyyətli vergi auditi institutunun inkişafı istiqamətində tədbirlər görüləcəyini bildirən M.Cabbarov yoxlamaların sayının azaldığını və bu yoxlamaların risklərin idarə edilməsi sistemi əsasında müəyyən edilməsinə yönələn yanaşma tətbiq olunduğunu vurğulayıb: "Bu gün sahibkarların vergi orqanları tərəfindən yoxlamaya məruz qalma səviyyəsi cüzidir. 2018-ci ildə aktiv fəaliyyət göstərən hər 1000 ödəyicidən yalnız dördündə səyyar vergi yoxlaması aparılıb. Bu, 0,4 faiz göstərici deməkdir. Kiçik sahibkarlıq subyektləri isə, demək olar ki, yoxlamaya məruz qalmır".

Nazir əlavə edib ki, ötən il vergi sisteminin iqtisadi tənzimləmədə rolu əhəmiyyətli şəkildə artıb. Onun sözlərinə görə, vergilər artıq, sadəcə, bir fiskal siyasət aləti deyildir, o, iqtisadiyyatın inkişafını, biznesin idarə edilməsi şərtlərini müəyyən edən əsas iqtisadi idarəetmə vasitəsi olub. Vergi sistemində başlanan yeni islahatlar, vergiödəyiciləri ilə aydın və şəffaf münasibətlərin qurulması istiqamətində sərgilənən yeni yanaşmalar işgüzar mühitdə böyük gözləntilər yaradıb. Bu gözləntilər ötən il ərzində sahibkarlarla, onların ictimai birlikləri, assosiasiyalar və ekspert cəmiyyəti ilə keçirilən çoxsaylı görüşlərdə aşkar hiss edilib.

M.Cabbarov şəffaf münasibətlər sisteminin qurulmasına da toxunub. Bildirib ki, 2018-ci il vergi sahəsində dövlət-biznes münasibətlərində keçid dövrü kimi qəbul olunub. Vergi orqanlarının strukturu yenidən qurulub, kadr heyətində əsaslı dəyişikliklər aparılıb. Vergi orqanlarında əvvəllər mövcud olan bəzi neqativ praktikalar aradan qaldırılıb. Vergiödəyicilərinin rastlaşdığı problemlərin operativ həlli üçün apelyasiya sistemi yenidən qurulub və bu proses indi də davam edir.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə "kölgə iqtisadiyyatı" və bu problemlə bağlı fikirlərini bölüşüb. Sözügedən problemi tam aradan qaldırmağın çətin olduğunu söyləyən komitə sədri "kölgə iqtisadiyyatı"nın dünyanın əksər ölkələrində hökm sürdüyünü dilə gətirib.

Nəzərə çatdırıb ki, son bir ildə vergi və gömrük sistemində aparılan islahatlar nəticəsində bu sahədəki problemlər də tədricən azalmağa başlayıb. İslahatlar "kölgə iqtisadiyyatı"nda olan dövriyyənin həcminin azalmasında da özünü göstərir: "Azərbaycanda əmək ehtiyatları sürətlə artır. Bu artım özü zəruri edir ki, Azərbaycanın iqtisadi strategiyasında məşğulluq amili ön plana çəkilsin. Amma məşğulluq amilini hesablayanda görürük ki, ölkəmizdə cəmi 1,6 milyon muzdlu sistemdə çalışan əmək qabiliyyətli insan var. Bu rəqəmin getdikcə artırılması bizim qarşımızda duran ən mühüm vəzifələrdəndir. Biz bank və sığorta sistemini də, məşğulluq sistemini də yaxşılaşdırmalıyıq".

İqtisadiyyat naziri Şahin Mustafayev isə Azərbaycanda yaradılmış əlverişli biznes və investisiya mühiti nəticəsində sahibkarların biznesin istənilən sahəsi və növü ilə məşğul ola bildiyini, bunun üçün ölkəmizdə hər cür şəraitin olduğunu söyləyib.

Nazir dövlət başçısının tapşırıq və tövsiyələrinə uyğun olaraq, sahibkarlıq subyektlərində yoxlamaların, vergi yoxlamaları istisna olmaqla 2020-ci ilədək dayandırıldığını diqqətə çatdırıb: "Lisenziyalaşan fəaliyyət növlərinin və icazələrin sayı azaldılıb, prosedurlar sadələşdirilib, rüsumlar əhəmiyyətli dərəcədə aşağı salınıb. Bununla yanaşı, vergi, gömrük və sosial ödənişlər sistemində köklü və uğurlu islahatlara başlanılıb. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində 2018-ci ildə özəl bölmənin ümumi daxili məhsuldakı payı 84 faizə, məşğulluqdakı payı isə 76 faizə çatıb".

Ş.Mustafayev vergi sistemində həyata keçirilən köklü islahatlardan danışaraq bildirib ki, vergi siyasəti iqtisadiyyatın daim dəyişən və yenilənən tələblərinə, davamlı və sürətli inkişafına adekvat olaraq təkmilləşdirilir: "Son bir ildə vergi inzibatçılığı sahəsində ciddi və əsaslı islahatlar aparılıb. Vergi yükünün səmərəli tənzimlənməsi sahəsində əhəmiyyətli işlər görülüb. Vergi qanunvericiliyini təkmilləşdirməklə vergitutma optimallaşdırılıb, dövlət vergi orqanlarının fəaliyyəti daha da müasirləşdirilib, vergiödəyiciləri ilə mütərəqqi işgüzar münasibətlər formalaşdırılıb, kadr potensialı və maddi-texniki təminat gücləndirilib".

İqtisadiyyat naziri 2016-cı ildən tətbiq olunan investisiya təşviqi mexanizminin qeyri-neft sektorunda özəl investisiyaların artımına ciddi töhfə verdiyini bildirib: "İndiyədək investisiya təşviqi sənədi verilmiş 345 layihəyə 3 milyard manatadək investisiya qoyuluşu və 22 mindən çox yeni iş yerinin açılması nəzərdə tutulur".

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev vurğulayıb ki, Prezident İlham Əliyevin 2018-ci il 9 avqust tarixli fərmanı isə nazirliyin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST Agentliyi) və "DOST" mərkəzlərinin yaradılmasına imkan verib. Nazir qeyd edib ki, "DOST" layihəsi dövlət sosial xidmətlərinin innovativ yanaşmalar əsasında modern və çevik, tam şəffaf mexanizmlər üzərində qurulması ilə ölkəmizin bu sahədə yeni brendini formalaşdıracaq. Cari ilin birinci rübündə ilk "DOST" mərkəzi yaradılacaq. İl ərzində Bakıda 4 və 2019-2025-ci illərdə respublika üzrə isə 31 belə mərkəz açılacaq.

S.Babayev çıxışında vətəndaşların pensiya təminatına toxunub. Qeyd edib ki, vətəndaşlar bürokratik əngəllərdən uzaq tutularaq onların məmnunluğu üçün pensiya təyinatı təmin edilir. Vətəndaşların müraciəti gözlənilmədən artıq 3 min 600 nəfərə pensiya təyin olunub.

Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev bildirib ki, vergi, gömrük sahəsində sahibkarları maraqlandıran bir çox məsələlərlə - şəffaflığın təmin olunması, uçotun aparılması, elektron idarəetmə sistemlərinin təkmilləşdirilməsi ilə bağlı çoxsaylı müzakirələr aparılıb: "İlk növbədə, uçotun təşkili ilə bağlı ötən il çox ciddi layihələr həyata keçirdik. Prezidentin bu sahədə vermiş olduğu sərəncama uyğun olaraq, sahibkarlarımıza münbit şəraitin yaradılması ilə yanaşı, uçotun qurulması və elektron uçot sisteminin onlayn şəkildə Vergilər Nazirliyi və Gömrük Komitəsi arasında inteqrasiyasına nail olduq. Nəticədə ticarət dövriyyəsinin artımına nail olmaqla yanaşı, uçot sisteminin qurulması ilə "kölgə iqtisadiyyatı"na ən böyük zərbəni vurduq. Malların və nəqliyyat vasitələrinin düzgün qiymətləndirilməsi və idarə edilməsi, "kölgə iqtisadiyyatı" ilə bağlı köklü islahatlar nəticəsində 1 milyard manatdan çox vəsaitin dövlət büdcəsinə köçürülməsi təmin olunub. Bütün bu uğurların kökündə şəffaflıq dayanır".

Komitə sədri qeyd edib ki, fevralın 1-dən tətbiqinə başlanılan "Yaşıl dəhliz" buraxılış sistemindən bu vaxta qədər 100-dən çox şirkət istifadə hüququna sahib olub. Bu sistemin tətbiqi məmur-vətəndaş münasibətlərinin minimuma endirilməsi, şəffaflığın təmin olunması istiqamətində mühüm addım kimi qiymətləndirilə bilər.

Auditorlar Palatasının sədri Vahid Novruzov isə bildirib ki, son dövrlərdə Vergilər Nazirliyinin apardığı siyasət Prezident İlham Əliyevin iqtisadi islahatlar strategiyasının bütün çalarlarını özündə dolğun şəkildə əks etdirir və nəzarət tədbirlərinin çoxluğu əvəzinə onların keyfiyyətin yüksəldilməsi meyarı öz təsdiqini tapmaqdadır. Bütün bunlar iş adamlarının, vergiödəyicilərinin və ümumilikdə cəmiyyətin müsbət rəyinin formalaşmasına gətirib çıxarıb.

V.Novruzov, həmçinin vurğulayıb ki, Auditorlar Palatasında Azərbaycanda "kölgə iqtisadiyyatı"nın azaldılmasına dair Yol Xəritəsinin hazırlanmasına başlanılıb. Bu sahədə qabaqcıl xarici təcrübədən bəhrələnmək və ölkəmizdə həyata keçirilən mühüm tədbirlərin təşviqini təmin etmək məqsədilə bu ilin sentyabr ayında Vergilər Nazirliyi və Azərbaycan İqtisadçılar İttifaqı ilə birgə "Kölgə iqtisadiyyatına qarşı mübarizə iqtisadi inkişafın mühüm amili" mövzusunda beynəlxalq elmi-praktik konfransın keçirilməsi nəzərdə tutulur.

Bir sıra təkliflər edən V.Novruzovun sözlərinə görə, müasir təfəkkürlü vergiödəyicilərini formalaşdırmaq əsas məqsədlərdən biridir. Bu istiqamətdə ilboyu mütəmadi məsləhət və tədris xidmətlərinin aparılması, KİV-dən sistemli şəkildə istifadə vacibdir.

V.Novruzov deyib ki, dialoq mühitinin daha da şəffaflaşdırılması və asanlaşdırılması məsələsi vergi əməkdaşları və audit barədə informasiyaların birbaşa sahibkarlardan daxil olması mühüm əhəmiyyət kəsb edir ki, bu sahədə də konsepsiya hazırlanmalı, prosedurlar olmalıdır, hər müraciət edən sahibkarın məxfiliyi qorunsun, istəkləri müvafiq qurumlara təqdim edilsin: "Mən rəqəmsal iqtisadiyyatın və sosial auditin imkanlarından, onun mahiyyəti və çevikliyi baxımından istifadə edilməsinin tərəfdarıyam. İstəyirəm ki, reallaşdırılmağa başlanılan vergiödəyicilərinin şəxsi kabineti sistemi öz real həllini tapsın. Vergilər Nazirliyi və Auditorlar Palatasının müvafiq şuralarında nümayəndələrin qarşılıqlı təmsilçiliyi təmin edilsin. Bu, mövcud problemlərin həllində operativliyin təminatı baxımından mühüm əhəmiyyət kəsb edir".

Forumda məruzə edən Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (IOTA) baş katibi Miqel Silva Pinto Azərbaycanda vergi və gömrük sahəsində həyata keçirilən islahatların çox mütərəqqi olduğunu vurğulayıb. Baş katib bildirib ki, təmsil etdiyi qurum Azərbaycanın Vergilər Nazirliyi ilə 2002-ci ildən əməkdaşlıq edir: "Bu əməkdaşlıq əsasən mövcud praktiki məsələlər, o cümlədən vergidən yayınma kimi aktual problemləri əhatə edir".

Tədbirdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Milli Məclis, dövlət qurumları, beynəlxalq təşkilatlar, ictimai birliklər, qeyri-hökumət təşkilatlarının nümayəndələri və iş adamları iştirak edib. Çıxış edənlər ölkədə yaranmış yeni iqtisadi şəraitdə biznes mühitinin daha da yaxşılaşdırılması və vergi inzibatçılığının təkmilləşdirilməsi məqsədilə Vergilər Nazirliyi tərəfindən həyata keçirilən tədbirləri yüksək qiymətləndirərək dövlət başçısı tərəfindən bu istiqamətdə atılan addımları dəstəklədiklərini bildiriblər.

# İslahatlar innovasiyalara əsaslanır

## Müdafiə sənayesi kompleksinin daha da modernləşməsi Azərbaycanı hərbi güc mərkəzinə çevirəcək

Bu gün Azərbaycan əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş sabitlik və inkişaf kursuna söykənərək müasirləşmə və yeniləşmə, çoxşaxəli islahatlar yolu ilə inamla irəliləyir. Respublikamız müasir dövrün çağırışlarına və təhdidlərinə cavab verən, zamanın reallıqlarına uyğun dinamik inkişaf yolundadır. İnkişaf həm də təkmil idarəetmə deməkdir. Hər bir inkişaf etmiş dövlətin tarixi sübut edir ki, onun yüksəlişinə uyğun olaraq idarəetmə aparatı da daim yenilənib. Çünki inkişaf dövlət idarəçiliyi sisteminin səmərəliliyinin yüksəldilməsini, çevik və məqsədyönlü fəaliyyət göstərən idarəetmə strukturunun formalaşdırılmasını tələb edir. Ölkənin çevik idarəçilik sisteminin olması inkişafın əsas şərtlərindən biridir.



Müdafiə sənayesi də diqqət mərkəzində və daim yeniləşməli olan innovativ sektordur. Bu sfera müvafiq malların alınması üzrə idxaldan asılılığın azaldılması, xərclərə qənaət edilməsi, silah-sursat, hərbi texnika və digər vasitələrə olan tələbatın ödənilməsi, həmçinin istehsal edilən məhsulların dünya bazarına çıxarılaraq gəlir əldə olunması baxımından mühüm sahədir. Bir çox inkişaf etmiş dövlətlərdə tarixən müdafiə sənayesi sonralar mülki məqsədlər üçün istifadə edilən texniki vasitələrin təkmilləşdirilməsi və hazırlanması mərkəzlərinə çevrilib. Bunlar bizə yaxşı məlum olan internet, ratsiya və naviqasiya vasitələri, eləcə də mülki təyinatlı digər məhsullar portfelini yaradan iri aviasiya və avtomobil konsernləridir.

Ölkəmizin mühüm, həm də gərgin və mürəkkəb coğrafi-siyasi məkanda yerləşməsi, eləcə də müharibə vəziyyətində olması belə bir sənaye sahəsinin yaradılmasını vacib edib. Bu xüsusatlar nəzərə alınmaqla 2005-ci ildə yaradılan Müdafiə Sənayesi Nazirliyi yüngül-atıcı silahların, döyüş sursatının, hərbi xarakterli müxtəlif texniki və nəqliyyat vasitələrinin, o cümlədən mülki sahədə gərəkli ola biləcək məhsulların hazırlanmasında nailiyyətlər əldə edib. Bununla belə, müasir gerçəkliklər, iqtisadiyyatın, rəqəmsal və biznes proseslərinin dinamikası günün reallıqlarına daha çevik yanaşılmasını tələb edirdi. Prezident İlham Əliyev bütün digər sahələrdə olduğu kimi, bu yönümdə də transformasiyanın vacibliyinə və imkanlarına əhəmiyyət verərək Müdafiə Sənayesi Nazirliyinin bazasında "Azərsilah" Açıq Səhmdar Cəmiyyətinin yaradılmasına dair sərəncam imzaladı. Bu, dövlət aktivlərinin idarə edilməsinə yeni yanaşma, biznes məntiqinin və menecmentinin tətbiq edilməsi deməkdir. Belə dəyişikliklərin məqsədi xərclərin optimallaşdırılması, dövlət büdcəsinin yükünün azaldılması, tədqiqat və xüsusi hazırlıq mərkəzinin formalaşdırılması ola bilər. Həyata keçirilən islahatların mülki və hərbi təyinatlı innovativ məhsullar portfelinin yaradılması üçün biznesin müdafiə sənayesi ilə sıx əməkdaşlığına təkan verəcəyi gözlənilə bilər.

Dünya təcrübəsi oxşar islahatların müxtəlif nümunələri ilə zəngindir. Məsələn, ABŞ-da müdafiə sənayesində islahatların əsasının qoyulmasında həmin ölkənin müdafiə naziri Robert Maknamaranın böyük rolu olub. İlk dəfə olaraq dövlət qurumunda biznes fəaliyyəti prosesləri tətbiq edilib və biznes mütəxəssislərindən ibarət komanda bu işə cəlb olunub. Hazırda ABŞ-da DARPA (Müdafiə sahəsində Qabaqcıl təcrübənin Öyrənilməsi və İnkişafı Agentliyi) innovasiya mərkəzi fəaliyyət göstərir. Həmin mərkəz silahlı qüvvələrin ehtiyaclarının müntəzəm qiymətləndirilməsini, bu sferada yerli podratçıların cəlb edilməsi ilə müdafiə sahəsində innovasiyalar bazarının konsolidasiyası, xarici tərəfdaşlarla əməkdaşlıq əsasında birgə çalışmaqla müvafiq məhsulların hazırlanmasını təmin edir.

Bu baxımdan, İsrail hərbi-sənaye kompleksi kommersiyalaşdırılmanın daha bir bariz nümunəsidir. Belə ki, bu ölkədə istehsal edilən müvafiq məhsulların 80 faizi ixraca yönəldilib. Müdafiə sənayesi üzrə yüksək texnologiyalar sferasında İsrail digər ölkələrlə müqayisədə böyük üstünlüyə malikdir. Bundan başqa, İsrailin Hərbi-Sənaye Kompleksi təmir-modernləşdirmə işlərində yaxşı təcrübəyə malikdir. Türkiyə və Rusiya da bu sahədə liderlərdən sayılırlar.

Göstərilənləri nəzərə alaraq, strateji təyinatlı dövlət aktivlərində, o cümlədən "Azərsilah" ASC-də də dəqiq şəkildə işlənmiş biznes plan və innovativ idarəetmə sistemlərinin yaradılması üzrə islahatlar aparılması vacibdir.

Rentabelli məhsullar buraxan hərbi yönümlü zavodlarda mütəmadi şəkildə istehsalat xətləri olmalı, eləcə də yerli və beynəlxalq bazarlarda tələb olunan məhsul çeşidlərinin genişləndirilməsi üçün əlavə istehsal xətləri açılmalıdır.

Hərbi-Sənaye Kompleksinin sözsüz ki, başlıca məqsədlərindən biri ölkənin Silahlı Qüvvələrinin və qanunvericiliklə yaradılan digər silahlı birləşmələrin ehtiyaclarının vaxtaşırı və obyektiv qiymətləndirilməsi, habelə avadanlığa texniki xidmət göstərilməsi üçün onlarla işçi səviyyəsində əlaqəli fəaliyyətdir.

Göstərilənlər baxımından, hərbi-sənaye kompleksi sektorunda islahatların müəyyən faktorları özündə ehtiva etməsi fikrimizcə, daha effektiv nəticə verər. Buraya sistemin auditi, rəqəmsal texnologiyaların tətbiqi və xərclərin optimallaşdırılması kimi məqamlar aiddir.

Beləliklə, yeni yaradılmış "Azərsilah" ASC-nin qarşısında daim axtarış, yeniləşmə və inkişaf kimi mühüm vəzifələr durur. İnanırıq ki, "Azərsilah" bu işlərin öhdəsindən layiqincə gələcək.

**Tamerlan VAHABOV,**
**sahibkar**

İslahatlar yolu ilə

Müasir idarəetmə sistemi sosial sifariş amilinə əsaslanan strateji əhəmiyyətli qərarların qəbulu ilə yanaşı, müəyyən zaman kəsiyində həyata keçirilmiş tədbirlər sistemi ilə bağlı ictimaiyyətin davamlı olaraq məlumatlandırılmasını da zəruri edir. Xalqa xidməti əsas hədəf kimi müəyyənləşdirmiş Azərbaycan Prezidenti cənab İlham Əliyevin idarəçilik konsepsiyasında da bu mütərəqqi prinsip daim önə çəkilir. "Biz xalqın xidmətçisiyik" deyən dövlət başçısı ötən 15 ildə ayrı-ayrı məmurlara etimad meyarını da məhz onların fəaliyyətinə nəzərən müəyyənləşdirərək ictimaiyyətin görülmüş işlər, qarşıda duran məqsədlər və həyata keçiriləcək layihələr barədə məlumatlandırılmasına böyük əhəmiyyət verir.



# İnsan amilinin yüksəlişi regional inkişafda başlıca hədəflərdəndir

Azərbaycan Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunmuş konfrans bunun daha bir əyani təsdiqi olaraq respublikanın sosial-iqtisadi siyasət prioritetlərinin düzgün müəyyənləşdirildiyini və ötən 15 ildə bölgələrin inkişafı məqsədilə həyata keçirilmiş tədbirlərin uğurlu nəticələr verdiyini deməyə ciddi əsaslar verir. Konfransın gedişi bir daha təsdiqləmişdir ki, regionların inkişafındakı pozitiv meyilləri təmin edən respublikamızın əldə etdiyi inanılmaz nəticələr ilk növbədə əsası ümummilli lider Heydər Əliyev tərəfindən uzaqgörənliklə qoyulmuş bünövrəyə, fundamental iqtisadi bazisə söykənir.

Ulu öndərin rəhbərliyi altında hazırlanaraq 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasında milli iqtisadi inkişaf modelinin əsas prioritetləri əksini tapmış, bazar iqtisadiyyatına keçid və bununla əlaqədar insanların etibarlı sosial müdafiəsinin təmin edilməsi dövlətin ali məqsədi kimi təsbit edilmişdir. İlk milli Konstitusiyamız ölkəmizin suverenliyinin möhkəmlənməsində, hüquqi, demokratik dövlət quruculuğu işində mükəmməl sənəd olmaqla bərabər, iqtisadiyyatın inkişafının müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət etməsini əsas hədəf kimi təsbit etmişdir.

Əsas Qanunun 15-ci maddəsində vurğulanır ki, "I. Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafı müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət edir. II. Azərbaycan dövləti bazar münasibətləri əsasında sosialyönümlü iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir".

Dövlətin diqqətində olan sosial siyasətin konturlarını və vəzifələrini özündə əks etdirən 16-cı maddənin 1-ci bəndində deyilir: "Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsinin qayğısına qalır".

Bütün bunlarla yanaşı, Azərbaycan Respublikası Konstitusiyasının 14-cü (Təbii ehtiyatlar), 15-ci (İqtisadi inkişaf və dövlət), 29-cu (Mülkiyyət hüququ), 35-ci (Əmək hüququ), 38-ci (Sosial təminat hüququ), 59-cu (Sahibkarlıq hüququ) və digər bir sıra maddələri ölkəmizdə liberal iqtisadi fəaliyyət və etibarlı sosial müdafiə üçün dövlət səviyyəsində təminatın mövcudluğunu birmənalı təsdiqləyir.

Ulu öndərin əsasını qoyduğu islahatları bütün sahələrdə inamla davam etdirən, iqtisadi inkişaf potensialının hər bir dövlətin gücünü şərtləndirən başlıca amil olduğunu ilk gündən düzgün müəyyənləşdirən dövlət başçısı cənab İlham Əliyev rəhbərlik etdiyi komandanın bütün səylərini məhz bu istiqamətdə səfərbər etmişdir. Ümumilikdə cənab İlham Əliyevin son 15 ildə imzaladığı 50-yə yaxın dövlət proqramı ölkə həyatının ən müxtəlif sahələrində kompleks islahatların əsasını qoymuş, inkişaf prosesində ahəngdarlığı, yüksək dinamizmi təmin etmiş, ölkənin mövcud resursları keçid dövrü üçün səciyyəvi problemlərin aradan qaldırılmasına yönəlmişdir. İnkişaf, sosial təminat və infrastrukturyönümlü bu layihələr ilk növbədə hər bir vətəndaşın layiqli həyat tərzinin təmin olunmasına, insan hüquq və azadlıqlarının təminatına, dövlət idarəçiliyinin çevik və işlək mexanizmlər əsasında həyata keçirilməsinə - bir sözlə, davamlı və sabit inkişafa xidmət etmişdir.

Azərbaycan hökumətinin daha çox diqqət yetirməli olduğu problemləri düzgün müəyyənləşdirən cənab İlham Əliyevin hələ 24 noyabr 2003-cü il tarixli "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" ilk iqtisadi fərmanının əhəmiyyəti bu baxımdan xüsusi vurğulanmalıdır. İqtisadiyyatda mütərəqqi inkişaf meyillərinin daha da sürətləndirilməsi, bu prosesdə yüksək dinamizmin təmin olunması yollarının nəzəri-praktiki və konseptual əsaslarını özündə əks etdirən həmin fərman qarşıya qoyulmuş məqsədlərin reallaşdırılmasından ötrü çoxsaylı dövlət proqramlarının hazırlanmasında, bir növ, baza rolunu oynamışdır. Fərmanda bölgələrin inkişafı məqsədilə bir sıra kompleks tədbirlərin reallaşdırılması da nəzərdə tutulmuşdu.

Şübhəsiz, iqtisadiyyatın sabitliyini qorumaq üçün regional balansın saxlanılması, iri şəhərlərlə rayonlar, kəndlər arasındakı kəskin fərqin azaldılması vacib amillərdəndir. Dövlət başçısı cənab İlham Əliyevin son 15 illik iqtisadi siyasətində regional inkişaf məsələlərinə xüsusi diqqət yetirilməsi, bölgələrin tərəqqisinə yönəlmiş dövlət proqramlarının, fərman və sərəncamların imzalanması məhz bu reallığa əsaslanmışdır. 2004-cü il 11 fevral tarixdə imzalanmış "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" bu baxımdan xüsusi əhəmiyyət daşımışdır. Proqram regional inkişafdakı kəskin fərqin aradan qaldırılması, yerlərdə sosial-infrastruktur layihələrinin həyata keçirilməsi, işsizliyin, yoxsulluğun minimuma endirilməsi, sahibkarlığın inkişafı baxımından vacib, əlahiddə əhəmiyyətli sənəd olmuş, bu təkmil konsepsiyanın icra vəziyyəti ilə bağlı hər il hökumətin xüsusi müşavirələri keçirilmişdir.

Dövlət başçısı cənab İlham Əliyevin 14 aprel 2009-cu il tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" ilk proqramın davamı olaraq ölkədə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsinə, iqtisadiyyatın diversifikasiyasına, tarazlı regional və davamlı sosial-iqtisadi inkişafa, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına yönəlmişdir.

Dövlət proqramlarında özəl sektorun dəstəklənməsi ilə bağlı nəzərdə tutulan kompleks tədbirlər təsdiqləyir ki, zəngin iqtisadi biliklərə, yüksək idarəçilik təfəkkürünə malik olan, dünyada baş verən iqtisadi prosesləri dərindən bilən Azərbaycan Prezidenti cənab İlham Əliyev ölkənin sosial-iqtisadi tərəqqisində sahibkarların rolunu düzgün dəyərləndirir və regionların inkişafında sanballı payı olan bu insanlara hərtərəfli dəstəyini əsirgəmir.

27 sentyabr 2014-cü il tarixli sərəncamla təsdiq olunmuş "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" isə birinci və ikinci proqramla həllini tapmamış problemlərin aradan qaldırılmasına yeni imkanlar açmışdır.

Azərbaycan Prezidenti cənab İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunmuş konfransda bölgələrin inkişafı üçün dördüncü dövlət proqramının da hazırlandığını və yaxın zamanlarda imzalanacağını diqqətə çatdırmışdır. Məsələ bundadır ki, ötən illərdə görülən tədbirlərə rəğmən, əlavə dəyərin formalaşdırılmasında özünü göstərən fərq sayca üçüncü regional dövlət proqramının qəbulunu zəruri etmişdir. Müqayisə üçün bildirək ki, 2016-cı ildə ÜDM istehsalında Bakı şəhərinin payı 77 faiz, regionların payı 23 faiz təşkil etmişdir. Eyni zamanda, hazırda kənd təsərrüfatı ölkə üzrə ÜDM-in cəmi 5-7 faizini istehsal edir. Halbuki əhalinin 47 faizi kənd yerlərində yaşayır və məşğul əhalinin 36,3 faizi kənd təsərrüfatında çalışır. Bu baxımdan kənd təsərrüfatının inkişaf etdirilməsi regional inkişaf proqramlarının əsas hədəflərindən biridir və son 1 ildə bu istiqamətdə əhəmiyyətli irəliləyiş hiss olunmaqdadır.

Görülən tədbirlərin nəticəsi olaraq indi bölgələrdəki rayon və şəhərlərlə paytaxt Bakı şəhərinin inkişafı arasındakı fərq getdikcə azalır. Dövlət proqramları nəticəsində regionların tərəqqisinə 50 milyard manatdan çox vəsaitin yatırılması inkişafdakı tarazlığı təmin etmişdir. Yalnız onu demək kifayətdir ki, 2019-cu ildə Azərbaycanın 34 şəhər və rayonu mərkəzdən dotasiya almadan özünü maliyyələşdirir. Son 15 ildə açılmış 1,9 milyona yaxın iş yerinin 50 faizdən çoxunun məhz regionların payına düşməsi də Azərbaycan Prezidenti cənab İlham Əliyevin "Mən hər bir vətəndaşın Prezidenti olacağam" vədinə sadiqliyinin əyani təcəssümüdür.

Ümumilikdə 2003-2018-ci illərdə respublikamızda ümumi daxili məhsul real həcmdə 3,3 dəfə, sənaye məhsulu istehsalı 2,6 dəfə, kənd təsərrüfatı məhsulları istehsalı 1,7 dəfə, əsas kapitala yönəldilmiş investisiyalar 3 dəfə artmışdır. 2003-cü ildə Azərbaycanın cəmi 1,3 milyard manat təşkil edən dövlət büdcəsi son 15 ildə 15 dəfə artaraq 2018-ci ildə 23 milyard manata çatmış, strateji valyuta ehtiyatlarımız 24 dəfə artaraq 45 milyard dollara yüksəlmişdir.

Dövlət başçısının siyasi iradəsilə həyata keçirilən sistemli islahatlar - imzalanan fərman və sərəncamlar respublikamızın postneft dövrünə uyğunlaşdırılması, sahibkarların hərtərəfli dəstəklənməsi yolu ilə regionlarda qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi məqsədini önə çəkir. Odur ki, son 4 ildə sahibkarlıq fəaliyyəti üçün lisenziya və icazələrin sayının, habelə ödənilən rüsumların məbləğlərinin dəfələrlə azaldılması; icazələrin verilməsi prosedurlarının sadələşdirilməsi, o cümlədən bu sahədə elektron portalın yaradılması; sahibkarların hüquqlarının qorunması məqsədilə apelyasiya şuralarının yaradılması; ölkə ərazisindən tranzit yüklərin daşınmasında "bir pəncərə" prinsipinin tətbiq olunması; ölkədə investisiyaların təşviqinin artırılması məqsədilə 7 il müddətində vergi və gömrük güzəştlərinin verilməsi; idxal-ixrac əməliyyatları zamanı gömrük prosedurlarının sadələşdirilməsi məqsədilə elektron gömrük xidmətlərinin genişləndirilməsi; sahibkarların müraciətlərinin birbaşa cavablandırılmasını həyata keçirən, məlumatlandırma və məsləhət xidmətləri göstərən çağrı mərkəzlərinin yaradılması reallaşdırılmışdır.

Regionların sosial-iqtisadi inkişafının ən ciddi nailiyyətlərindən biri də qeyri-neft sektorunda artımın neft sektoru ilə müqayisədə əhəmiyyətli dərəcədə yüksək olmasıdır. Bu fakt göstərir ki, "Neft bizim üçün məqsəd deyil, iqtisadiyyatı inkişaf etdirmək üçün vasitədir" deyən dövlət başçısı İlham Əliyevin milli iqtisadiyyatın şaxələndirilməsi, neft amilindən asılılığın azaldılması istiqamətində həyata keçirdiyi siyasət artıq real nəticələrini verməyə başlayır. Başqa sözlə, müstəqil respublikamız dünya iqtisadiyyatında neftin qiymətlərinin geosiyasi maraqlar çərçivəsində müəyyənləşdiyi hazırkı mərhələdə enerji resurslarından asılılığı tamamilə minimuma endirmək məramını açıq ifadə edir.

Xüsusi vurğulamaq lazımdır ki, 2018-ci ilin 11 aprel seçkiləri ölkədə siyasi liberallaşma və modernləşmə proseslərini daha da sürətləndirməklə səmərəli, şəffaf və hesabatlığa əsaslanan dövlət idarəçilik sisteminin formalaşmasına yeni imkanlar açmış, hakimiyyət komandasına yeni ruh və müasirlik çalarları gətirmişdir. Cənab İlham Əliyevin səlahiyyətlərinin icrasına başladığı ilk günlərdən həyata keçirdiyi struktur və kadr islahatları - xüsusilə də müasir qlobal çağırışları obyektiv dəyərləndirməyi bacaran, yüksək intellektual səviyyəli, müasir menecer təfəkkürlü gəncləri yüksək dövlət postlarına təyin etməsi sistem islahatlarının yeni mərhələsinə yaxşı imkanlar açmışdır. Hökumət komandasındakı son dəyişikliklər dövlət rəhbərinin gənc, perspektivli və vətənpərvər kadrların irəli çəkilməsi yolu ilə idarəetmə sistemində şəffaflığı, səmərəliliyi, hesabatlığı təmin etmək istəyinin bariz təcəssümüdür.

Hər bir ölkədə hökumətin fəaliyyətinin səmərəlilik əmsalı xalqın sosial rifah səviyyəsi ilə ölçülür. Mübaliğəsiz deyə bilərik ki, tarixin heç bir mərhələsində Azərbaycan insanının sosial durumu indiki kimi yaxşı olmamışdır. Cənab İlham Əliyevin prezidentliyi dövründə Azərbaycanda əhalinin adambaşına düşən gəlirləri 7,2 dəfə, orta aylıq əməkhaqqı 6,8 dəfə, onun real həcmi 2,4 dəfə, banklardakı əmanətləri 30 dəfə artmışdır.

Azərbaycan ötən 15 ildə kifayət qədər iddialı görünən sosial layihələri reallaşdırmaqla sosial rifah dövləti olduğunu isbatlamışdır. Bu baxımdan respublikamızın 95 faizdən çox ərazisinin qazlaşdırılması, 70 faizinin içməli su, 100 faizinin elektrik enerjisi ilə təmin edilməsi, müasir yolların çəkilməsi, eləcə də vətəndaşların sovet dövründən banklarda qalmış əmanətlərinin qaytarılması, əhalinin qaza və suya olan borclarının silinməsi, çadır düşərgələrinin ləğvi, yoxsulluğun, işsizliyin minimuma endirilməsi, hərbçilər, şəhid ailələri, əlillər, eləcə də mənzili olmayan aztəminatlı jurnalistlər üçün sosial evlərin inşası kimi tədbirləri xüsusi qeyd etmək olar.

Son aylarda dövlət başçısı cənab İlham Əliyevin həyata keçirdiyi tədbirlər Azərbaycanın sosialyönümlü dövlət olduğunu bir daha təsdiqləyir. Ərazi bütövlüyümüz uğrunda həlak olmuş qəhrəman insanların ailələrinə 11 min manat məbləğində birdəfəlik ödənişin edilməsi, zəlzələdən ciddi zərər çəkmiş vətəndaşlar üçün yeni evlərin tikintisinin nəzərdə tutulması, minimum əməkhaqqının 40 faizədək artırılaraq 180 manat müəyyən edilməsi bunun əyani göstəricisidir. *Bununla da minimum əməkhaqqının məbləği parlament tərəfindən bir müddət əvvəl təsdiq olunmuş yaşayış minimumu ilə bərabərləşmiş, ehtiyac meyarı göstəricisini isə 26 faiz üstələmişdir. Minimum əməkhaqqının artımı birbaşa olaraq 600 minədək insanı əhatə edəcəkdir - onlardan dövlət sektorunda işləyən 450 min nəfərin əməkhaqqında 30 faiz, özəl sektorda işləyən 150 min nəfərin əməkhaqqında isə 25 faiz artım olacaqdır. Minimum əməkhaqqının artırılması ilə bağlı dövlət büdcəsindən illik 400 milyon manat ayrılacaqdır. Şübhəsiz, bu kimi sosial addımlar ölkənin iqtisadi qüdrəti, eləcə də regionların sosial-iqitsadi inkişafı dövlət proqramlarının uğurları nəticəsində reallaşır.*

Azərbaycan Prezidenti cənab İlham Əliyev "Real" televiziyasına müsahibəsində dövlətin siyasətinin əsasında insan amilinin dayandığını bir daha vurğulamışdır: *"Əlbəttə ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Mən dəfələrlə bu barədə öz fikirlərimi bildirmişəm və bizim atdığımız addımlar dediklərimi sübut edir. Bizim imkanlarımız artdıqca, ilk növbədə bu gün hələ də ağır vəziyyətdə, çətin şəraitdə yaşayan insanların yaşayış səviyyəsini yaxşılaşdırmağa çalışırıq. Son illər bu istiqamətdə çox böyük işlər görülmüşdür. Baxın, köçkünlər üçün 100-dən çox şəhərcik tikilmişdir. Yəni mən bilmirəm, hansı başqa ölkədə buna rast gəlinir. Mən bilirəm ki, bu məsələ ilə məşğul olan beynəlxalq təşkilatlar həmişə Azərbaycanı nümunə kimi göstərirlər. Şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə 6500-dən çox mənzil verilmişdir. Mən eşitməmişəm, hansı ölkədə bu kateqoriyadan olan insanlara bu qədər dəstək göstərilir. Şəhid vərəsələrinə 11 min manat məbləğində birdəfəlik maddi yardım verilmişdir. Bu da dünya praktikasında analoqu olmayan bir yanaşmadır. Yəni bütün bunlar bizim niyyətimizi, siyasətimizi göstərir. Onu göstərir ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır, onun maraqlarıdır, onun rifahıdır".*

Bu gün Azərbaycan dövlətinin uğurlu iqtisadi siyasəti cəmiyyətin fəal sosial zümrəsi olan gənclərin də cəmiyyət həyatında mütəşəkkil qüvvə kimi təşkilatlanmasına, dövlət idarəçiliyində və cəmiyyətdə öz sözünü deməsinə imkan yaradır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin bu günlərdə gənclərlə görüşdə bəyan etidyi kimi, Azərbaycanda gənc nəslin problemlərinin kompleks həlli, onların cəmiyyət həyatında layiqli təbəqə kimi iştirakının təmin olunması, milli adət-ənənələrə, saf dəyərlərə bağlılığı üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir.

Xatırlatmaq yerinə düşər ki, 2016-cı ilin 26 sentyabrında keçirilmiş ümumxalq referendumunun nəticəsi olaraq Konstitusiyaya edilmiş əlavə və dəyişikliklər gənclərin seçkili orqanlarda iştirak imkanlarını genişləndirmiş, respublikamızda genişmiqyaslı islahatların gerçəkləşdirilməsində onların rolunu artırmışdır. Ümumilikdə bu gün dövlətin gənclər siyasəti dövlət idarəçiliyi üçün yeni təfəkkürlü, innovasiyaları dərindən mənimsəyən, tutduğu vəzifəni dövlətə və vətəndaşlara layiqli xidmət vasitəsi kimi dəyərləndirən müasir təfəkkürlü, kreativ ruhlu gəncliyin formalaşdırılmasına xidmət edir.

"ASAN xidmət" modeli çərçivəsində 17 min gəncin könüllülük fəaliyyətinə cəlb edilməsi də bunun əyani göstəricisidir. Azərbaycan Prezidenti cənab İlham Əliyev "Real" televiziyasına müsahibəsində bununla bağlı demişdir: *"ASAN xidmət" mənim təşəbbüsümlə yaradıldı. Ancaq onu da bildirməliyəm ki, orada çalışan gənclər "ASAN xidmət"i çox böyük dərəcədə inkişaf etdirdilər, zənginləşdirdilər, yeni, kreativ ideyaları ilə "ASAN xidmət"i doğrudan da nadir bir ictimai xidmət mərkəzinə çevirdilər. Hər bir yeni mərkəzə gedəndə, - mən 15 mərkəzin açılışının hər birində olmuşam, - görmüşəm ki, edilən təqdimatlarda hansısa bir yenilik var. Yəni bu, onu göstərir ki, orada çalışan insanlar, - onların mütləq əksəriyyəti gənclərdir, - çox böyük həvəslə, böyük sevgi ilə bunu edirlər. Onlarda böyük ruh yüksəkliyi var. Onlar istəyirlər ki, ölkəmizdə işlər daha yaxşı getsin, istəyirlər ki, bu işlərə öz töhfələrini versinlər".*

Azərbaycan Pespublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri professor Əli Həsənov öz növbəsində dövlət başçısının könüllülük fəaliyyəti ilə bağlı çağırışının cəmiyyət üçün mühüm əhəmiyyətə malik olduğunu bildirmişdir. Könüllü fəaliyyətin cəmiyyətdə xeyirxahlıq, yeni davranış qaydaları təbliğ etdiyini vurğulayan Əli Həsənov demişdir ki, bu missiya dövlət və özəl qurumlara öz funksiyalarını daha səmərəli yerinə yetirməyə imkan yaradır: "Müxtəlif qurumlarda könüllü fəaliyyətə cəlb olunmuş gənclər yaxşı təcrübə qazanır və onların əldə etdikləri bilik və bacarıqlar gələcəkdə peşəkar kadr ehtiyatının formalaşmasına öz töhfəsini verə bilər. Əlbəttə, könüllü şəkildə dövlətə, ictimai maraqlara təmənnasız xidmət göstərmək saf niyyətdən doğan çox nəcib bir əməldir və hər cür alqışa layiqdir. Eyni zamanda, könüllü fəaliyyət gənclərə öz potensialını üzə çıxarmağa, ölkədə və xaricdəki həmyaşıdları ilə qarşılıqlı əlaqələr qurmağa imkan yaradır. Bütün bunlar nəzərə alınaraq, hələ 2009-cu ildə Azərbaycanda könüllülük fəaliyyəti sahəsində yaranan münasibətlərin hüquqi tənzimlənməsi məqsədilə "Könüllü fəaliyyət haqqında" qanun qəbul edilib. Hamımız Bakıda keçirilmiş "Avroviziya" müsabiqəsi, I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları və "Formula-1" yarışları zamanı minlərlə yeniyetmə və gəncin həmin beynəlxalq tədbirlərin yüksək səviyyədə təşkilində mühüm rol oynadığını yaxşı xatırlayırıq".

Əlbəttə, dövlətini, xalqını sevən müasir gənclik siyasi reallıqları obyektiv dəyərləndirmək imkanında olmalı, antimilli qüvvələrə qarşı barışmaz mövqe tutmalıdır. Çünki Azərbaycanın son illər Cənubi Qafqazda nüfuz sahibi kimi çıxış etməsi, iqtisadi qüdrətini artırması, müstəqil siyasət yeritməsi müəyyən dövlətləri və onların diktəsi ilə hərəkət edən antiazərbaycançı şəbəkəni, o cümlədən xalqın dəstəyindən məhrum olmuş ifrat radikal müxalifəti ciddi narahat edir. Bu qüvvələr yaxşı başa düşürlər ki, respublikamızın iqtisadi qüdrətinin ildən-ilə artması, sahibkarlığın inkişafı, orta təbəqənin formalaşması, əhalinin rifah halının yaxşılaşdırılması yönümündə hökumət səviyyəsində ardıcıl tədbirlərin həyata keçirilməsi cəmiyyətdə siyasi sabitliyi möhkəmləndirməklə yanaşı, hakimiyyətin nüfuzunu da gücləndirir. Respublikamızın sosial-iqtisadi sahədə qazandığı böyük uğurları özünün ən real olmayan hakimiyyət iddialarına sarsıdıcı zərbə kimi dəyərləndirən aqressiv müxalifət ictimai rəyi çaşdırmağa, real vəziyyəti təhrif etməyə yönəlmiş destruktiv fəaliyyətini yeni amplituda davam etdirməyə cəhd göstərir. Xüsusən də ölkədən xaricdə gizlənmiş ayrı-ayrı nihilist və inkarçı şəxslər sosial şəbəkələrdə özlərinə xas cığal və qeyri-etik çıxışlar edərək Azərbaycandakı pozitiv inkişaf meyillərini təhrif etməyə çalışırlar. İnsanların həyatındakı müsbət irəliləyişləri görməzdən gələrək sivil və intellektual mübarizədən uzaq qaragüruhçu olduqlarını növbəti dəfə təsdiqləyirlər.

Belələrinin tam əksinə olaraq, Azərbaycanın sosial-iqtisadi sahədə son illər böyük uğurlar qazandığını, milli sahibkarlığın sürətlə inkişaf etdiyini obyektivlik hissini itirməyən bütün ölkə vətəndaşları, o cümlədən gənclər açıq etiraf edirlər. Həm də ona görə ki, Azərbaycan Prezidentinin özünəməxsus dinamizmlə reallaşdırdığı siyasət hesabına ölkə həyatında müşahidə olunan davamlı yüksəliş təkcə respublikanın pozitiv inkişafını müəyyənləşdirən fakt və statistik göstəricilərdə deyil, ilk növbədə vətəndaşların gündəlik rifahında, məişətində əksini tapır. Orta statistik azərbaycanlı isə respublikamızın əldə etdiyi uğurlu iqtisadi göstəriciləri gündəlik həyatında getdikcə daha qabarıq hiss edir, gələcəyə böyük ümid və inam bəsləyir. Azərbaycan vətəndaşlarının böyük əksəriyyəti Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədəki mövcud bütün problemlərin həll olunacağına inanır, həyata keçirilən islahatları birmənalı dəstəkləyir.

***İsaxan VƏLİYEV,***
***hüquq elmləri doktoru, professor***

# Gədəbəylilər bundan sonra asanlaşdırılmış xidmətlərdən istifadə edəcəklər



Hər gün rayon icra hakimiyyətlərinə onlarla vətəndaş bu və ya digər sənədlərin alınması üçün müraciət edir. Bununla bağlı bəzi hallarda narazılıqlar da yaranır. Bu narazılıqları aradan qaldırmaq, vətəndaşlara yüksəksəviyyəli xidmət göstərmək üçün respublikamızda ilk dəfə olaraq Gədəbəy Rayon İcra Hakimiyyətində yeni xidmət növünün tətbiqinə başlanılıb, icra hakimiyyətində əhaliyə göstərilən xidmətlərin asanlaşdırılması üçün vahid mərkəz yaradılıb.

Bu münasibətlə rayon icra hakimiyyətində ayrılmış salon hər cür innovatik avadanlıqlarla təchiz edilmişdir ki, bu da vətəndaşların müraciətlərinə baxılmasına, onların qəbul edilməsinə, dinlənilməsinə, hər bir müraciətə həssaslıqla yanaşılmasına, müraciətlərin mahiyyəti üzrə qərarların qəbuluna və vətəndaşlara istədikləri sənədlərin tez bir zamanda verilməsinə imkan yaradır. Rayon icra hakimiyyətini vətəndaşların etimad ünvanına çevirmək və vətəndaş məmnunluğunu yüksəltmək məqsədilə belə bir mərkəzin yaradılması rayon sakinləri tərəfindən də razılıqla qarşılanmışdır.

Mərkəzdə rayon icra hakimiyyəti başçısı aparatında fəaliyyət göstərən hər şöbədən bir nəfər məsul işçi olmaqla, cəmi 7 nəfər daimi xidmət göstərəcəkdir. Mərkəzdə quraşdırılmış böyük monitorda xidmət sahələrinin adları, həmin sahələrə məsul şöbələr, tələb olunan sənədlərin nümunəsi, sənədin icra müddəti, qanunvericilik bazası yerləşdirilmişdir. Mərkəz telefon və kompüter dəsti ilə təchiz olunmuş, internetə çıxış təmin edilmişdir. Xidmət göstərən məsul işçilər quraşdırılmış monitorda vətəndaşlara hər hansı məsələ ilə bağlı izahat vermək, sənəd nümunələrini göstərmək imkanına malikdirlər. Mərkəzdə vətəndaşların problemlərinin operativ həlli üçün "qaynar xətt" də yaradılmışdır.

Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Mustafayev demişdir ki, Prezident İlham Əliyev vətəndaş məmnunluğunun və şəffaflığının təmin edilməsi ilə bağlı bütün dövlət qurumları kimi, yerli icra hakimiyyətləri orqanları qarşısında da mühüm vəzifələr qoymuşdur. Bu tapşırıqlara uyğun olaraq belə bir mərkəzin yaradılmasını məqsədəuyğun hesab etdik. İndi Gədəbəy sakinləri günün bütün vaxtlarında bu mərkəzə müraciət edə bilərlər. 39 sahə üzrə göstərilən xidmətlərin asanlaşdırılması məqsədilə fəaliyyət göstərəcək mərkəz vətəndaşlarda məmnunluq yaradacaq. Burada sənədlərin qəbulu və verilməsi, memarlıq və tikinti, hüquq, sosial-iqtisadi, humanitar, inzibati ərazi dairələri üzrə nümayəndəliklər və bələdiyyələr, yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi məsələləri ilə bağlı yüksək səviyyədə xidmətlər göstəriləcəkdir. Mərkəzdə yaradılan şərait imkan verəcəkdir ki, sənədlərin aşkarlıq şəraitində qəbul edilməsini, vaxt itkisinin, süründürməçiliyin və korrupsiya hallarının aradan qaldırılmasını, həmçinin vətəndaşların eyni vaxtda vahid məkanda rayon icra hakimiyyətinin bütün struktur bölmələri ilə ünsiyyətdə olmasını təmin etsin.

Qeyd etmək lazımdır ki, mərkəzdə fəaliyyət göstərən könüllülərin sağlamlıq məhdudiyyəti olan insanların müraciətləri ilə bağlı onların ünvanlarına gedərək yaxından kömək göstərmələri də nəzərdə tutulmuşdur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***




# XX əsrin faciəsi - Xocalı soyqırımı








## Unudulması mümkün olmayan soyqırımı

Prezident İlham Əliyev tarix boyu erməni millətçiləri tərəfindən Azərbaycan xalqına qarşı qanlı cinayətlər, terror aktları, soyqırımı törədildiyini, yüz minlərlə azərbaycanlının kütləvi surətdə qətlə yetirildiyini, tarixi dədə-baba torpaqlarından deportasiya olunduqlarını dəfələrlə dünya ictimaiyyətinin diqqətinə çatdırmışdır. XX əsrin ən böyük faciəsi olan Xocalı soyqırımının ölkəmizə qarşı ermənilər tərəfindən aparılan çirkin siyasətin davamı, əsl genosid aktı olduğunu söyləmişdir.

Erməni faşizminin xislətinə nümunə olan Xocalı soyqırımı unudulması mümkün olmayan hadisələrdəndir. Bu amansız cinayətə rəvac vermiş ermənilər terroru dövlət siyasətinə çevirdiklərini bir daha təsdiqlədilər. Xocalıda mülki əhalinin planlı şəkildə qətlə yetirilməsini sübuta yetirən çoxsaylı faktlardan biri də budur ki, həmin gün əhalinin fəlakətdən qaçıb qurtarmaq istəyən hissələri ərazinin çıxış yollarında əvvəlcədən xüsusi hazırlanmış pusqularda güllələnmişlər. Erməni silahlı birləşmələrinin niyyəti Xocalı şəhərindəki azərbaycanlıları son nəfərədək qətlə yetirmək olmuşdur. Ermənilər buna şüurlu və məqsədli şəkildə, bilərəkdən əl atmış və misli görünməmiş qətliamlar törətmişlər.

Nürnberq Hərbi Tribunalının nizamnaməsində soyqırımı cinayəti insanlıq əleyhinə olan cinayətlər kateqoriyasına aiddir. BMT Baş Məclisinin 9 dekabr 1948-ci ildə qəbul edilmiş və 1961-ci ildə qüvvəyə minmiş “Genosid cinayətinin qarşısının alınması və təqsirkarların cəzalandırılması haqqında” konvensiyada bu qeyri-humanist aktın hüquqi əsasları təsbit olunmuşdur. “Müharibə zamanı mülki şəxslərin müdafiəsinə dair” IV Cenevrə Konvensiyasının 3-cü maddəsinə əsasən, mülki əhalinin həyatına və təhlükəsizliyinə qəsd, o cümlədən onların hər cür öldürülməsi, şikəst edilməsi, onlarla qəddar davranış, əzab və işgəncə verilməsi, insan ləyaqətinə qəsd, təhqir və alçaldıcı hərəkətlər qadağan edilir. Həmin konvensiyanın 34-cü maddəsinə görə, mülki əhalinin girov götürülməsi də qadağandır. Lakin təkcə Xocalıda 1000-dən artıq insan girov götürülmüşdür.

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclis 1994-cü il fevralın 24-də “Xocalı soyqırımı haqqında” xüsusi qərar qəbul etmiş, hadisənin başvermə səbəbləri və günahkarlar təfsilatı ilə açıqlanmışdır. Eyni zamanda, Xocalı faciəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, erməni qəsbkarlarının beynəlxalq aləmdə ifşası mühüm vəzifə kimi önə çəkilmişdir. Ümummilli liderin “Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında” 25 fevral 1997-ci il tarixli sərəncamı ilə hər il fevral ayının 26-sı saat 17:00-da Azərbaycan Respublikası ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsi ehtiramla yad edilir.

Xocalı soyqırımı barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən ardıcıl tədbirlər də xüsusi vurğulanmalıdır. “Vətəndaşlarımız, soydaşlarımız unutmamalıdırlar ki, erməni millətçilərinin antiazərbaycan təbliğatı getdikcə genişlənir, mənfur formalarda davam etdirilir. Ermənilər ərazi iddialarını əsaslandırmaq üçün yeni-yeni tezislər ortaya qoyurlar. Buna görə də biz belə ideoloji təxribatlara qarşı ayıq olmalı, onları vaxtında ifşa etməliyik” deyən dövlət başçısı Ermənistanın təcavüzü nəticəsində xalqımızın üzləşdiyi faciələrin real faktlarla dünya birliyinə çatdırılmasını Xarici İşlər Nazirliyinin, xaricdəki diplomatik korpusların və diasporun qarşısında mühüm vəzifə kimi müəyyənləşdirmişdir.



Hüquqşünas-ekspertlərin fikrincə, soyqırımı cinayəti beynəlxalq cinayət kateqoriyasına aiddir.

Azərbaycanlılara münasibətdə ermənilərin törətdikləri vəhşiliklər beynəlxalq aləm tərəfindən qəbul olunmuş hüquq prinsiplərinə müvafiq olaraq cinayət kimi tanınmışdır. Xocalı faciəsini İkinci Dünya müharibəsi zamanı törədilmiş Xatın faciəsi, Holokost qırğını, Xirosima və Naqasaki fəlakətləri ilə müqayisə edən bir neçə tanınmış yazarın fikirlərini diqqətinizə çatdırmaq istərdik.

Can iv JUİST, fransız jurnalisti: “Mən qəddarlıq haqqında çox eşitmişəm. Ancaq ermənilər 5-6 yaşlı uşaqları, mülki əhalini öldürməklə onları ötüb keçiblər”.

Leonid KRAVETS, hərbi təyyarəçi, mayor: “Fevralın 26-da mən Stepanakertdən yaralıları çıxarıb Əsgəran darvazasından geri qayıdırdım. Aşağıda gözümə nəsə tünd ləkələr dəydi. Birdən bortmexanik qışqırdı: “Baxın, orada qadınlar, uşaqlar gör nə günə düşüblər”. Gözəyarı saydıq. Yoxuşa səpələnmiş 200-ə yaxın meyitin arasında əlisilahlılar gəzişirdilər. Təcili ora uçduq və meyitləri götürməyə cəhd etdik. Hər yana səpələnmiş qadın, qoca, uşaq meyitləri adamı sarsıdırdı. Yerli milis kapitanı da bizimlə idi. Meyitlərin arasında başı yarılmış 4 yaşlı oğlunu görəndə dəli oldu... Bizi atəşə tutmamışdan imkan tapıb bir neçə meyiti götürə bildik”.

V.BELIX, “İzvestiya” qəzetinin müxbiri: “Vaxtaşırı Ağdama diri girovlarla dəyişdirilmiş azərbaycanlıların meyitləri gətirilirdi. Belə hadisəni yuxuda da görmək mümkün deyil. Deşilmiş gözlər, kəsilmiş başlar, qulaqlar, doğram-doğram olmuş bədənlər, kəndirlə bir-birinə sarınaraq zirehli maşının arxasında sürüklənmiş çılpaq meyitlər... vəhşiliyin həddi-hüdudu yox idi”.

Vladimir SAVELYEV, “N” saylı hərbi hissədə əks-kəşfiyyatın rəisi. Onun “məxfi arayış”ında deyilir: “Azərbaycanlı meyitləri qalaqlanan çalaların ətrafında axşamlar itlərin və çaqqalların səs-küyündən, dartışmalarından qulaq tutulur, adam vahimələnirdi”.

İ.KARABELNİKOV, rus zabiti: “Birinci batalyonun qərargah rəisi, mayor Abram Çitçiyan 13 nəfərlik Babayevlər ailəsini güllədən keçirib. Buna görə ona Fransa erməni diasporu tərəfindən 150 min dollar pul və ən böyük təltif sayılan “Kilsə mükafatı” verilib”.

Xocalı soyqırımı zamanı yol verilmiş bu kimi zorakılıq əməllərinin əvvəlcədən düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi beynəlxalq genosid hesab edilir. İnsanlığa qarşı bu cinayəti törədənlər gec-tez öz layiqli cəzalarını almalıdırlar.

***Rəhman SALMANLI,***
***“Azərbaycan”***

## Xocalıda sönən ocaqlar

Vətənimizin hər guşəsinin əsrarəngiz gözəllikləri daim vəsf edilib. Şairlərin şeirlərində, yazıçıların əsərlərində, bəstəkarların mahnılarında, müğənnilərin muğam və segahlarında, rəssamların bənzərsiz tablolarında müqəddəs bir obraz yaradılıb, adına Ana Vətən deyilib. Bu diyara yadların könlü yox, gözü düşüb. Belə gözəgəlimli, tarixi minilliklərə qədər gedən yurd yerlərindən biri də, təəssüf ki, taleyi əvvəldən gətirməyən Xocalıdır. O Xocalı ki, 27 il öncə erməni vandallarının növbəti təcavüzünün qurbanlarından biri kimi yandırıldı, əhalisi soyqırımına məruz qaldı. Xocalının dillər əzbəri olması onun qədimliyi və ya qaçqın-köçkünlərin sığınacaq yerinə çevrilməsi, yaxud maddi-mədəniyyət nümunələri ilə yanaşı, həm də XX əsrin ən dəhşətli faciəsini yaşaması, sakinlərinin bir gecədə ermənilər tərəfindən işgəncələrə məruz qalmaları, amansızcasına qətlə yetirilmələridir.

### 27 il öncə…

...Bir vaxtlar xocalılıların səsi Qırxqız dağının ətəklərindən gələrdi, əkib-becərər, qayğısız, dərd-sərsiz ömür sürərdilər. Zaman necə dəyişdisə, hər şey alt-üst oldu. İllərdir ki, xocalılıların dərdindən, kədərindən söz açılır, terrorun qurbanlarına çevrilmələrindən danışılır, o qanlı-qadalı günlər xatırlanır. Dağlıq Qarabağda erməni terrorunun ilk qurbanlarından biri olan Miryusif Orucov Meşəlidən idi. 1991-ci il dekabrın 23-də 500 nəfərdən artıq sovet-erməni quldur birləşməsi 300 nəfərlik əhalisi olan Meşəlini mühasirəyə aldı. Onlara köməyə gələn kosalılıların da ciddi müqavimət göstərməsinə baxmayaraq, qaniçənlər kəndi yerlə yeksan etdilər.

### Oğlumu, yoldaşımı, qardaşımı itirdim…

Meşəlinin qorunmasında göstərdikləri şücaətə görə Ağdamdan olan Hidayət Rüstəmov Azərbaycan Respublikasının Milli Qəhrəmanı adına, Əli Mehralıyev və Rafiq Orucov isə “İgidliyə görə” medalına layiq görüldülər. Kosaların Mehman Quliyev, Kamil və Şükür Məmmədovlar, Süleyman Ələsgərov, Elman Abdullayev, Sənani Məhərrəmov, Bakir və Əhliman Quliyevlər, Möhübbət Əliyev kimi igidlərinin də adları çəkilməlidir.

O ağır illərdə Xocalıda, ümumiyyətlə Qarabağda torpaqların müdafiəsində dayananlardan, lakin ermənilərin qəsbkar təcavüzü nəticəsində ailə-uşağını itirənlərdən biri, keçmiş döyüşçü **Abbasqulu Rüstəmov** bu gün də düşməndən qisas almağa



hazırdır! Çox ağır bir həyat keçirib. Düşmənin çirkin siyasəti dinc həyatını, əmin-amanlığını, yaşayışını əlindən aldığını deyir: “Torpağımı, ailə-uşağımı məhv edən düşməni unuda bilərəmmi?! Onlarla üzbəüz döyüşmüşəm! Ağır zərbə aldığım üçün illərdir ki, xəstəyəm. Oğlum Natiqlə həyat yoldaşım Dilarəni itirəndən sonra sanki başıma hava gəlib, yuxum ərşə çəkilib...”

Abbasqulu kişinin itirdikləri yalnız bunlar deyil. Qardaşı ilə qayını da düşmən tərəfindən amansızcasına qətlə yetiriliblər. Özü demişkən, saymaqla qurtarmayan itkilərə məruz qalıb. Vaxtilə sovet ordusunun zabiti olmuş, Sankt-Peterburqda və Murmanskda hərbi məktəbdə oxumuş Abbasqulu Rüstəmov Xocalının, ümumiyyətlə digər rayonların müdafiəsində, həmçinin Ağdərənin boşaldılmasında iştirak edib. Döyüş dostlarının çoxu şəhid olub.

Dərdli-naləli xocalılılar ötən 27 ildə daim yad ediliblər. Növbəti dəfə yolumuz xocalılıların daha sıx məskunlaşdığı, Abşeron rayonunun Mehdiabad qəsəbəsindəki “Gənclik şəhərciyi”nədir. Paytaxtın müxtəlif yerlərindəki ictimai binalarda, yataqxana və bağçalarda yerləşən xocalılılar dörd ildir bu qəsəbəyə köçürülüblər. Hər cür kommunal şəraitə malik yaşayış binalarından ibarət qəsəbədə bütün infrastruktur yaradılıb.

### Bir ailənin 6 şəhidi…

2011-ci ildən “Gənclik şəhəri”ndə məskunlaşan **Validə Nəsibova** o dəhşətli gecədə nəsil-nəcabəti



ilə birlikdə ata yurdu Xocalını itirib. Aradan illər keçsə də, o gecənin ağrıları azalmayıb. Bunu vaxtsız ağaran saçlarından, üzünün qırışlarından, belinin bükülməsindən hiss etmək çətin deyil, üstəlik, ürək ağrısı, əsəb, qan təzyiqi kimi əbədi xəstəliklər də tapıb.

Bütövlükdə ata ocağı söndürülən Validə Astan qızı Nəsibova o gecə Tofiq, Eldar və Telman adlı üç qardaşını, onların da hərəsinin bir balasını itirib. Sadəcə itirməyib, Xocalının oduna qalanıb, yanıb kül olublar, ya da gülləbarana tuş gəliblər, - bilinmir. Verdiyi itkilər yalnız bununla bitmir. Bacısının yoldaşı Vaqif Məmmədov da Xocalı ilə eyni gecədə düşmən gülləsindən yayına bilməyib. Atası Astan Bəhram oğlu Zeynalov belə itkilərə dözə bilməzdi. Ona görə də Xocalıdan iki addım bu yana atan kimi yurd nisgilli gözlərini əbədi yumub: “O dəhşətli gecədən danışa bilmirəm. Elə bil ki, gözlərimə duman çökür, yaddaşımda qalanlar isə qan rəngindədir. O gecə Xocalıdan çıxıb Ağdama tərəf qaçmaq istəyəndə ermənilər bizi güllələbaran etdilər. Balaca oğlum Fazil yaralandı, Tofiq Hüseynovun qızını da yanımızda vurdular”, - deyə V.Nəsibova bildirir.

Validə Nəsibova tar-mar edilmiş, külü göylərə sovrulmuş ata yurdundan, ana laylasından əli üzülmüşlərin dərdini dilə gətirə bilmədi. Lakin qəmli çöhrəsinə çökmüş qüssə-kədərdən hər şey oxunurdu. Deyir ki, Zərifə, Tahir, Məhəmmədlə Çiçək də bizimlə birlikdə qaçırdılar. Amma qaça bilmədilər: “Amansız yağı kəsdi yolumuzu, bizi qırıb-çatdılar. Oradan salamat çıxmaq möcüzəydi. Kətikdağ o gecə donub qalmışdı, ermənilərin xocalılılara tutduqları amansızlığın şahidinə çevrilmişdi”.

...Xocalının Daşbulaq kəndində dünyaya gəlmiş **Gözəl Hüseynova**nın dərdi də, digər həmdərdliləri kimi, öncə gözləri qarşısında itirdiyi doğmaları və yandırılan ata ocağıdır. Altı nəfərlik ailədən salamat qalan qardaşı Vidadi ilə itirdiklərinin həsrətini çəkməkdə, yollarını hələ də gözləməkdədirlər. O zülmət gecədən salamat qurtarıb, 2011-ci ilədək Bayıl qəsəbəsindəki gəmiqayırma zavodunun fəhlə yataqxanasında məskunlaşıblar. Qardaş-bacıdan savayı həmin ailədən salamat çıxan olmayıb: Əziz, Tacir, atası Hüseyn, bacıları Maral, Süsən, Ema Xocalı ilə birlikdə erməni vandalizminin qurbanlarına çevriliblər. Anası dünyasını çox erkən dəyişdiyindən böyük bacısı Xoşbəxt ailə qurmayıb: ömür-gününü qardaş-bacılarına həsr edib. Bütün bunlar Gözəl Hüseynovanın Xocalıdan sonra yaddaşında saxladığı ağrı-acılı xatirələrinin bir qismidir ki, nə yazılası, nə də oxunasıdır...



### Qoşa oğul dağı çəkilən ana

Xocalıda, ümumiyyətlə külli-Qarabağda itirilən hər nə varsa müqəddəsdir, əvəzsizdir. Amma onların ən ağrılısı qoşa oğulları vətənə, torpağa qurban versə də, yurdundan, isti ocağından perik düşən anaların səssiz naləsidir. **Almaz Səlimova** əmisinin həyat yoldaşının, qayınanasının çəkdiyi bayatıağıları xatırladı, qəhər onu boğdu: “Cəhənnəm əzabı yaşadı qoşa oğul itirən ana, qayınanam, əmimin yoldaşı. Balalarının birini “balalı balam”, o birisini “balasız balam”, “toy xınası yaxılmayanım” deyə haray çəkirdi. Onu heç nə ilə ovundura bilmirdilər. Dözə bilmədi bu itkilərə, onu da itirdik. Deyirdi ki, kaş oğlanlarımdan biri qalıb nəsil-kökü yaşadaydı. Mən isə tamamilə özgə cür fikirləşirəm: kaş mənim də bir övlad-uşağım olaydı. O da döyüşüb şəhid gedəydi, atası kimi. Belə olsaydı, mən də təsəlli tapar, torpaq uğrunda bala verən analardan sayılardım...”



Dərdləri dağ boyda olsa da, Almaz Səlimova əmindir ki, Qarabağımızı qaytarmağa qadirik. Dövlət başçısının dəfələrlə bildirdiyi kimi, düşmən o torpaqlardan çıxarılacaq!

Bütün bu nisgillərlə yanaşı, yurd itkisi ilə yaşayanların qəlbinin dərinliklərində söndürülmüş ocaqların odu, alovu, intizar dolu baxışlarının dərinliklərində közərən ümidləri də var. Digər məcburi köçkünlər kimi, onlar da dövlətin göstərdiyi qayğını yüksək dəyərləndirirlər. Düşünürlər ki, Azərbaycan iqtisadi inkişafda, Ermənistan isə bütün sahələrdə sürətlə tənəzzülə uğramaqdadır. Buna görə də Azərbaycanın Ermənistan üzərində qələbəsi şəksizdir!

Bu da dərdli-nalәli xocalılıların dilinin əzbərinə çevrilmiş yurd ağrıları. Yaddaşımızı daim kötəkləyir, ayıq-sayıq olmağa səsləyir.

***Məhəmməd NƏRİMANOĞLU,***
***“Azərbaycan”***

## Faciədən bəhs edən yeni əsər

Dünya tarixinin ən qanlı faciələrindən biri olan Xocalı soyqırımı XX əsrdə erməni şovinizminin mahiyyətini aşkara çıxaran tarixi gerçəklikdir. Azərbaycan xalqı və dövləti bu faciəni heç vaxt unutmayacaqdır. Bu faciədən keçən 27 il ərzində oçerklər yazılmış, filmlər çəkilmiş, faciənin dünya xalqlarına çatdırılması üçün mühüm addımlar atılmışdır.





Xüsusilə “Xocalıya ədalət!” kampaniyası çərçivəsində gerçəkləşdirilən tədbirlərin nəticəsi olaraq bir sıra ölkələrdə bu soyqırımı ilə bağlı müvafiq qərarlar qəbul edilmişdir.

Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının kollektivi yazıçı-dramaturq Sabir Şahtaxtının Xocalı faciəsi ilə bağlı qələmə aldığı “Ölüm həsrəti” əsərini Bakıdan sonra Gəncədə tamaşaya qoyub.

Əsərdə faciənin dəhşətlərini tamaşaçıya çatdırmaq üçün həm maraqlı səhnə tərtibatı, həm də fərqli süjet xətti vardır. Tamaşa başlayan andan hər bir izləyici özünü həmin hadisələrin içində hiss edir. Səhnədə baş verənləri təkcə aktyorlar yaşamır, sanki hər bir tamaşaçı o hissə köklənir. Bunu da həm müəllifin, həm də rejissorun uğuru kimi qiymətləndirmək olar.

“Ölüm həsrəti” tamaşasının bədii rəhbəri əməkdar artist Sərvər Əliyev, quruluşçu rejissoru Nicat Mirzəzadə, quruluşçu rəssamı Vahid Mürsəliyev, musiqi tərtibatçısı Çingiz Xəlilovdur. Rollarda əməkdar artistlər Rəşid Rzayev, Tünzalə Əliyeva, Xatirə Süleymanova və başqaları çıxış edirlər.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***




Folklor nəğmələri

# Mövsüm mərasimlərinin izi ilə

**Türk mifoloji ənənəsində ilin müəyyən fəsillərində təbiət hadisələrinə təsir etmək, sanki təbiəti ram etmək məqsədilə ayrı-ayrı ayin-rituallarla müşayiət olunan mərasimlər meydana gəlmişdir. Onlar da mövsüm mərasimləri adı altında tədqiqatlara cəlb olunmuşdur. Əcdadlarımız dörd fəslin hər birinin magik funksiyasını, təbiətdəki rolunu belə xarakterizə etmişlər:**



Üçü bizə yağıdı,
Üçü cənnət bağıdı,
Üçü yığıb gətirdi,
Üçü vurub dağıtdı.

Erkən dövrlərdən ilin fəsillərinin hər birinə uyğun olaraq mövsümlərlə bağlı silsilə mərasimlər sistemi yaranmışdır. Belə mərasimlər arasında aramsız yağan yağışlar zamanı onun kəsilməsi məqsədilə "Hodu-hodu", yaxud "Qodu-qodu" mərasimi keçirilərdi. Mərasimi cavanlar, yeniyetmələr icra edər, kəndbəkənd gəzib oxuyardılar:

Hodu-hodunu gördünmü?
Hoduya salam verdinmi?
Hodu burdan ötəndə
Qırmızı günü gördünmü?

Hoduya qaymaq gərək,
Qablara yaymaq gərək.
Hodu gün çıxarmasa,
Gözlərin oymaq gərək

Mənbələrə görə, "Qodu" mərasimi ritual qaynaqlara malikdir, çünki mərasimin əsas obrazı mifik görüşlərlə sıx bağlıdır. Qodunun mifikliyi həm onun xarici görünüşü, geyimi, həm də "ölüb-dirilmə"si ilə səciyyələnir. Mifoloji qaynaqlarda Qodu başında dəri və ya keçədən hazırlanmış şiş papaqlı, qoyun dərisindən kürk geyinmiş bir obraz kimi təsvir olunur. Tədqiqatçılar Qodunun "ölüb-dirilmə" funksiyasına əsasən mifoloji varlıq olduğunu və onun türk tanrıçılıq görüşlərindən xəbər verdiyini də təsdiqləyirlər. Həmçinin həmin mərasim fasiləsiz yağışlar yağan zaman günəşi çağırmaq, günəşi arzulamaq, bir sözlə, günəşlə bağlı keçirilmiş qədim bir mərasimdir. Bu mərasimi Novruzdan tamamilə ayrı götürmək də düzgün olmaz, çünki Novruz çərşənbələrinin birində, xüsusən Od çərşənbəsində "günəşi çağırmaq" mərasimi keçirilmişdir. Folklorşünaslıqda Qodu ilə bağlı müxtəlif fikirlər irəli sürülmüşdür. Yusif Vəzir Çəmənzəminli vaxtilə Qodunu günəşin timsalı kimi qəbul etdiyini bildirmişdir. Başqa bir mənbəyə görə, Qodu Xuda sözü ilə əlaqələndirilir və günəş tanrısının adı kimi təqdim edilir.

Əcdadlarımız erkən dövrlərdən başlayaraq günəşi müqəddəs saymış, ona sitayiş etmiş və nəğmələr qoşmuşlar:

Günəş, çıx, çıx, çıx!
Kəhər atı min çıx!
Oğlun qayadan uçdu,
Qızın təndirə düşdü.
Keçəl qızı evdə qoy,
Saçlı qızı götür çıx.
Gün getdi su içməyə,
Qırmızı don biçməyə.
Gün çıxıbdı, yetirəcək,
Keçəl qızı ötürəcək,
Saçlı qızı götürəcək.

Azərbaycan ərazisində keçirilən silsilə mərasimlər arasında quraqlıq zamanı "yağış yağdırmaq" mərasimi də arxaik detallarla zəngindir. Mənbələr göstərir ki, bu mərasimi keçirərkən yağışın yağmasını göstərən süni ünsürlərdən istifadə edilmiş və müvafiq nəğmələr oxunmuşdur.

Ümumilikdə qədim insanın şifahi yaradıcılığında əmək nəğmələrindən sonra mühüm yeri gündəlik məişətlə təbiəti dərketmə, ayin, etiqad və mərasimlərlə bağlı nəğmələr tutmuşdur. Yuxarıda qeyd etdiyimiz kimi, təbiət hadisələri üzərində hökmranlıq idealı ilə yaşayan insanda onları qavramaq, başa düşmək, özünə tabe etmək duyğuları yaranmışdır. Bu duyğular isə insanın inanc və etiqadlarını, ayin və mərasimlərini yaratmış, həmin düşüncə şifahi yaradıcılıqda öz əksini tapmışdır. Mövsümlərlə bağlı nəğmələri xalqın məişət həyatından kənarda təsəvvür etmək olmaz. Çünki bu nəğmələr xalqın gündəlik həyatı ilə bağlı olmuş, onun tələbindən doğmuşdur. Bu isə ümumilikdə təbiətin sirlərinə bələd olmaq, onu dərk etmək, gözəlliklərin estetik dəyərlərinə yiyələnmək, insanın ağır məişət həyatını yüngülləşdirmək arzusu ilə bağlı olmuşdur. Mövsüm nəğmələrində ulu əcdadlarımızın bir sıra erkən görüşləri, animistik və antropomorfik baxışları, sivil mədəniyyətə doğru inkişafın müxtəlif mərhələ və dövrlərdəki görüşləri, ziddiyyətləri və təzadları öz əksini tapmışdır. Mərasimlərlə paralel yaranan nəğmələr arxaik poetik düşüncənin təzahürüdür.

Ulu əcdadlarımız yeli, küləyi antropomorf hesab etmiş, onun mifik obrazlarını yaratmışlar. İnsan estetik düşüncədə nəinki onun qarşısını ala bilmiş, eyni zamanda özünə tabe etmişdir. Yellə, küləklə əlaqədar aşağıdakı nəğmədə küləyi çağırış əsas motiv kimi diqqəti cəlb edir:

A yel baba, yel baba,
Qurban sənə, gəl, baba,
Taxılımız yerdə qaldı,
Yaxamız əldə qaldı.
A yel baba, yel baba,
Qurban sənə, gəl, baba.

Mövsüm nəğmələri içərisində yağışın yağmasının qarşısını almaq, dumanın çəkilməsinə nail olmaq məqsədilə söylənən nəğmələr mifik düşüncəyə əsaslanır.

Türk tayfaları hələ qədimdən əsasən ilin iki mövsümü - yazın gəlişi, yeni əmək mövsümünün başlanması və məhsulun yığılıb başa çatması ilə bağlı mərasimlər, bayramlar keçirərdilər. Mövsümə yekun vurular, məhsulun toplanmasının başa çatması bayram edilərdi. Bu, belə bir etiqada söykənərdi ki, hər il məhsul yığımının sonu bayram şəklində qeyd edilərsə, gələn ilin məhsulu bol olar. Bu isə bütün bayramlar üçün ənənəvi olan inamlarla imkansızlara kömək etmək, məhsuldan pay vermək, bayram günü süfrə açıb paylaşmaqla bərəkətə tapınma görüşləri ilə əlaqədar idi.

"Xırman nəğmələri" adı ilə milli yaddaşda yaşayan nəğmələr də bu günə qədər xalq arasında yaşamaqdadır:

Atdım arpanı torpağa,
Qatdım yarmanı torpağa.
Qara eldən boylan gəl,
Qar altından hoylan gəl.
Telli sünbülün gəzər,
Yelli xırmanın bəzər.
Yaman günün yamanı,
Bərəkətin amanı...

İnsanların birgə əməyini yekunlaşdıran mərasimlər içərisində "Çəltik mərasimləri", "Üzümçü mərasimləri", "Alma yığımı" ilə bağlı mərasimlər və s. geniş yayılmışdır.

Erkən düşüncədə yeni əmək mövsümünün başlanması ilə də bağlı mərasim və nəğmələr geniş yayılmışdır. Əslində, onlar ilin son qış aylarından başlayıb Novruzaqədərki dövrü əhatə edirdi. Bu baxımdan "şum mərasimi", "saya mərasimi" və onları bəzəyən nəğmələr diqqəti daha çox cəlb edir. Xalq arasında Novruzaqədərki nəğmələr kimi tanınan həmin nəğmələr də üç yerə ayrılardı: "Çillə nəğmələri", "İlaxır çərşənbə nəğmələri" və "Bayram məişəti nəğmələri".

Azərbaycan şifahi xalq yaradıcılığında mərasim poeziyasının yaranmasına əmək nəğmələrinin də böyük təsiri olub. Əmək nəğmələrinin daha geniş yayılmış örnəkləri əkinçiliklə bağlı cütçü nəğmələridir. Mənbələrə görə, "bu, Azərbaycan xalqının ilkin çağlarda daha çox hansı təsərrüfatla məşğul olduğunu müəyyənləşdirməyə də kömək edir". El arasında cütçü nəğmələrinə holavar deyilir. Holavarı yalnız iş prosesi zamanı oxuyurlar. Holavarların məzmunu əməklə, cütə qoşulmuş heyvanların hərəkətləri ilə bağlı olur. Holavar əvvəlcə bir-iki hecalı misralardan ibarət olmuş və ahəngə, səsə uyğunlaşdırılmışdır. Zaman keçdikcə, ibtidai təfəkkürün inkişafı, söz sənətinin yeni formalarının yaranması ilə bağlı qədim holavarlar da bayatıların sırasına daxil olmuş və öz ilkin şəklini qoruyub saxlaya bilməmişdir.

Azərbaycan ədəbiyyatşünaslığında "sayaçı sözləri"nin, xüsusən də "saya" ifadəsinin etimoloji izahına müxtəlif münasibət bildirilmişdir. Bu söz araşdırıcılar tərəfindən ayrı-ayrı mənalarda, o cümlədən, "kölgə" "nəğmə", "say-rəqəm", "bolluq-bərəkət", "tanrı", peyğəmbər, işıq, yolgöstərən, tamaşaçı, ovçu, çoban və s. kimi izah edilmişdir.

M.Arif yazır: "Hər il təxminən yaza əlli gün qalmış, qoyunlar quzulamağa başladığı zaman çoban paltarı geymiş adamlar kəndbəkənd gəzib "sayaçı" mərasimi icra edirdilər". Sayaçı sözlərilə bağlı Y.V.Çəmənzəminli hələ 1921-ci ildə "Azərbaycan ədəbiyyatına bir nəzər" adlı kitabında geniş məlumat vermişdir.

Göründüyü kimi, türk mifik ənənəsində ulu qaynaqlardan gələn mövsüm mərasimləri və onlarla paralel şəkildə yaranmış folklor nəğmə mətnləri şifahi yaddaşda mühafizə edilmiş, cilalanıb mükəmməl şəkildə bizə gəlib çatmışdır.

*Ülkər NƏBİYEVA,*
*Bakı Dövlət Universitetinin professoru,*
*filologiya üzrə elmlər doktoru*

### Atalar sözləri

- Yaz dumanı bar gətirər, qış dumanı qar
- Yaz əkinçi, qış dilənçi
- Yazda yazdın yazımı, qışda çəkdim nazını
- Yazda ayransız olma, qışda yorğansız
- Yaz günündə tərləməyən qış günündə titrəyər
- Yazda torpağı əkər, qışda ləzzətin çəkər
- Yazda əkdi yaşıllı, qışda yedi xaşılı
- Yazda əkər bəhəri, qışda çəkməz qəhəri
- Yazda hərəkət, qışda bərəkət
- Yaz yuxudan oyandı, aləm yaşıla boyandı
- Yazda işlər, dincələr, qışda yatar, dincələr
- Yazda işlər, qışda dişlər
- Yaz gətirər, qış aparar

Təqvimlər



**Vaxtın hesablanmasında daha çox müxtəliflik ilin başlanğıcını nə vaxtdan müəyyənləşdirməkdən ibarət olmuşdur. Əksər ölkələrdə, o cümlədən Azərbaycanda il yazdan hesablanmışdır. Qədim misirlilər ilin başlanmasını Nilin daşmasından götürürdülər. Bəzi ölkələrdə isə ilin başlanğıcı kimi yeni hökmdarın hakimiyyətə keçməsi, bəzilərində güclü küləklərin başlanması (Şumerdə), paytaxt şəhərinin əsasının qoyulması (Romada), olimpiya oyunlarının keçirilməsi (Yunanıstanda) qəbul edilmişdi.**

# Vaxt və zaman ölçüsü

## Qəməri təqvimi

Ayın Yer ətrafında hərəkətinə əsasən tərtib olunmuş qəməri təqvimində başlıca rolu Ayın səfhələri (üz, səth) oynayır. Səfhə isə Ayın Günəş və Yerə görə qarşılıqlı vəziyyətindən asılıdır. Ayın əsas səhfələri bunlardır: təzə Ay - birinci rüb, bədirlənmiş Ay - sonuncu rüb.

Ay təqvimi miladdan əvvəl üçüncü minillikdə Babilistanda yaranmışdır. Ayın iki eyni səthi arasındakı müddət 29,5 gün müəyyənləşdirilmişdir. Həmin müddət vaxt vahidi kimi bir ay sayılmış, rahatlıq üçün kəsir atılaraq aylardan biri 29, o biri 30 gün qəbul olunmuşdur. Ay 3 ongünlüyə, yaxud 4 həftəyə bölünür. İl isə 12 aydan ibarət götürülür. Həmin təqvimdən miladdan əvvəl VII əsrdə assuriyalılar, sonra isə yəhudilər istifadə etmişlər. Daha sonra bu təqvim Şərq ölkələrində geniş yayılmışdır. Hazırda 20-dən çox müsəlman ölkəsi ay təqvimindən istifadə edir.

Qədim tarixi qaynaqlardan məlum olur ki, Azərbaycan ərazisində yaşayan əski tayfalar da vaxtı Ayın hərəkəti ilə hesablayaraq, Ay - qəməri təqvimindən istifadə etmiş, Aya güclü inam bəsləmişlər. Ay məbədinin baş kahini hökmdardan sonra ölkənin ikinci adamı sayılmışdır. Sonralar azərbaycanlılar əlverişli təqvim olan Günəş -şəmsi təqviminə keçmişlər.

## Ay-Günəş təqvimi

Bu təqvimin əsas vahidi Ay və ildir. Ay-Günəş təqvimi Ayın hərəkəti əsasında təsis edilmiş təqvimin şəmsiləşdirilmiş variantıdır. Məlum olduğu kimi, qəməri təqvim ayı 29,5 gün, qəməri il isə 354 gündür. Bu, şəmsi təqvim ilindən 11 gün azdır. Üç il ərzində qəməri il şəmsi ildən 33 gün geri qalır. Burada Günəşin hərəkəti Ay səthlərinin növbələşdirilməsi ilə uzlaşdırılır.

Günəş təqvimi ilə ilin başlanğıcı həmişə eyni vaxta, yəni yaz fəslinin - Novruzun başlanmasına düşür. Ay təqvimində isə başqa fəslə düşə bilər. Vaxtı Ay səfhələrinə və fəslin real dəyişməsinə görə hesablayarkən yaranan kəsiri ləğv etmək üçün Ay təqvimində əlavə ay qəbul edilir. Bu düzəlişdən sonra alınan təqvim Ay-Günəş təqvimi adlanır. Ay-Günəş təqvimi hazırda yalnız yəhudi dinində istifadə olunur.

## "Avesta" təqvimi

Azərbaycanda işlədilmiş ilk təqvimlərdən biridir. Bu təqvimdə söhbət iki fəsildən gedir. Onlardan biri - "böyük yay" adlanan birinci fəsil 7 aydan, digəri - "qış fəsli" adlanan 5 aydan ibarət idi. Qədim "Avesta" təqviminə, yəni atəşpərəstlərin inamlarına görə, il "böyük yay" fəslinin ilk günündən başlanır.

İnanclar



# Çillə suyu

**Qış fəslinin Böyük çillə adlanan 40 günündə əkinçilər bağ-bağatı, bostan-tərəvəz yerlərini, üzümlükləri suvarırlar.**

El arasında "çillə suyu" adlanan bu suvarma torpağın nəmliyinin saxlanmasına kömək edir, ziyanvericiləri qırır, torpağın şoranlaşmasının, habelə ağacların vaxtından əvvəl çiçəklənməsinin qarşısını alır. İlin bu çağında bağlara verilən su gecələr donur və bu donma ağaclara da təsir edir. Ağaclar qış yuxusundan gec oyanır. Bu da onların barının, bəhərinin çox olmasına təsir göstərir.

Böyük təbiətşünas alim Həsən bəy Zərdabi "çillə suyu"nun elmi əhəmiyyəti barədə yazırdı ki, bizim tarlalarımıza qış zamanı verilən su donur və sürülmüş şum yerlərini daim yumşaldır, əkin yerlərini hamarlayır. O, "çillə suyu"nu imkan daxilində Böyük çillə dövründə verməyi məsləhət bilmişdir. Bununla bağlı H.Zərdabi xalqın təcrübədə sınaqdan çıxmış belə bir zərb-məsəlini gətirir: "Böyük çillədə suvaran çox, Kiçik çillədə suvaran az məhsul götürər".

Baharın ilk elçisi

# Bənövşəni hamı sevir

**Baharın ilk müjdəçisi olan bənövşəni incə ətrinə, gözəl görünüşünə görə hamı sevir. Deyirlər ki, cənnətdən qovulandan sonra Yerə sürgün edilən Adəm peyğəmbərə Seylon adasında cənab Cəbrayıl əfv olunması barədə xəbəri yetirərkən o, sevindiyindən ağlamış, göz yaşları bənövşəyə dönmüşdür.**



Yunanlar bu çiçəklə bahar bayramı zamanı üç yaşa çatmış uşaqlarını və özlərini bəzəyirdilər. Orta əsrlər Almaniyasında ilk bənövşənin tapılması ilə bahar bayramının keçirilməsi bir günə təsadüf edirdi. Bu gülü tapan şəxsi yaşıl çəməndə bir ağaca bağlar, böyük-kiçik - bütün adamlar onun başına fırlanıb rəqs edər, mahnı oxuyardılar. Cansıxıcı qışdan çıxdıqları üçün deyib-gülüb əylənərdilər.

Qallarda bənövşə bəkarətin rəmzi idi, toy vaxtı gəlin otağı bu güllə bəzənərdi.

Bənövşə xalqımızın ən sevimli çiçəklərindəndir. Novruzgülü, nərgiz kimi, bənövşə də baharın nəfəsini öz ətri ilə hamıya çatdırır. Bahar bayramının gəlişindən xəbər verir. Gülün özünəməxsus görünüşü, zərif ətri, rəngi onun haqqında çoxsaylı şeirlərin yaranmasına səbəb olmuşdur.

Xurşudbanu Natəvan albomuna çəkdiyi şəkillə yanaşı, "Bənövşə" rədifli qəzəl də yazmışdır. Şeirin həzin ahəngi, həsrət dolu ruhu bu zərif şairənin böyük ürəyindən xəbər verir.

Bənövşə boynubükük halda çəmənlikdən uzaq daşların arasında bitir. Rəmzi olaraq bənövşə gülü incidilmiş, əzablara qatlaşan məzlum obrazı kimi də təqdim olunur. Bənövşənin tünd rəngdə olması, başıaşağı qalması bəzən məğlub qoşunun bayrağına bənzədilmişdir

Şərq təbabətində bənövşənin toxumlarından, gövdəsindən, kökündən, yarpaq və çiçəklərindən müxtəlif məlhəmlər, şərab və şərbətlər hazırlanırdı.

Gözəliyi və faydalı olması ilə yanaşı, bənövşə həm də baharın gəlişini müjdələyən güldür.

Adətlərimiz

# Günəşin rəmzi - çillə qarpızı!

**Çox qədim zamanlarda qışın başlanması münasibətilə el-obada ilin ən uzun gecəsində keçirilən mərasimə "Şəbi-yelda" və ya "çillə gecəsi" də deyilir.**



Bu mərasim çox vaxt Çillə bayramı da adlanır. Bayramda tonqallar yandırılır, ailə üzvləri onların ətrafına toplaşıb şadlıq edir, üstündən tullanırlar. Hər yerdə atəşfəşanlıq başlanır, maraqlı oyunlar, tamaşalar ifa edilir, çalıb oxuyur, oynayırlar.

Çillənin girdiyi gün şərəfinə açılmış süfrəyə müxtəlif yeməklər düzülür. Hamı süfrə başına yığışır. Böyük çillənin soyuğundan qorxmadıqlarını bildirmək üçün ortalığa yaydan saxlanılan qarpız gətirilir. Yaşıllıq, bolluq rəmzi olan qarpız çillə gecəsinin ən dəyərli payı hesab olunur.

Çillə qarpızı evin ağsaqqalı tərəfindən kəsilib dilimlənir, bütün ailə üzvlərinə paylanıb ləzzətlə yeyilir. Belə bir inam mövcuddur ki, çillə qarpızı yeyən adam az xəstələnər. Buna görə də xəstələrə çillə qarpızı ən böyük töhfə hesab edilir. Ondan nişanlı qızlara pay aparılır. Bu, el deyimlərində də öz əksini tapıb.

Bu qarpız çillə qarpız,
Düşübdü dilə qarpız.
Yığılıb xurcunlara,
Gedir yargilə qarpız.

Əlimi bıçaq kəsdi, oy,
Dəstə bıçaq kəsdi, oy,
Yarım çillə qarpızın
Yastı bıçaq kəsdi, oy.

Gəlişi doğru olsa da...



# Müjdəverən çərşənbə

**Boz ayın dörd çərşənbəsindən birincisinin el-oba arasında işlədilən adlarından biri də gəlişi doğru müjdə verən çərşənbədir. Bu çərşənbənin gəlişi ilə adamlar təbiətdə müəyyən dəyişikliklərin olmasını hələ hiss etmədiklərindən onu belə adlandırmışlar.**

İnanca görə, bu çərşənbə insanlara qarışıq dünyadan nizamlı dünyaya çıxmağın yaxınlaşdığı xəbərini verir. Çünki bu, həm də elə bir zaman aralığıdır ki, artıq sərt qış fəslinin təbiətə qədəm basmasından təxminən qırx gün ötür. Xalq düşüncəsinə görə, Kiçik çillənin ortasında, yəni Novruzun ilk müjdəçisi Xıdır Nəbinin gəlişi ilə təbiət tədricən oyanmağa başlayır. İnsanlar yalançı çərşənbə (el arasında belə də deyirlər) ayinlərini icra edirlər. Bu çərşənbənin gəlişi nisbətən sakit qeyd edilir, çoxsaylı ayinlər icra olunmur, evlərdə xüsusi süfrə açılmır. Bütün bunlar yalançı çərşənbənin aldadıcı olduğunu, insanların hələ də onun istisini təbiətdə, evlərində, həyətlərində hiss etmədiyini göstərir.

# Tarix İnstitutunda "Şərəfli ömrün bir səhifəsi: Tarix fakültəsi (1986-1990)" kitabı təqdim olunub

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Tarix İnstitutunda "Şərəfli ömrün bir səhifəsi: Tarix fakültəsi (1986-1990)" kitabının təqdimatı keçirilib.






İnstitutdan AZƏRTAC-a bildirilib ki, institutun direktoru, akademik Yaqub Mahmudovun anadan olmasının 80 illiyinə həsr edilən kitabın ideya müəllifi və tərtibçisi tarixçi alim Güntəkin Nəcəflidir.

Milli Məclisin deputatı Fəzail İbrahimlinin aparıcılığı ilə keçən tədbirdə 1980-ci illərin sonu - 1990-cı illərin əvvəlində Bakı Dövlət Universitetinin tarix fakültəsində təhsil almış tələbələr iştirak ediblər.

Tədbirdə Yaqub Mahmudovun yetirmələri - tarixçi alimlər Güntəkin Nəcəfli, Sevinc Ruintən, Rəsul Hüseynli, Dilavər Əzimli və başqaları bildiriblər ki, o, ölkəmizdə yüksəkixtisaslı tarixçi kadrların yetişdirilməsində mühüm rol oynayır. Onun bilavasitə elmi rəhbərliyi ilə 65 nəfər fəlsəfə və elmlər doktorlarından ibarət tarixçilər məktəbi formalaşıb.

Qeyd olunub ki, Yaqub Mahmudovun Azərbaycanın dövlətçilik tarixinin araşdırılması və erməni saxtakarlığına qarşı tarixi həqiqətlərin aşkarlanması sahəsində mühüm xidmətləri var. Ulu öndər Heydər Əliyev Yaqub Mahmudovun elmi fəaliyyətini yüksək qiymətləndirərək onu Azərbaycanın "böyük alimi", "böyük tarixçisi" adlandırıb. Yaqub Mahmudov Azərbaycan tarixinin tədqiqi sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Prezident İlham Əliyev tərəfindən 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilib.





# Leyla Əliyevanın paytaxta növbəti töhfəsi

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən, təmirsiz həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi paytaxt Bakıda uğurla davam edir.





Fevral ayının 18-də "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib. Yenilənmiş həyət Nizami rayonu, Bəhruz Nuriyev küç. 39, 41, 46, 51, 53, 55, 55/57, 57 ünvanlarında 2500 nəfərə yaxın sakinin yaşadığı coxmərtəbəli yaşayış binalarını əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad olması, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Layihə çərçivəsində abadlaşdırılan növbəti həyətdə də əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınmış, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şərait yaradılmışdır. Gənclərin asudə vaxtlarının səmərəli keçirmələri məqsədilə ərazidə 2 ədəd mini futbol meydançası, 2 ədəd şahmat meydançası, idman qurğuları, uşaqlar üçün döşəməsi xüsusi örtüklə örtülmüş uşaq əyləncə mərkəzi, 14 ədəd söhbətgah quraşdırılmış və oturacaqlar qoyulmuşdur. Bu cür meydançaların salınmasında əsas məqsəd gənclərin sağlam həyat tərzi sürmələrinə, sağlamlıqlarını möhkəmlədirmələrinə, asudə vaxtlarını səmərəli keçirmələrinə, o cümlədən onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılmasına nail olmaqdır.





Sakinlərin istək və maraqları nəzərə alınaraq, yeni işıqlandırma dirəkləri quraşdırılmış, binaların fasadları və giriş hissələri tam təmir olunaraq onların istifadəsinə verilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 100 ədəd ağac əkilib və 800 m² ərazidə yaşıllıq zolağı salınıb. Sakinlərin təhlükəsizliyinin təmin olunması məqsədilə ərazidə müşahidə kameraları quraşdırılıb.

Nizami rayonunda sakinlərin istifadəsinə verilmiş bu həyət layihə çərçivəsində abadlaşdırılan on altıncı həyətdir.

***Fərizə ƏHMƏDOVA, "Azərbaycan"***

# "Azərenerji" ASC yüksək gərginlikli ötürmə xətlərini yenidən qurur

"Azərenerji" ASC "Reabilitasiya Planı"na uyğun olaraq, istilik, su və kiçik elektrik stansiyaları, yarımstansiyalar o cümlədən enerjinin idarə edilməsi üçün dispetçer idarəetmə mərkəzi ilə yanaşı, sistem əhəmiyyətli yüksək gərginlikli ötürmə xətlərində də kompleks yenidənqurma və bərpa işləri həyata keçirir. Sistem əhəmiyyətli yüksək gərginlikli ötürmə xətlərində aparılan işlərin bir hissəsi başa çatıb, böyük hissəsi davam etdirilir.

Sistem əhəmiyyətli yüksək gərginlikli ötürmə xətlərində tikinti və yenidənqurma işlərinin aparılması enerji sistemin dayanıqlığı, etibarlığı və fasiləsizliyi üçün başlıca şərtlərdən biri olmala yanaşı, texniki itkilərin aradan qaldırılmasında da xüsusi əhəmiyyət daşıyır. Eyni zamanda, elektrik enerjisinin idxal və ixrac əməliyyatlarında da əsas yük, həm də ötürmə xətlərinin üzərinə düşür. Ən əsası isə yüksək gərginlikli ötürmə xətlərinin 69 faizi istismar müddətini keçdiyindən onların yenilənməsi təhlükəsizlik baxımından olduqca vacibdir.

Ötən ilin sentyabr ayında aparılan kadr islahatlarından sonra başlanan sürətli və növbəli iş rejimi nəticəsində yüksək gərginlikli 330 kV-luq 3-cü İmişli, 220 kV-luq ikidövrəli 1-ci və 2-ci Zabrat, 110kV-luq 2-ci Göyçay, 1-ci və 2-ci Kimyaçılar, 1-ci, 2-ci, 3-cü, 4-cü "Səkkizincikilometr" və 1-ci "Əhmədli" hava xətlərində aparılan tikinti yenidənqurma işləri yekunlaşıb.

"Cənub" Elektrik Stansiyası ilə "Xırdalan" yarımstansiyası arasında 220 kV-luq ikidövrəli hava xəttinin tikintisi başa çatmaq üzrədir.

Eyni zamanda, 220 kV-luq 3-cü, 6-cı Masallı, 110 kV-luq 3-cü "Sabirabad", 1-ci, 2-ci Lənkəran, 3-cü Suraxanı, 2-ci Maştağa, 3-cü Kürdəmir, 3-cü Yevlax, Yalama hava xətlərində və digər istiqamətlərdə də tikinti-quraşdırma işləri yekunlaşmaq mərhələsindədir. Paralel olaraq Azərbaycanla-Gürcüstan arasında çəkilən beynəlxalq miqyaslı 330 kV-luq Ağstafa-Qardabani hava xəttinin ikidövrəli variantda yenidən qurulması layihəsi üzrə işlər sürətlə davam etdirilir.

***"Azərbaycan"***


Bakı Şəhər İcra Hakimiyyəti Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri Uşaq Evləri İdarəsinin maddələr üzrə xidmətlərin satın alınması məqsədilə

***açıq tender elan edir***

**LOT-1 Bir sıra içməli su və kanalizasiya sistemi mövcud olmayan ərazilərdə yerləşən körpələr evləri, körpələr evi-uşaq bağçaları, uşaq bağçaları, xüsusi uşaq bağçaları və uşaq evlərində içməli su ilə təmin olunmasının və çirkab suların daşınması**

**LOT-2. Körpələr evləri, körpələr evi-uşaq bağçaları, uşaq bağçaları, xüsusi uşaq bağçaları və uşaq evlərinin balansında olan elektrik avadanlıqlarına, əsas vəsaitlərə baxış keçirilməsi və texniki rəyin verilməsi**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları yüksək kadr potensialına, lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər LOT-1 üzrə 200 manat, LOT-2 üzrə 100 manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhər İstiqlaliyyət küçəsi 18 ünvanından ala bilərlər. Əlaqələndirici şəxs; Məmmədova Raya Yusif qızı, tel:492-53-06

**Dövlət Xəzinədarlıq Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**M/H: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**
**Məktəbəqədər Təhsil Müəssisələri İdarəsi**
**İBAN H: AZ27CTRE00000000000002518337**
**VÖEN: 1701374451**
**Büdcə səviyyəsinin kodu Fond 7Y**
**Büdcə təsnifatının kodu 142340**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

**Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflər açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1(bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında büdcə, bank, sosial sığorta və vergi öhdəliklərinin olmaması haqqında arayış;*
- *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender proseduru " Dövlət Satınalmalr haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 02 aprel 2019-cu il saat 17-00-a qədər, tender təklif və bank zəmanəti isə möhürlənmiş, ikiqat zərfdə 10 aprel 2019-cu il sat 17:00-a qədər Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsinə ( ünvan: İstiqlaliyyət küç.-18) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zarflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklif zərfləri 11 aprel 2019-cu il saat 11:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

***Tender komissiyası***



**BİLDİRİŞ**

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, "Dinlər və sivilizasiyalararası dialoqdan əməkdaşlığa doğru" mövzusunda beynəlxalq konfransda iştirak etmək üçün ABŞ-dan dəvət olunacaq nümayəndə heyətinin Azərbaycana səfəri ilə bağlı aviabiletlərin və mehmanxana xidmətlərinin təkliflər sorğusu üsulu ilə satın alınmasını həyata keçirir. Maraqlanan təşkilatlar (012) 492-41-81 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 22.02.2019-cu il saat 11:00 tarixinədək qəbul olunur .

**Ünvan: Bakı şəhəri, Əhməd Cavad küçəsi, 16**

***Satınalmalar komissiyası***



**BİLDİRİŞ**

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, "Dinlər və sivilizasiyalararası dialoqdan əməkdaşlığa doğru" mövzusunda beynəlxalq konfrans və sərginin təşkili ilə bağlı təşkilati işlərin təkliflər sorğusu üsulu ilə satın alınmasını həyata keçirir. Maraqlanan təşkilatlar (012) 492-41-81 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 22.02.2019-cu il saat 11:00 tarixinədək qəbul olunur.

**Ünvan: Bakı şəhəri, Əhməd Cavad küçəsi, 16**

***Satınalmalar komissiyası***



*Düzəliş*

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin 13 saylı Ərazi Maliyyə Hesablaşma Mərkəzinin 6 fevral 2019-cu il tarixdə dərc olunmuş açıq tender elanındakı rekvizitlər hissəsində 7-ci xətt Salyan YXO, 9-cu xətt VÖEN: 7000035491 kimi oxunmalıdır. Tender komissiyası*


# Beynəlxalq aləm

## Pakistan Hindistandakı səfirini geri çağırdı



Pakistan Xarici İşlər Nazirliyi ölkənin Hindistandakı səfirini məsləhətləşmələr üçün geri çağırmışdır. Bu barədə nazirliyin rəsmi nümayəndəsi Məhəmməd Feysəl məlumat vermişdir.

Bu qərar Dehlinin fevralın 14-də hindistanlı hərbçilərin avtomobil karvanına hücumda İslamabadın əli olması ilə bağlı ittihamlarına görə iki ölkə arasında münasibətlərin kəskinləşməsi fonunda qəbul edilmişdir.

Keçən cümə günü Hindistan hökuməti də Pakistandakı səfir Acay Bisariyanı məsləhətləşmələr üçün geri çağırmışdır. Xatırladaq ki, ötən cümə axşamı Cammu və Kəşmir ştatında intiharçı-terrorçu 2500-dən çox hərbçini daşıyan avtomobil karvanının yaxınlığında minalanmış maşın partlatmışdır. Nəticədə 45 nəfər həlak olmuşdur. Hücuma görə məsuliyyəti "Ceyş-e-Məhəmməd" qruplaşması üzərinə götürmüşdür.

Son məlumata görə, Hindistan təhlükəsizlik qüvvələrinin keçirdiyi antiterror əməliyyatı zamanı hərbi karvana hücumun güman olunan təşkilatçısı Adil Əhməd öldürülmüşdür. Əməliyyat zamanı dörd hindistanlı polis həlak olmuşdur.

## Fransada etiraz aksiyalarında 26 nəfər tutuldu




Fransada etiraz aksiyalarının 14-cü dalğası zamanı azı 40,5 min nəfər adam müxtəlif şəhərlərin küçələrinə çıxmışdır. Bu barədə BFM telekanalı xəbər verir.

Polisin məlumatına görə, paytaxt Parisdə beş min "sarı jilet" etiraz etmişdir. Bu, ötən həftəkindən min nəfər çoxdur.

İğtişaşlara görə 26 nəfər saxlanmışdır. Polis aksiya iştirakçılarına qarşı gözyaşardıcı qazdan istifadə etmişdir.

Le Man şəhərində etirazçılar Fransada hakim "Respublika, irəli!" partiyasından deputat Damyen Pişeronun ofisini darmadağın etmişlər.

## Neapolda mafiya ilə əlaqədə şübhəli bilinən 30 nəfər saxlanıldı



İtaliya polisi Neapolda keçirdiyi reyd zamanı "Sekuino" mafioz tayfası ilə əlaqədə şübhəli bilinən 30 nəfəri saxlamışdır. Bu barədə ANSA agentliyi xəbər verir.

"Sekuino" tayfası Neapolun tarixi mərkəzindən şimalda yerləşən Rione Sanita rayonu üzərində nəzarət uğrunda mübarizə aparır. Şübhəli şəxslər mafiya ilə əlaqədə, pul qoparmaqda, habelə qanunsuz silah və narkotik maddələr alverində ittiham olunur. İstintaq hesab edir ki, onlar hazırda tayfanın həbsxanada cəza çəkən liderlərinin - Salvatore və Nikola Sekuino qardaşlarının əmrlərini yerinə yetirmişlər.

Xatırladaq ki, 2017-ci ilin noyabrında Neapolda xüsusi əməliyyat zamanı "Lo Ruso" mafioz tayfasının 40 üzvü saxlanmışdır.

## Liviyada oğurlanmış 14 tunisli fəhlə azadlığa buraxıldı

Liviyada bir neçə gün öncə oğurlanmış 14 tunisli fəhlə azad edilmişdir. Bu barədə yerli "Afrigatenews" portalı xəbər verir.

Məlumata görə, qonşu ölkənin vətəndaşları Aralıq dənizinin sahilində, Trablisin 50 kilometrliyində yerləşən Zaviyə şəhərinin yaxınlığında oğurlanmışdılar. Tunislilər avtobusda həmin yaşayış məntəqəsində yerləşən neftayırma zavoduna işə gedərkən naməlum silahlı şəxslər tərəfindən girov götürülmüşdülər. Adam oğruları fəhlələri Tunisdə narkotik maddələr alverinə görə mühakimə olunmuş Liviya vətəndaşına dəyişmək niyyətində imişlər. Portal xəbər verir ki, fəhlələr zərər çəkməmişlər. Hazırda onlar Zaviyə polis idarəsindədirlər.



*Təkrar*

# TENDER ELANI

***Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən təsərrüfat və azqiymətli malların satın alınması üzrə elan edilmiş açıq tender, Tender komissiyasının 31 yanvar 2019-cu il tarixli qərarı ilə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə uyğun olaraq baş tutmamış hesab edilmişdir.***

## "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq yenidən təsərrüfat və azqiymətli malların satın alınması üzrə *açıq tenderin keçirilməsi elan olunur*

Tender proseduru 29 mart 2019-cu il tarixdə saat 15:00-da Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binasında (Bakı şəhəri, R.Behbudov küçəsi 90) keçiriləcəkdir.

**Tenderdə iştirak etmək üçün iddiaçı aşağıdakı sənədləri təqdim etməlidir:**

- *tenderdə iştirak üçün ərizə;*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış) notariat qaydasında təsdiq edilmiş surətləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *iki nüsxə Azərbaycan dilində tender təklifi (tender təklifi 13 may 2019-cu il tarixədək qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (əsas şərtlər toplusuna əlavə edilən bank qarantiyası formasında);*
- *iddiaçının son 1(bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq dövlət orqanından arayış;*
- *iddiaçının son 2 (iki) il ərzində təsərrüfat və azqiymətli malların satışı sahəsində təcrübəsinin olması və əsas korporativ müştəriləri barədə məlumatlar. Son 2 (iki) il ərzində xidmət göstərilən müştərilərin adları və göstərilən işlərin açıqlaması verilməlidir;*
- *tenderin əsas şərtlər toplusunda iddiaçının ixtisas uyğunluğuna dair tələb olunan digər məlumat.*

**İddiaçı tender təklifini** və tender təklifinin bank təminatını ən geci **28 mart 2019-cu il saat 18:00-a qədər** möhürlənmiş, imzalanmış, yazılı surətdə ikiqat zərfdə, digər tələb olunan sənədləri isə ən geci **12 mart 2019-cu il saat 18:00-a** qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə bağlı zərfdə Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasına təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərf və sənədlər açılmadan geri qaytarılacaq və iddiaçı tenderdən kənarlaşdırılacaqdır.

**Satınalmaya başlanma vaxtı:** satınalma müqaviləsi imzalandığı gündən.

**Malların təqdim edilmə müddəti:** satınalma müqaviləsi imzalandığı gündən sifariş əsasında 1 (bir) il müddətində.

**Qiymətləndirmə meyarları:** maliyyə amili və korporativ müştərilərin sayı.

**Tenderdə iştirak etmək istəyən iddiaçılar** Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasından Azərbaycan dilində tərtib edilmiş tenderin əsas şərtlər toplusunu əldə edə bilərlər.

**Tender üzrə əlaqələndirici şəxslər:**
Elvin Şirdanov (Hüquq departamenti).
Telefon: 493-11-22, daxili (428)
Zöhrab Səfərəliyev (İnzibati departament).
Telefon: 493-11-22, daxili (101).

***Tender komissiyası***

---

*Təkrar*

## "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyəti tikinti materiallarının satın alınması ilə əlaqədar *açıq tender elan edir*

**Tender 1 LOT üzrə keçirilir:**
***Tikinti materiallarının satın alınması.***

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu "Təmiz Şəhər" ASC Bakı şəhəri, Xocalı prospekti 55 ünvanında yerləşən ofisindən əldə edə bilərlər. Əlaqələndirici şəxs - Tural Qüdrətov (telefon 012 - 464-41-11)

İştirak haqqı **400** manat.

**AZN hesabı**
**Benefisiarın adı: Dövlət Xəzinədarlığı Agentliyi**
**Hesab nömrəsi: AZ07CTRE00000000000004587901**
**SWIFT: CTREAZ22**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**Xəzinə hesab kitabın (XHK) nömrəsi: 4587901**
**Fond: 7**
**İqtisadi təsnifat kodu: 142340**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı* ***30*** *bank günü qüvvədə olmalıdır);*
- *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı* ***60*** *bank günü qüvvədə olmalıdır);*
- *Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Dövlət Sosial Müdafiə Fondundan arayış;*
- *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *Müəssisənin təcrübəsi haqqında məlumat;*
- *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının (Mənfəət vergi bəyannaməsi) surəti;*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **11 mart 2019-cu il** tarixinə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **19 mart 2019-cu il** saat 12:00-a qədər "Təmiz Şəhər" ASC-nin Xocalı prospekti, 55 ünvanında yerləşən ofisinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **27 mart 2019-cu il** saat 17:00-da Bakı şəhəri, Xocalı prospekti 55 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

---

## "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyəti öz təsərrüfat sahələrində yaşıllaşma işlərinin aparılması, əkilmiş ağac və bitkilərə qulluğun göstərilməsi xidmətinin satın alınması ilə əlaqədar *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir:

**"Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyəti öz təsərrüfat sahələrində yaşıllaşma işlərinin aparılması, əkilmiş ağac və bitkilərə qulluğun göstərilməsi xidmətinin satın alınması.**

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu "Təmiz Şəhər" ASC Bakı şəhəri, Xocalı prospekti 55 ünvanında yerləşən ofisindən əldə edə bilərlər. Əlaqələndirici şəxs - Tural Qüdrətov (telefon 012 - 464-41-11)

İştirak haqqı **400** manat.
**AZN hesabı**
**Benefisiarın adı: Dövlət Xəzinədarlığı Agentliyi**
**Hesab nömrəsi: AZ07CTRE00000000000004587901**
**SWIFT: CTREAZ22**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**Xəzinə hesab kitabın (XHK) nömrəsi: 4587901**
**Fond: 7**
**İqtisadi təsnifat kodu: 142340**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı* ***30*** *bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı* ***60*** *bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *müəssisənin təcrübəsi haqqında məlumat;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının (Mənfəət vergi bəyannaməsi) surəti.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **01 aprel 2019-cu il** tarixə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **09 aprel 2019-cu il,** saat 17:00-a qədər "Təmiz Şəhər" ASC-nin Xocalı prospekti 55 ünvanında yerləşən ofisinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **10 aprel 2019-cu il** saat 17:00-da Bakı şəhəri, Xocalı prospekti 55 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

---

## BİLDİRİŞ

Bakı Şəhər İcra Hakimiyyəti Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsinin Mərkəzləşdirilmiş mühasibatlığın əməkhaqqının hesablanması bölməsində idarənin və körpələr evi, körpələr evi-uşaq bağçaları, xüsusi uşaq bağçaları və uşaq evləri üçün əməkhaqqı uçotunun avtomatlaşdırılması, kompüter proqramına illik proqram xidmətlərinin göstərilməsinin satın alınması üçün 12 fevral 2019-cu il tarixdə kotirovka proseduru həyata keçirilmiş, müsabiqənin qalibi fiziki şəxs Adil Ağalar oğlu Salehov olmuşdur.

***Tender komissiyası***

---

## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 16 fevral 2019-cu il tarixli sayında "Azərsu" ASC-nin daxili vəsaiti hesabına reaktiv, reagent, avadanlıqlar və mal-materialların satın alınması məqsədilə dərc edilmiş elanda ilkin sənədlərin qəbulu tarixi mexaniki olaraq səhv göstərilmişdir. İddiaçılar tələb olunan sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 04.04.2019-cu il saat 18:00-dək təqdim etməlidirlər.

Əlaqələndirici şəxs - Təchizat və satınalmaların idarə olunması departamentinin Satınalmaların təşkili şöbəsinin mühəndisi Hikmət Qasımov. (hikmat.qasimov@azersu.az +994 12 431-47-67(22-49).

***Tender komissiyası***

---

## BİLDİRİŞ

"Azərbaycan İnvestisiya Şirkəti" ASC işçilərin könüllü tibbi sığorta təminatı üzrə xidmətlərin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir.

Maraqlanan şirkətlər (+994 12) 488-80-10 nömrəsi ilə telefon əlaqəsi saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 21.02.2019-cu il saat 17:00-dək qəbul olunur.

***Tender komissiyası***

---

## BİLDİRİŞ

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin "Sumqayıt Kimya Sənaye Parkı" MMC 2018-ci il üçün illik maliyyə-təsərrüfat fəaliyyətinin auditi xidmətinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir. Kotirovka sorğusunda iştirak etmək üçün qiymət təklifi (nəqliyyat, sığorta, vergi, gömrük rüsumları və digər xərclər nəzərə alınmaqla) və digər zəruri sənədlər 26 fevral 2019-cu il saat 18:00-dək "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin Bakı şəhəri, Xocalı prospekti, 37, "Demirchi Tower" ünvanında yerləşən ofisinə təqdim edilməlidir. Əlaqələndirici şəxs - Abbas Mamedov (telefon:012-488-80-65). Zərflər 27 fevral 2019-cu il saat 12:00-da həmin ünvanda açılacaqdır.

Maraqlananlar müvafiq məlumatları "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin Bakı şəhəri, Xocalı prospekti 37, "Demirçi Tower" ünvanında yerləşən ofisindən yazılı müraciət etməklə və ya www.scip.az saytından əldə edə bilərlər.

***Tender komissiyası***

---

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsindən Valeh Ələsgərov, Kamran Nəbizadə, Mirkazım Kazımov, Rövnəq Abdullayev, Mirzəcan Xəlilov, Mixail Zabelin, əməkdaşlar Şamil Hüseynov və Sürəyya Abdullayeva Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Həsənova əzizi

**DİLAVƏR MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova və komitənin kollektivi Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Həsənova əzizi

**DİLAVƏR MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə Məmmədova Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Həsənova əzizi

**DİLAVƏR MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə Məmmədova Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradova qardaşı

**ZAKİR MURADOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadəyə bacısı

**PAKİZƏ PAŞAYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Həsənova əzizi

**DİLAVƏR MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadəyə bacısı

**PAKİZƏ PAŞAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İsaxan Vəliyev və Rufiz Qonaqov Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Həsənova əzizi

**DİLAVƏR MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İsaxan Vəliyev və Rufiz Qonaqov Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradova qardaşı

**ZAKİR MURADOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadəyə bacısı

**PAKİZƏ PAŞAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Vüqar Əlisoy "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadəyə bacısı

**PAKİZƏ PAŞAYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi Baş Prokurorluğun Kadrlar idarəsinin böyük prokuroru İradə Həsənovaya bacısı

**ESMİRALDA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Həsənova əzizi

**DİLAVƏR MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadəyə bacısı

**PAKİZƏ PAŞAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Həsənova əzizi

**DİLAVƏR MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Şəhəri Xətai Rayon Məhkəməsinin sədri Nazim Tağıyev və məhkəmənin kollektivi Bakı Apelyasiya Məhkəməsinin hakimi Habil Məmmədova anası

**TAMARA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8505
Sifariş 591
Qiymәti 40 qәpik